**MƏNZƏR NİYARLI**



# VƏTƏNDƏN VƏTƏNƏ

**(Roman)**

## Arazı ayırdılar

***Cümhuriyyətin yüz illiyinə***

***Ən təmiz hiss vətən üçün***
***qəribsəyən insanların hissidir.***
***Vladimir Nabokov***

Gözümü açanda səhərin alatoranlığına sevindim. Həyəcandan elə də dərin yuxuya getməmişdim. Hava yavaş-yavaş açıldıqca ürəyim yarpaq kimi əsirdi. Birdən günəş gizlənqaç oynayan uşaq kimi üfüqdən boylandı. Gün başlayırdı. Bu günki günün gəlişini o qədər arzulamışdım ki...Valideynlərimin hər gün yatanda da, duranda da fikirlərindən çıxmayan vətən, yurd həsrətinə, deyəsən, bu gün mən son qoyacaqdım. Neçə ay idi ki, günlərimi sayırdım. Onların bu həsrəti mənə də sirayət etmişdi. Axı mən də o torpaqda anadan olmuşdum. Doğru deyiblər, istər pis, istərsə də yaxşı vətən çəkir adamı. Axır ki, yolların buzu qırıldı. Bir məkanı iki yerə bölən məftillər yerində dursa da gediş-gəlişə icazə verilib. Demək, bu gün yola düşürəm. Əgər bizi aparan avtobus vaxtında  çatsa düz saat dörddə gömrükdən keçməliydik. Xarici sənədim və on günlük vizit vərəqəm özəl şirkətdən idi. Şirkət turistlərə sərbəstlik vermişdi. Bu da mənə sərf edirdi. Sərhədi keçəndən sonra kim harda istəsəydi qala bilərdi. Demək, mən turistlərdən ayrılıb adı çəkiləndə ürəyimi sızladan, Savalan dağının ətəyində

yerləşən kəndimizə gedə bilərəm. Ata yurduma getmək, yaxınlarımı, ən çox da bibimi görmək arzusu həmişə mənim ürəyimi titrədib. Bilirəm, ayrılıq illərinin məsafəsi o qədər böyükdür ki, nənəm, mənim ipək nənəm indiyə qalmaz, dünyasını çoxdan dəyişər, əmilərim də həmçinin. Bəs bibim? Axı o ailənin ən kiçiyi idi. Yox, yox mənim qəşəng bibim hələ yaşı çox olsa da yaşayar. Bibimi görməliydim. Anam da tez-tez arzulayardı bibimi. Elə hey ondan danışardı. Zavallı anamın ölümündən qabaq gözləri tez-tez Cənuba dikilərdi və mənə ürəyini boşaldıb: − İşdi-şayət, yollar açılsa, gedib taparsan doğmalarımızı,− deyərdi,− Qardaşından gözüm su içmir. Soyuqqanlıdır İsmayıl, ancaq sən başqa cürsən, qızım, eşidirsən? Pətəxora gedərsən. Axı biz ordan çıxanda sən yekə qız idin. Ağlın ki, hər şeyi kəsirdi. Ürəyimə damıb sərhəd açılacaq, onda mən həyatda olmayacağam. Sora, qızım, bir vəsiyyətim də var. Qəbrimizin üstündən torpaq götürərsən. Bircə ovuc da bəsdi. Elə ki, Savalan dağına yaxınlaşdın, tökərsən onun ətəyinə. Onda qəbrimdə rahatlıq tapacam. − Anam yaşlaşıb, xəstəlik də bir tərəfdən ona əzab verir, ayaqları sözünə baxmır. Diz qapağının ağrısından səhərin gözü açılana qədər ufuldayır.

− Elə demə, mömə, bəlkə qismət oldu, səni də apardım.

− Allah ağzından eşitsin.

Anama qismət olmadı vətənini görmək...Mənimlə söhbətindən iki ay keçmədi ki, dünyasını dəyişdi. Atamdan beş il sonra. Onun kimi ürəyi nisgilli getdi. Çətin idi, vətəndə yaşayasan və vətənin o biri tərəfinə adlaya bilməyəsən. Bu nə qadağalardı, bu nə zülmdü insanların başına gətirirlər. Ürəyimdə bibimin yaşını hesablayıram və vahimələnirəm. Qəlbimi qüssə bürüyür. Birdən... Yox, yox... allah eləməsin. Allahın köməyilə görəcəyəm.

* * *

Sakitlik idi. İns-cins görünmürdü. Qəbirlərin arası ilə keçdikcə tər məni aparırdı. Əvvəlcə adamsızlıqdan üşəndim. Birinci dəfəydi ki, qəbir üstə tək gəlirdim. Doğmalarımın baş daşları uzaqdan görünürdü. Onlara tərəf tələsirəm. Yaxın qəbirlərin birinin üstündə “Yasin” oxuyan mollanın səsini eşidib sakitləşdim. Bir azan səsini, bir də muğamı dinlərkən qəlbim kədərlə dolurdu. Bu səslərdə bir hüzn, bir fani dünyanı dərindən duymaq çağırışı vardı. Novruz bayramının axşamı plov qazanlarının ağzı açılmamış şəhər əhli əllərində səməni, nərgiz, qərənfil gülləri vəfat etmiş əzizlərinin qəbirlərini ziyarət edər, dilənçilərə pul, bayram bişmişlərindən paylayar, ürəkləri bununla təsəlli tapardı. Mənimsə bu günki gəlişimin məqsədi başqaydı. Gəlmişdim ki, doğmalarımla müvəqqəti olsa da vidalaşım və həm də qəbirlərinin üstündən torpaq götürüm. Əyilib bir ovuc torpaq götürdüm və salafana tökərək çantama qoydum. Sonra doğmalarımın qəbir daşına su çilədim, Gözüm mollanı axtardı. Molla “Yasin”ini qurtarıb mənə sarı gəlirdi. – Allah o dünyalarını versin, Allah rəhmət eləsin. – Yaxınlaşa-yaxınlaşa molla ölülərimə rəhmət diləyirdi. Mən də mollaya dil-ağız edib qəbirləri göstərdim. – Hamısına bir yerdə, xahiş edirəm, “Yasin” oxuyarsınız, – deyib ona çatacaq haqqını ödədim. Əl çantamda bir ovuc torpaqla pay-piyadə qəbiristanlıqdan çıxıb “Nəbadət” bağının yanına qədər gəldim. Elə buradaca taksiyə oturub maşını evimə sürdürdüm. Taksi İçəri şəhərin yanından keçəndə ürəyim atdandı. Neçə əsri yola salan bu tarixi məkanın yağışa, qara, küləyə, toza, torpağa sinə gərən divarları mənə o qədər doğma və əziz göründü ki...Bu küçədən keçəndə səksənirəm və sanki bədənimdən ağır sızıltı keçir. Axı uşaqlıq illərimin bir parçası burda qalmışdı. Ömrümdən keçən o illərin uzaqlığı mənə təəccüblü gəlir. Elə bilirəm ki, hələ də uşağam və anam dar, ensiz həyətimizin diyir-diyir

daşlarının üstündə xalça-palaz yuyur və mən də yalın ayaqlarımla suyu şappıldada-şappıldada o tərəf-bu tərəfə qaçıram. Yox, o vaxtdan, yarım əsrdən çox keçib. Artıq ahıllaşsam da, o illəri unuda bilmirəm. Dərdsiz, qayğısız yaşayan uşaqlardan fərqli olaraq o illərimin uşaqlıq acısı hələ də canımdan çıxmayıb və mənə elə gəlir ki, heç vaxt da çıxmayacaq.

* * *

Ailəmizin cənuba köçdüyü həmin il yaz ayına düşmüşdü. Yadımdadır o vaxt hər yerdə olduğu kimi İçəri şəhərin dar, ensiz küçələrindən yazın qoxusu gəlirdi. Qonum-qonşular və biz uşaqlar yazın gəlişini səbirsiziklə gözləyirdik. Bu səbəbsiz deyildi, axı qarşıdan əziz bayramımız – Novruz gəlirdi.

İçəri şəhərin Qoşa qala qapısının yaxınlığında yerləşən evimizdən xeyli aralı dənizə doğru bir neçə yol uzanır. Enli və ensiz yollar. Orta yol ucalığı, əzəmətiylə seçilən Qız qalasına gedir, sağ tərəfdəki ensiz yol isə o yolu tutub gedənləri Şirvanşahlar sarayına aparır. Saraya yaxınlaşdıqca əsrləri adlayıb öz görkəmini, möhkəmliyini itirməyən nəhəng binanın daş divarları görünür. Havalar istiləşdikcə günəşin şəfəqləri sarayın sütunlarını işım-işım işıldadır. Bu qızılı işartılar uzaqdan o qədər gözəl görünür ki... Yaz günəşinin hərarəti insanların canına hopduqca adamlar qalın çuxalarını, kürklərini çıxardıb yüngül geyimə keçmişdilər. Qonşu qadınlar, anam da onlarla birgə, hərçənd ki, köçməyə hazırlaşırdıq, təmizlik işlərinə başlamış, evlərin damına palaz sərib yorğan-döşəkləri günə verir, ev-eşiklərin tozunu alırdılar. Dalandar Əlimuxtar əmi hər il olduğu kimi sakinlərin görüm- baxımından sonra həyətin küçəyə baxan divarlarına şirə çəkərdi. Axır ki, bayrama bir həftə qalmış anamla qonşularımız nə vaxtdan bəri alıb yığdıqları azuqələri - unu, yağı, şəkəri, qoz, fındıq, badam ləpəsini

çıxarıb bayram şirnisinin biş-düşünə başladılar. Şəkərburanın, paxlavanın, şorqoğalın ətri hər evdən, hər küçədən gəldikcə onları nə vaxt yeyəcəyimiz günü səbirsizliklə gözləyirdik. Mən anamın ətəyinə dolaşa-dolaşa onun buyruqlarını yerinə yetirir, həm də körpə qardaşıma baxır, onu gözdən qoymurdum. Qardaşım İsmayılın ilan boğan vaxtı idi. İməkləyə-iməkləyə hara gəldi başını soxurdu.

Hamı bayram əhval-ruhiyyəsindəydi. Sevinirdik. Anam da sevinirdi. Anamın sevincinin səbəbi başqaydı. Dörd il olardı ki, Zinyət nənəm atamın anası həmişəlik cənubi Azərbaycana köçmüşdü. Pətəxor kəndinə. Yurd adamı çəkir, − deyərdi. Ona görə də nənəm Bakıda qala bilmədi. Kəndimizin səfalı havasının, buz kimi suyunun həsrətini çəkərdi. Əl-ayağını yığıb gözləri dola-dola: − Bunnan sora Şurəviyə qayıtdı yoxdu,− deyərdi. − Həm də ev-eşiyini işıqsız qoymaq istəmirdi. Babam öləndən sonra nənəm daha da kövrəlmişdi:

− Birdən, – deyərdi, – Allah eləməmiş yollar bağlanar üzümüzə, evim-eşiyim, kişinin qəbri baxımsız qalar (babam altı il idi ki, dünyasını dəyişmişdi), evimin çırağını yandıran olmaz. Nənəm ürəyini boşaldıb ağlamsınardı. Düzdü Abdulla əmimlə Səməd əmim ordaydı. Abdulla əmim subay idi. Adını eşitmişdim, özü yadıma gəlmirdi. Nənəm deyərdi ki, Abdulla Təbrizə gedəndən üzünü görmürəm. Söhbətlərindən başa düşməsəm də əmim kimlərləsə gizlin işlər görür. Sonralar ağlım kəsəndə başa düşdüm ki, "Tudə"çilərə qoşulub. Nənəm kiçik oğlunun nigarançılığını edər, yadına düşdükcə adını çəkə-çəkə ağlardı. Nənəmin Səməd əmimdənsə gözü su içmirdi Ona nə var, - deyərdi, –Bir də gördün arvadını vurdu qoltuğuna ya Şurəviyə gəldi, ya da çıxıb getdi Tehrana. Səməd hərdəmxəyaldı, həm də arvadağız. Badam nə çalırdısa, gərək onun çaldığı

havayla oynaya. – Nənəm yığışıb kəndə gedəndən sonra neçə dəfə atamla əmimə ismarıç göndərmişdi ki, siz də köçünüzü yığıb gəlin, zəmanə korlanıb. Bir də gördün əli qurumuşlar sərhədi bağladılar.

Anamı nənəmgil köçüb gedəndən sonra burda – qərib yerdə tək qalmaq qorxusu həmişə üzürdü. Atamı da vətən çəkirdi. Atam torpağa bağlı adam idi. Əkin-biçin işinə öyrəşdiyindən başqa işlərlə, xüsusən ticarətlə arası yox idi. Atam böyük qardaşı Bulud əmimlə məsləhətləşəndən sonra belə qərara gəldilər ki, o da nənəmdən sonra öz ailəsini, yəni anamı, məni və qardaşımı götürüb Cənuba köçsün. Anamı da sevindirən bu köçmək məsələsiydi. Həm də Novruzu orda keçirmək − o biri tərəfdən də nişanlı bibim Mələyə bayramlıq gələcəkdi, həmin günü, orda olmaq sevinci anamın üz-gözünə yayılmışdı. Neçə il idi ki, yurdunun, qohum-əqrəbasının xiffətini eləyən anamın sevindiyini görüb mən də sevinirdim. Anam sevinə-sevinə evin içində hərləndikcə, mən də onun yanında vurnuxurdum.

* * *

Anam hər gün evin işini görəndən, xörəyini bişirəndən sonra boş vaxtı olan kimi duaya oturardı. Əvvəlcə namazını qılar, sonra namaz üstə tanıdığı, tanımadığı, hətta yolunu azmışlara da dua edərdi ki, Allah-təala onları düz yola qaytarsın. Mən uşaqlıqdan anamın böyüründəcə bitib qaldığım üçün onun bütün hərəkətlərini izləyirdim. Anamın qeybətlə arası yox idi, türkəsayalığı da vardı. Qonşularımız anamı sadəlövhlüyünə, xasiyyətindəki saflığına görə sevərdilər. Ən çox da evimizin sağ tərəfində iki gözlü evdə yaşayan Bibixanım nənə. Bibixanım nənənin əri cavankən rəhmətə getmişdi. Yeganə qızı ərdəydi. Qızı, nəvələri hərdən ona baş çəkməyə gələrdilər. Bibixanım nənə tək yaşadığından günü bizdə keçərdi. Anam da onun xətrini istəyərdi. Əsli İçəri şəhərdən olduğu üçün Bakı

xörəklərinin, şirnilərinin ustası idi. Şəkərburanı, şorqoğalı, paxlavanı, xörəklərdən düşbərə, qutab, fısıncan bişirməyi anam ondan öyrənmişdi.

Bulud əmim arvadı Leyla, balaca qızı Səkinə kənddə- Pətəxorda qaldığı üçün, bizimlə birgə yaşayırdı. Biz hamımız, atam da, anam da ailəmizin ağsaqqalı, böyüyü olduğu üçün əmimin hörmətini saxlayar, axşamlar işdən gəlməmiş şamımızı onsuz etməzdik. Anam əmimi qardaşı qədər istəyirdi və ona "Ağaqardaş" deyə müraciət edərdi. Əmim işdən gələn kimi anam o saat yaşmaqlanar, çay- çörək tədarükünü görərdi. Hündür boylu, enli kürəkli Bulud əmimin qartal baxışları onu zəhmli göstərsə də, əmim yumşaq təbiətli idi. Əmim bizdən əvvəl Bakıya gəlmişdi. Onda Qızıl ordunun Azərbaycana yeridilməsinə beş-altı il qalardı. Bakıda bolşeviklər tüğyan etsə də, hər yerdə at oynatsalar da hələ Azərbaycanı Rusiya tam işğal etməmişdi. Əmim Bibiheybətdəki neft müəssisəsində işləyirdi. Arabir kəndə gedərdi. Bir dəfə kəndə gedəndə nənəm onu kəndin ucaboylu, qonur gözlü bir qızıyla − Leylayla evləndirmişdi. Ondan bir qızı da vardı. Əmim arvad-uşağını bir neçə dəfə Bakıya aparmaq istəmişdisə də nə Leylanın anası, nə də Zinyət nənəm razı olmamışdı: – Arvadını aparsan bir də kəndə qayıtmazsan, − deyərmişlər. Nənəm istəyirdi ki, övladlarını bir yerə - ata yurduna yığsın. – Allah eləməmiş, yollar bağlansa hamımız didərgin düşərik. – deyərdi. Əmim də Bakıdakı işindən ayrıla bilmirdi. Şah üsul-idarəsi Cənubi Azərbaycanda tüğyan etdiyi bir vaxtda işsizlik, ərbabların özbaşınalıqları, qazıların rüşvətxorluğu, kəndxudaların qəddarlıqları xalqı göz açmağa qoymurdu. Azəri dilində bir məktəb də yox idi ki, öz dilində bir kitab oxuyasan. Əmimin işi, vəzifəsi ürəyincə idi. Hörməti də öz yerində. Atamınsa kömürçü bazarının yanında balaca bir xırdavat dükanı vardı. Azuqəmiz o dükandan çıxırdı. Ancaq atam dükana, ticarət işinə heç cürə

alışa bilmədiyinə görə həvəssiz gedib gəlirdi. Həm də yurd çəkirdi onu. Onunku əkin-biçin idi. Pətəxordakı ata evimizdə mal-qaramız, qoyun-quzumuz vardı. Onları nənəm, Səməd əmimlə arvadı Badam əmidostum idarə edirdi.

Atam təbiətən sakit adam olduğundan səsini nadir hallarda eşidərdik. Sakit olsa da hərdənbir duzlu, yerində işlətdiyi zarafatları hamını güldürərdi. Səxavətliydi. Əlinə düşəni kasıb-küsüba paylayardı. Anam danışardı ki, hətta bir dəfə qonşunun uşağı çay almağa gedərkən anasının ona verdiyi pulu itirir. Atam dalanın ağzında uşağı ağlayan görüb: − Ay bala, niyə ağlayırsan? − soruşur.

− Pulumu itirmişəm, əmi.− Uşaq təzədən hönkürür. – Üç manat əzik pul vermişdi anam mənə, gedib çay alacağdım.

Atam cibindən üç manat pul çıxarıb uşaqdan gizlin ovcunda əzərək yerə atır: − Ağlama, oğlum, − deyir, −Bax, gör o pul sənin döyül,- deyə pulu uşağa göstərir. Uşaq sevinə-sevinə pulu götürür. − Tapdım, əmi, budey, düşüb bura.

Anam: − Dədənin belə işləri çox olub. Saymağnan qurtaran döyül. Sonra gülümsəyir: – Kimi ki, bala, söyündürürsən ha, savab yiyəsi olursan,- deyərdi.

Bulud əmim də duzlu, məzəli əhvalatlar danışardı. Atam əmim danışanda susardı və ona diqqətlə qulaq asardı. Əmim hiss edərdik ki, danışmaqla başını qatır, çünki arvadı Leylanın, balaca qızı Səkinənin xiffətini edərdi. Əmim Bakıda bizimlə yaşasa da ayda, iki ayda bir dəfə Pətəxora − onları görməyə gedərdi.

Babamın əvvəllər əkin yeri olub. Nəyə görəsə torpağı əlindən çıxıb. Nə yaxşı ki, anam demişkən, mal-qaramız, qoyun-quzularımız vardı. Bunlar da olmadı kənddə yaşamağa dəyməzdi.

Anamın sevinməyinin bir səbəbi də vardı. O da keçən cümə axşamı Pətəxorlu Tumgöz Fərruxun Bulud əmimlə, atamla torpaq sövdələşməsiydi. Tumgöz Fərrux əmimlə təsadüfən Qız qalasının yanında rastlaşıb. Salaməleykümdən sonra Pətəxordakı əkin yerini satmaq istədiyini bildirib. Əmim də belə qərara gəlib ki, o torpağı alsın. Ona görə də kişini evə dəvət etdi. Axşamüstü əmim Tumgöz Fərruxu evə gətirdi. Atam Tumgöz Fərruxla görüşüb, hal-əhval tutduqdan sonra onu yuxarı başda əmimin yanında otuzdurdu. Kişinin üzünün qaralığı qara çuxasından seçilmirdi. Danışanda xırda, tum gözlərini tez-tez qırpırdı. Hava qaraldığından anam nöyütü qurtarmış lampaya nöyüt töküb yandırdı, şüşəsini üstünə saldı. Sonra yerdəcə kilimin üstə öz əliylə sırıdığı döşəkcələrin üstündə bardaş qurub oturanların yaxınlığına qoydu. Lampanın işığında Tumgöz Fərruxun tum gözlərinin tez-tez qırpdığını görürdüm. Anam şam yeməyinin tədarükünü görməyə başladı. Arxasınca iməkləyə-iməkləyə gəzən qardaşımı mənə verib təndirə yapdığı çörəyi əliylə bir neçə yerə bölərək məcməyiyə yığdığı soğanın, göy-göyərtinin yanına qoydu və gətirib süfrəyə düzdü. Sonra rəfdən evdəki adamların sayı qədər kasa çıxarıb yaxaladı. Anam həmin gün parça bozbaşı bişirmişdi. Hamının payını çəkdi: − Nuş olsun, − deyib məni aynabəndə çağırdı. Anamla mən qonağa görə yeməyimizi aynabənddə yedik.

O günü Tumgöz Fərrux bizim evdə çörək kəsdi. Çay içiləndən sonra Bulud əmimlə atam torpaq sövdələşməsinə başladı. Bulud əmim cibindən pul kisəsini çıxardıb pulunun hamısını ortaya qoyanda atam da evin

divarına pərçim edilmiş taxçaya yaxınlaşdı, çoxdan anamın israrıyla yığdığı pulları götürüb saydı. Əmimdəki pulların miqdarı ilə taxçadakı pulun miqdarını bir yerə toplasalar da Tumgöz Fərruxun dediyi məbləğdən az oldu. Gözlərini puldan çəkməyən kişi narazıcasına başını yellədi. Aynabənddə iplərdən tavana pərçim edilmiş yüyrüyündə qardaşımı yatızdıran anamın bir qulağı içəridəkilərin söhbətində idi.

Tumgöz Fərrux deyirdi: − Yox, əmoğlu, deyəsən, bizim danışığımız baş tutmadı. Siz sağ, mən salamət, deyib ayağa qalxmaq istədi. Anam nə fikirləşdisə yüyrükdən əlini çəkib tələsik eyvana keçdi, mən də onun ardınca. Anam başına bağladığı şalının altından qulağındakı qırx düymə sırğasını, boynundakı arpa boyunbağısını, mirvari qaşlı üzüyünü çıxardıb təzədən  yaşmaqlanıb otağa girdi. Üzünü əmimə tutub,- Ağaqardaş,- dedi, − əgər Fərrux qardaş pulun azlığından narazılıq edirsə bu qızılları da götürsün.

Anamın bu arpa boyunbağısından xoşum gəlirdi. Balaca qardaşımı anam əmizdirəndə əlini anamın boynuna uzadıb boyunbağını oynadardı. Hətta bir dəfə dartıb qırmışdı da.

Tumgöz Fərrux anamın süfrəyə qoyduğu qızılları görəndə elə bil gözləri böyüdü.

− Ay bacı, oları bəri elə görək. Neynək, − dedi, − Mən razı.

Əmimlə atam kağızsız, sənədsiz torpağı Fərruxdan aldılar. O vaxtlar alqı-satqı beləmi olurdu, yoxsa əmimlə atamın sadəlövlüyü, insanlara olan inamı idimi? Daşınmaz əmlakı, torpaq sahəsini sənədsizmi alırdılar? Mən altdan-altdan Fərruxa baxırdım. Pətəxorda uzun illər qonşumuz olan bu kişinin gözünün içini görmək istəyirdim. O gedəndən sonra atama yaxınlaşıb qulağına pıçıldadım.

− Dədə, o əmi pis adamdı.

Atam təəccüblə üzümə baxdı və narazıcasına:

− Niyə elə deyirsən, bala? – soruşdu, − Özündən böyüklər barədə pis söz deməzlər.

− Mən düz deyirəm də.

Əmim mənim sözlərimə qəhqəhə çəkib güldü..

− Düz sözə nə deyəsən. Həlimə balamız, deyəsən, kişini bizdən yaxşı tanıyır, − dedi, − Yadındadı, Əhməd, Fərrux yeniyetmə oğlan idi. Onun-bunun qapısından toyuq-cücə oğurlayardı. – Əmim atama Fərruxun toyuq oğrusu olduğunu yadına saldı. Gülüşdülər.

* * *

Cənuba köçməyimizə lap az qalıb. Atam məni evimizin yaxınlığındakı məktəbə qoymuşdu. Artıq hərflərin hamısını öyrənmişəm. Müəllimən arıq, sısqa bir qadındır. Əsəbidir. Tez-tez bizi acılayır. Ərini, deyilənə görə, qumar üstə öldürmüşdülər. Bir dəfə anamı çarşabda gördüyü üçün məni uşaqların yanında pərt etdi: − Anana de, o çarşabı başından atsın. Cavan qadındı. Qoca olsaydı fikir verməzdim, − dedi.

Müəlliməmin sözlərini gəlib anama çatdırdım. Anam əlini yelləyib başını buladı. Məktəbimizdən ayrılmaq istəmirdim. Ancaq nədənsə kəndimizə getməyimizə də sevinirəm. Hamıdan çox sevdiyim bibim Mələyi, Zinyət nənəmi, əmilərimi, ana tərəfdən olan qohumlarımızı görəcəkdim. Həm də evimizin lap yaxınlığından çay axır. O çayın səsi üçün darıxırdım. Çayın qırağına bibimin qucağında getməyim, gül-çiçək dərdiyim gün də yadımdaydı.

* * *

Nə vaxt idi ki, günlərini sayan anam Mələk bibimə cehizlik hədiyyələri, qohumlara aldığı pay-puşları bir-bir sandıqdan çıxarıb xurcunlara, həsir zənbillərə yerləşdirirdi. Axşamüstü Bibixanım nənə qapımızın ağzında göründü. Hamımız tənha yaşayan Bibixanım nənəyə öyrəşmişdik. Bir gün görməyəndə darıxırdıq. Bibixanım nənə : − Hər vaxtınız xeyir, − deyib içəri girdi. − Elə namazımı qılıb çıxdım evdən, görüm, Qumru neynir, nə təhərdi?

Anam Bibixanım nənəyə “Xoşgəldin” deyərək kilimin üstünə döşəkcə atıb yer göstərdi: – Sən allah, − dedi, − quru yerdə oturma, yumşaq yerə keç.− Bibixanım nənə anamın dediyi yerdə bardaş qurub oturdu. Birdən arvad anamın yır-yığış etdiyini görüb duruxdu. Sonra ağlamsına-ağlamsına: – Sən, ay qızım, lap gerçəklədin ki ... Bu nə yır-yığışdı? O dəfə mənə deyəndə ki, gedirik, elə bildim zarafat eləyirsən. Doğrudan gedirsüz?

Anam: − Hə gedirik, ay xala, − dedi, − Allah qoysa, ancaq sənün də, qonşuların da xiffətini eləyəcəyəm. Day neyləmək olar. Elim, obam ordadı.

Bibixanım nənə vaysındı: − Bıy, ay Qumru, sənsiz biz neynəyəciyik. Üzümüz, gözümüz öyrəşib sənə. Dərdimizə, şərimizə, mağıl, qalırdın. Ölülərimizə Quran oxuyurdun.

Bibixanım nənənin ardınca anamla yaşıd olan Səlimə xalayla bizim küçədən iki tin aşağıda − göy qapılı evdə yaşayan, ərindən nə üçünsə boşanmış Vəcixanım xala gəldi. O da bizə tez-tez gələrdi. Saçının tağını ortadan ayırar, hər iki qulağının qabağına birçəyini burub yapışdırardı. Birçəyi onun ağappaq üzünə yaraşıq verərdi. Ağıllı, qara gözlərində bir sərtlik hökm sürürdü. Qəribədir ki, bu dul gəlinin əmimi görəndə üzünün sərtliyi birdən-birə əriyərdi. Altdan-altdan gülümsəyib dalanların arxasıyla ayaqları dolaşa-dolaşa keçib görünən yerdə dayanardı. Anam Vəsixanımdan

söz düşəndə deyərdi ki, Vəsixanımın valideynləri Şamaxı zəlzələsində həlak olublar. Vəsixanım bir otaqlı evdə kiçik qardaşıyla yaşayırdı. Görünür, Səlimə xala demişkən, bizim köçmək xəbərini Vəsixanım xalaya çatdırmışdılar. İçəri girib çaşqın-çaşqın anama baxdı. Sadəlövh anam nə bilirdi ki onun qəlbində nə tüğyan edir. Qonşu qadınların söhbətindən məlum oldu ki, sən demə, onun üzündəki təlaşın, çaşqınlığın səbəbi birdən əmimin də bizimlə getmək qorxusu idi. Əslində Bulud əmim də Novruz bayramını Pətəxorda keçirmək istəyirdi. Əmim bir-iki gün qalıb arvad-uşağını götürüb qayıdacaqdı. Ancaq nədənsə işdən buraxmadılar. Harasa işlə əlaqədar getməliydi.

Vəsixanım çox oturmadı. Şəkərbura bişirəcəkdi. Anamdan hili döymək üçün həvəkdəstəni alıb getdi. Bəlkə də bu həvəkdəstə bəhanə idi. Bilmək istəyirdi ki, Bulud əmim də həmişəlik köçür kəndə, yoxsa burda qalacaq.

Səlimə xala Vəsixanım gedəndən sonra: – Ay Qumru, − dedi, − Eşitdiyimə görə bunun gözü sənin qaynındadı? Görmürsən özünə yer tapmır. Qorxur qaynın da qoşulub sizinlə həmişəlik gedə.

Anam matdım-matdım Səlimə xalaya baxdı.

− Nə deyirsən, ay bacı? Nolub ki, belə danışırsan?

− Nolacaq? Görmürsən qaynın evə gələn vaxt bitib qalır pəncərənin qabağında.

− Kim gələndə? Ağaqardaş?

− Həri... Bə sənün xəbərin yoxdu?

Yadımdadır, bu sözdən sonra anam yerindəcə quruyub qaldı. Bir xeyli dinməz-söyləməz dayanıb: − Sən Allah, Səlimə, – dedi, − Bu sözü dilinə gətirmisən, bir də gətirmə. Ağaqardaş eşidib hirslənər. Ayıbdı qaynımdan.− Səlimə xala uğunub getdi: – Ay bacı, sən deyəsən, fil qulağında yatmısan

ey. Sənün Ağaqardaşuvun bu birçəkli, ağ maya çoxdan ağlını başından çıxarıb. O dəfə Qoşa qala qapısının ağzında üz-üzə gəliblərmiş. Vəsixanım tikiş fabrikindən qayıdırmış. Başı, üzü acıq. Deyilənə görə orda savad da öyrədirlər. Hə, gör nolub. Qalanın, hə də elə o Qoşa qapının yanında ikisi də ayaq saxlayıb. Bu ona nə deyibsə, o da buna nəsə cavab verib. Üz-üzə durub danışıblarmış. Vallah, elə düz deyillərmiş. Pıç-pıç Nukalayın evini yıxdı.

Anamın rəngi ağarmışdı: – Ay bacı, − dedi, – Ağaqardaşın arvadı da var, uşağı da. Arvadının da adı Leyladı. Leyla yazıq nə gün görüb ki... Ər burda, özü də orda. Anası da qalıb onun ümidinə. Qaynanam da Leylanın kənddən çıxmağını istəmir. Şurəviyə getsə, deyir, Bulud kəndə qayıtmaz. İstəmirəm, deyir, oğlanlarım pərən-pərən düşsünlər. Hamısını yığacağam başıma, deyir, Buluda gücüm çatmır. Vallah, Ağaqardaşın burda vəzifəsi, işi, gücü, hörməti var. Gedib Pətəxorda neyləyəcək. Biz də bir-iki günə çıxıb gedirik. Ağaqardaş burda qalacaq. – Anam köksünü ötürdü: – Sizə, bacı, bir şad xəbər də verim. Qonşumuz Fərrux kişidən əkin yeri almışıq. O qədər söyünürəm ki, ay Bibixanım xala, Səlimə bacı, ruzumuzu da Allah yetirdi. Orda dolanışığımız da yoluna düşər. Vətən adamı çəkir. Nənəmin də, qaynanamın da gözləri yığılar yollardan.

Bibixanım nənə qabağındakı çayını nəlbəkiyə töküb :− Allah səni də, balalarını da daməndə qoymasın, ay bala. O torpağın xeyrin görəsüz.

Hər şeylə maraqlanan Səlimə xala gözlərini qıyıb bic-bic soruşdu:

− Bəs, ay Qumru bacı, bir şey soruşum sənnən. Bulud qardaş uşaq döyül ki, anasının sözüylə oturub- dursun. Özü istəsəydi neçə ildi burdadır, gətirərdi də külfətin.

Anam Ağaqardaşını − əmimi təmizə çıxarmaq üçün təzədən tutarlı söz tapdı.

− Səbəbi çoxdu, bacı. Elə bir səbəbi də Leylanın dədəsindən torpağı qalıb, onu yiyəsiz qoya bilməməyidi. O biri səbəbi də...qardaşı, bacısı yoxdu ki, anasına yiyə duranı olsun. Onu tək, kimsəsiz qoyub nə təhər gəlsin?

Səlimə xala başını buladı: − Nə deyim, vallah, Allah bilən yaxşıdı, təki axırı yaxşı olsun.

Səlimə xala evinə gedəndən sonra Bibixanım nənə anama təskinlik verdi: – Ay qızım, − dedi,− sən Allah belə şeyləri ürəyüvə salma. Səlimədi də, hərəyə bir vedrə bağlamağı var. Allah qoysa bayramdan sonra Bulud külfətini gətirər yanına, söz-söhbət də kəsilər.

− Allah ağzından eşitsin, ay xala. Leyla yaxşı gəlindi. Hələ indiyə kimi bizim bir dəfə də sözümüz çəp gəlməyib. O biri qaynımın arvadı hara, bu hara. Badamı deyirəm ey, Səmədin arvadını.

* * *

Deyəsən, əmim iki od arasında qalmışdı. Bilmirdi Leylanı gətirsin yanına, yoxsa baxışlarıyla, hərəkətləriylə sevgisini bəyan edən bu dul qadınla – Vəsixanımla evlənsən. Leylanı gətirə biləcəkdimi? Nənəm nə deyəcəkdi ki. Bir-iki gün atılıb düşəcəkdi, sora da sakitləşəcəkdi. Onsuz da Leyla nənəmgilnən bir yerdə yaşamırdı. Evin tək qızı olduğu üçün ata evində qalırdı. Günəmuzd işçi tutub hər il torpağını əkdirər, onun məhsulu ilə dolanardı. Əmim də Şurəviyə gəlib gedənlərdən arvadına pul, ərzaq, pal-paltar alıb göndərərdi.

Bir dəfə əmimin anamla Leyla xala barədə söhbətini eşitdim.

− Qumru, bacı, bir-iki günə sizi yola salacağam. Sağ-salamat gedəsiniz. Çatan kimi Leylanın ağzını ara, bax, gör gəlmək istəyirsə anamı, həm də qaynanamı yola gətirmək mənim boynuma. Əhməd xəbər göndərər mənə gəlib apararam.

Anamın üzü güldü: − Niyə istəməz, Ağaqardaş, istəməyinə istəyər ey, ancaq... Anam fikrə getdi, − Bilmirəm anasından keçərmi. Anası da ki, Bikə xala deyirmiş, mən evimi, eşiyimi, əkin yerimi atıb heç yerə getməyəcəm. Mən o kafirlərin içində qala bilmərəm. Tək, madar qızımı da gözümdən o yana buraxan döyüləm. Allah eləməmiş yollar bağlansa nolar. Qalaram əli uzanalı. Bu gün, sabah ölüb eləsəm də, kim gözümü bağlayacağ, kim üstümdə ağlayacağ.

Anamın bu sözlərindən sonra əmim susdu, heç bir söz deməyib fikrə getdi.

Nənəm ən kiçik oğlu − Səməd əmimlə qalırdı. Anamın dediyinə görə nənəm əmimin arvadı Badam xalayla dil tapa bilmirdi. Acıdil, tamahkarlığı ilə ad çıxaran Badam xala yerli-yersiz öz hikkəsini yeridir, evə tez-tez dava salır, aylarla gah əmimi, gah da nənəmi danışdırmırdı.

* * *

Yola düşdüyümüz günün axşamı qonşularımız bizimlə vidalaşmağa gəldilər.

Bibixanım nənə göz yaşlarını saxlaya bilməyib hönkürdü. Sonra əlində büküb saxladığı qırağı butalı, noxudu kəlağayını anama verdi: − Bunu sənə, bala, yadigar verirəm. Hər örtəndə məni yadına salarsan.

Vəsixanım da gəlmişdi anamla halallaşmağa. Əmimin bizimlə getmədiyini bildiyi üçün üzü gülürdü. Anamsa ağlayırdı. İndi də qonşular üçün darıxacağına görə kövrəlmişdi. Uşaq olsam da dərk edirdim ki, anam

ürəkdən ağlayır. Qonşularımız anamın xətrini istədikləri kimi, anam da onları eləcə istəyirdi. Kimin bir şeyə ehtiyacı olurdusa anamın üstünə gələrdilər. Anam xeyirdən-şərdən qalmaz, bir-birləri ilə yola getməyənləri barışdırar, dərdlilərin dərdinə qalardı.

Pəncərəsi bizim dalana baxan Fatma xala bayram üçün bişirdiyi şorqoğaldan çit torbaya yığıb qoltuğunda qapıda göründü. İçəri keçib salamlaşmadan əvvəlcə gətirdiyi şorqoğalları ortaya qoyduğumuz xurcunların birinin içərisinə basdı: − Buları, Qumru, yolda yeyərsüz. Yolunuz uzaqdı, bacı. Allah işivüzü avand eləsin.− dedi.

Anam təzədən doluxsundu: −Ay Fatma, məni niyə xəcalətli eləyirsən? Nahaq uşaqların boğazından kəsib o qədər şeyi gətirmisən.. Görmədin, bəyəm, hamısından bişirmişəm. Payın çox olsun.

− Sən Allah elə demə. Nuşicanlığnan yeyün. Sonra küsküncəsinə: Nə deyim, vətən çəkir. –dedi- Demirik ki, Bəki səninçün yaddır. A töbəə.. Elə bura da vətəndi. Ancaq el-oban ordadır. Nədənsə adama doğulduğu yer şirin gəlür. Allah heç kəsi peşman eləməsin. Bizi də onun içində.

− Amin! – Anam bikef-bikef fikirə getdi.

Anamı bu köçmək məsələsinə görə, sevinsə də, deyəsən, nigarançılıq üzürdü. Keçən axşam namaza oturanda iki-üç dəfə quran açmışdı ki, görsün işləri avand olacaqmı? Nəsə üçündə də qurandakı sözlər ürəyincə olmamışdı. Təsbehinə əl atmışdı, istixarə etmişdi, ürəyində niyyət tutmuşdu, yenə də bir şey alınmamışdı.

Anam narahatlılığını içində gizlədərək:

− Allah ağzından eşitsin, ay Fatma bacı, − dedi, − Allaha şükür hələ ki, yollar açıqdı. O qədər gəlib gedəcəyik ki.

Bibixanım nənənin elə bil eyni açıldı.

– Sən o iki balovun canı, həmişəlik getməyün. Bax qızım, biz də Allahın köməyilə, qismət olsa, Məşəd ziyarətinə getsək gəlib səni tapacağıq.

– Nə yaxşı, – Anam sevindi.– Gözüm üstə yeriviz var. Qaynanam da qonaq istəyəndi.  Özüvüz görmüsüz ki, ipək kimi arvaddı.

Həmin axşam yaxınlarımızla vidalaşdıq, qohumdan da yaxın bildiyimiz qonşularla görüşüb halallaşdıq.

* * *

Sübh tezdən Bulud əmim Ənzəliyə gedən gəmiylə bizi Cənubi Azərbaycana yola saldı. Bizimlə vidalaşanda, balaca İsmayılı qucağına alıb sinəsinə sıxanda əmimin üzünə kədər  çökmüşdü. Gözlərini dənizin güney tərəfindən çəkmədən xeyli beləcə dayandı. Atam əmimin bikeflədiyini, gözlərindəki qüssəni görüb:

– Vaxt tapsan sən də gəl,– dedi,– Mələyin də toyunu görərdin, həm də xeyir-duasın da verərdin.

– Qismət olsa.– Əmim qüssəli-qüssəli dilləndi:– Görüm də, – dedi. – Allah o bircə bacımızı xoşbəxt eləsin. Bilmirəm, gələ biləcəyəmmi. Səkinəmçün də burnumun ucu göynəyir. Ancaq  çətin gələm. Məni, deyəsən, işlə əlaqədar aran rayonların birinə göndərmək istəyirlər.

– Nəyə görə?.– Atam maraqlandı

– Aran rayonunda zavodların birinə, deyəsən, direktor göndərirlər məni.

- Xeyirli olsun.- Bu zaman gəmi yola düşmək işarəsini verdi. Əmim qardaşımın üzündən öpüb atama uzatdı. Əmimlə bir daha qucaqlaşıb gəmiyə mindik.

* * *

Biz Ənzəliyə çatanda günortanı keçmişdi. Atam faytonçuların biriylə danışıb yükümüzü faytona yığdı və biz kələ-kötür yolla Ərdəbilə yola düşdük. Bakıda yazın gəlişilə havalar istiləşsə də, buralar hələ soyuq idi. Anam qardaşıma soyuq  olmasın deyə onu yun ədyala bürümüşdü. Məni də möhkəm geyindirmişdi. Yollarda dayana-dayana bir gündən çox yol getdik. Biz Ərdəbilə çatanda gecənin yarısı idi. Ərdəbildən hələ Pətəxora getməliydik.

Kəndə çathaçatda məni yuxu tutdu. Atamın çiyninə söykənib yatdığım üçün nə vaxt  Pətəxora çatdığımızı bilmədim. Onda  ayıldım ki, səs-küydü. Arvadların səsiydi. Anam, bibim, nənəm sevincdən ağlaya-ağlaya bir-birilərinə sarmaşaraq görüşüb öpüşürdülər.

Mən tamam ayılıb bibimin üstünə atıldım. Bibim məni sinəsinə sıxıb öpdü. –Həliməyə qurban olum. Həlim bibisini görməyə gəlib.

– Mən səninçün darıxırdım, ay bibi,– deyib bibimin boynuna sarıldım.

– Mən də Həlim, mən də.

Hamıyla görüşəndən sonra şey-şüylərimizi nənəmin evinə daşıdılar. Nənəm bizim gəlişimiz münasibətiylə hazırlıq görmüş, duzlu kütüm balıqla, xurmalı, kişmişli südlü plov bişirmişdi.

Çay-çörək yığışılandan sonra hamımızın canı qızdı. Zinyət nənəm anamı üstünə yorğan atılmış isti kürsünün qırağında otuzdurub xeyli onu sorğu-suala tutdu. Əmimi, əmimin işini, qonum-qonşunu soruşdu. Qış son günlərini yaşadığı üçün evi isidən kürüsünü hələ ki, söndürməmişdilər. Kürsü evin ortasındaydı. Evin ortası dairəvi qazılardı. Odunu olan odun, kömürü olan kömür,  olmayanı da kərmədən, təzəkdən  həmin qazdıqları yerə töküb yandırar, evi isidərdilər. Həmin kürsünün üstünə   yanmayan kərpiclər  düzülərdi ki, üstünə salınan yorğan yanmasın. Ailənin üzvləri o

kürsünün başına yığışar, ayaqlarını kürsünün altına uzadıb isinərdilər. Ərdəbilin bu ilki qışı da sərt olduğuna görə evləri qızdırmaq üçün xeyli yanacaq işlənirdi.

Mən də ayağımı kürsünün altına uzadıb, yorğanı dizlərimin üstünə çəkərək böyüklərin söhbətlərinə qulaq asırdım. Bizim Tumgöz Fərruxdan əkin yerini aldığımızı anamdan eşidən nənəm nədənsə tutuldu. Nənəmin, deyəsən, Tumgöz Fərruxdan gözü su içmirdi. Kişi kənddə yaxşı ad çıxarmamışdı. Həm də tamahkar idi. Nənəm: − Torpağı baha qiymətə satıb. Həm də, bala, gözü qalacaq o torpaqda, – dedi. − Anam matdım-matdım nənəmə baxdı. Kürsünün qırağında təzəcə özünə yer eləyən atam gülümsədi.

− Puluna minnət, torpağı Bulud qağama özü təklif eləyib. Ondan halallığını da almışıq.

− Ay oğul, − Nənəm köksünü ötürdü: − O, bəyəm halallıq başa düşəndi? Ondan kim xeyir görüb ki, – Sonra nədənsə sözünü dəyişdi: −Allah xeyir versin. Peşmançılıq olmasın.

− Amin! – Nənəmin xeyir duasından sonra başqa söhbətə keçdilər.

Bibimin böyrünə sıxılıb yuxulu-yuxulu söhbətlərə qulaq asırdım. Kürsünün sağ tərəfində Səməd əmimlə Badam xala oturmuşdu. Uşaq ağlımla hiss edirdim ki, Badam əmidostum bizim kəndə köçməyimizdən narazıdır. Hirsli-hirsli anama baxır, çadrasının altından öz-özünə deyinirdi. Anam balaca qardaşıma çay içizdirə-içizdirə nənəmlə söhbət edirdi. Qaşqabağı yernən gedən Badam xala sən demə, nənəmlə savaşıbmış ayrı yaşamağın üstündə. İndi Badam xalanı bizim Pətəxora qayıdıb gəlməyimiz onu lap dilxor etmişdi. Dilxorluğun da səbəbi üç otaqdan birini, nənəmin əvvəllər atamın toyu olanda bizə vermiş olduğu otağı boşaltması idi.

Anam qalxıb gətirdiyi hədiyyələri, şirniyyatları ortaya qoydu. Bibimçün alınan cehizliyi − çini qabları, nikelli qaşıqları, ipək yorğan üzlərini, əl-üz dəsmallarını, qətvələri, əl ilə işlənən tikmələri bir-bir çıxarıb: − Mələk ,− dedi, − bular sənin cehizliyindi. Gedəndə apararsan. Allah xoşbəxt eləsin, yarıyanlardan olasan, ay bacı.− Sonra anam başqa bağlamaya əl atdı: – Bu da ipək köynəkdi, geyərsən, qripdişin zəkəriyyə şalı sənə indi bayramlıq gələcək ha, onda örtərsən başına.

Bibimin sevincdən gözləri yaşardı. Qalxıb anamı qucaqladı. İkisi də bir-birilərinin üzündən öpdü: − Ürəyinin böyüklüyünə qurban olum, ay gəlinbacı.

Badam xala hikkəli-hikkəli söz atmağından qalamadı: – Qıza,− dedi, – Öz qardaşuvun qazancından alınıb da. Nə özüvü didib tökesən.

Mələk bibim utana-utana kürsünün sağ tərəfində oturub Səməd əmimlə söhbət eləyən atama baxdı: – Gəlin bacım da sağ olsun, qardaşım da. Allah lələmin qazancını bol eləsin.

Anam Badam xalanın tikanlı sözlərinə fikir vermədən yaşıl və kül rənginə çalan gülməxmər parçadan iki dəst ayırıb: – Biri Leyla bacının, biri də, Badam, sənindi,− dedi. Tikdirib Mələyin xına yaxdısında geyərsüz. Leyla bacıya da xəbər göndərərik səhər gələr. Ağaqardaş ona bir-iki para şey, pul göndərib.

Anam nənəmə qara, qıraqları butalı kəlağayı, qara yun parçadan tumanlıq və bayırlıq, xeyirə-şərə getmək üçün başmaq almışdı. Nənəm anama dil – ağız elədi. Başmağını ayağına keçirib. – Lap elə ayağımın ölçüsündədir ki, − dedi, − Allah sənə, Əhmədə pul-para sarıdan korluq çəkdirməsin. Amma nahaq bu qədər şeyə pul xərcləmisiz, ay qızım.

Anam o saat nənəmin sözünü ağzında qoydu: − Buları indi almamışıq ki, nənə, əlimizə pul düşdükcə alıb atırdım. Elə ona görə heç gözümüzə də görünmədi.

Badam xala hədiyyəsindən razı qalsa da, qaşqabaqlı-qaşqabaqlı parçanı o üz, bu üzə çevirib mızıldandı.− Bunun fərli rəngindən aleydin də, ay Qumru.− Nənəm Badam xalaya baxıb:

– Ay qız,− dedi,− Naşükürlük eləmə. Denən payın artıq olsun.

– Nə deyirəm ki, rəngimə düşəndən aleydi da.

Səməd əmim zarafatından qalmadı:

– Sənin elə rəngün var ki, zər-xara da geyinsən yaraşmaz.

– Mənə sataşırsan, ağayi Səməd? Eybi yoxdu. Sənnən sora işim olacaq.− Badam xala başını aşağı salıb dodaqaltı mızıldandı: – Gecəynən anan evi boşaltdırıb ki, gülməşəkər gəlini, oğlu gələcək.

Səməd əmim arvadına söz atsa da, ondan çəkinirdi. Ona görə də susub başını aşağı saldı.

Badam xalanın sözlərini nənəmin qulağı o saat aldı: – Qıza, kiri,− dedi.− Əhməd öz halal evində də oturmayacaq. İki göz ev sizə azlıq eləyir, nədi?

− Nə deyirəm ki,− Badam xala qaşqabağını düyünlədi. Yenə də öz-özünə: − Bular Şurəviyə gedəndən, mağıl, gen-bolluğa çıxmışdıq. – Gözü tox anam söz-söhbətdən qorxduğu üçün səsini içinə salmışdı. Dinmirdi. Badam xala otaqdan çıxan kimi anam nənəmi sakitləşdirərək dedi, − Elə bizə o böyürdəki köhnə, aşağı evi ver, bəsimizdi. Nə fərqi var, ev evdi də, istəmirəm, ay nənə, evə görə aramızda narazılıq olsun.

− Ay qızım, sənin öz halal evini də sənə çox göreylər. Badamdan əvvəl səni gəlin gətirmişəm axı bu evə. Onun elə işi-gücü deyinməkdi də. O

köhnə evin adını tutma. Aşağı evdə kilim toxuyerıq, nehrə çalxerıq. Həm də qışın soyuğunda o evə girə bileyrik bəyəm.

* * *

Leyla əmidostum bizim gəlməyimizdən səhər xəbər tutdu və sevinə-sevinə qızı Səkinəni götürüb gəldi. Bizim hamımızla görüşsə də gözü, deyəsən, əmimi axtarırdı. Çünki Bulud əmimin gəlməyini nə vaxt idi gözləyirdi. Anam əmimin aldığı hədiyyələri bir-bir çıxarıb: − Ay Leyla, Ağaqardaş gələcəkdi, işi çıxdı, sənə pul, şey-şüy göndərib, − deyib pulu, şeyləri Leyla xalaya verdi: − Bu da mənim payım.− Anam gülməxmər parçanı və Səkinəyə bayrama görə düzəltdiyi xonçanı Leyla xalanın qabağına qoydu. Leyla xala əmimin gəlmədiyini görüb məyus olsa da, hədiyyələrə görə sevindi. Sonra utana-utana ərinin adını çəkmədən: − Bəs demədi nə vaxt gələcək? − soruşdu. − Anam: − Gələcək, ay Leyla, − dedi, − Ağaqardaşı iş dalınca qəzaya göndəriblər. Dedi ki, bir-iki aya gəlib Leylanı aparacağam.

Leyla xalanın gözləri yol çəkdi. Ərinin yanına həmişəlik gedəcəkmi? Bir yandan anası, o biri yandan əkin yeri. Əgər Şurəviyə − ərinin yanına getsəydi onları kimə tapşıracaqdı.

* * *

Gəldiyimiz gecənin səhəri günü bizi görməyə gələn qonşularımız anamın sınıxdığını, mənim də yekə, cüvənəzan qız olduğumu deyib evimizə, obamıza qovuşduğumuza görə gözaydınlığı verdilər. Qonşularla öpüşüb hal-əhvallaşandan sonra sevincdən ağlayan anam Bakıda qonşularımızla köməkləşib bişirdiyi şəkərburadan, paxlavadan, şorqoğalıdan süfrəyə düzdü. Qonşular əvvəlcə Bakıda bişən şirniyyatları əllərinə alıb təəccüblə bir-birilərinin üzünə baxdılar. Qonşulardan yaşlısı:

– Qıza, Qumru bu nəmənədi? − soruşdu.− Bizdə belə şeylər bişirməzlər ha.

Anam: – Belə təamları ancaq Bəkidə bişirərlər. − Bakı əhli Novruz bayramında şəkərburasız, paxlavasız, şorqoğalsız süfrələrini bəzəməzlər. Bax buna şəkərbura deyillər, bu da paxlavadı.

Anam əlindəki şəkərburanı, paxlavanı nimçələrə qoyub qonşuların qabağına düzdü. Sonra da: − Allaha and verirəm yeməsiniz inciyərəm, – dedi, − Əlüzü süfrəyə uzadın. Bulardan dadın.

Mələk bibim həyətdə samovar qaynadırdı. Samovar qaynara düşən kimi dəmləyib içəri gətirdi. Çayla şəkərburanı, paxlavanı, şorqoğalını ləzzətlə yedilər. Üzlərindəki ifadədən görünürdü ki, hamının ağzı dada gəlib. Nənəmin süd bacısı Minə xala paxlavadan ağzına qoyduqca başını tərpədə-tərpədə − Zinyət, bu nə dadlıdı. Adamın ağzında yağ kimi əriyer,− deyırdi

Anamın üzü gülürdü: − Buları dada gətirən əsas ərzağı qoz, fındıq ləpəsidi, bir də yağ. Unu, şəkəri də öz yerində. Bişirməyin təhər-töhürünü də öyrənmişəm. Allah qoysa xeyir işlərivüzdə sizə də bişirərəm .

Zinyət nənəm anamın biş-düşünü təriflməyə başladı: – Mənim gəlnimin əlinin dadı var, nə bişirirsə daddı çıxır..

Minəbəyim nənənin yanında oturan qarabuğdayı gəlin − Nəsibə xala asta-asta durub: – Mən də − dedi, − axır çərşənbəyə süddü külçə bişirəcəm. Xəmiri yoğurub gəlmişəm. Qorxuram acıya, teştdən axıb tökülə. − Üzünü nənəmə tutub: − Ay Zinyət xala. – dedi. – Çörək otun yoxdu ki? Külçənin üstünə səpəcəm.

Nənəm: − Niyə yoxdu, -dedi, − Bu əziz gündə təki məndən bir şey istə. − Nənəm durub taxçadakı qabların birinin içindən çörək otundan bir ovuc

götürdü, təmiz əski parçasına tökərək Nəsibə xalaya verdi. Nəsibə xala sağollaşıb getdi.

Mən bibimin dizinə söykənib  arvadların söhbətlərinə qulaq asır və tez-tez də bibimə  baxırdım. Məni görənlər deyirdilər ki, sifətdən  bu qız anasından çox, bibisinə oxşayır.  Məni ala göz, qara qaş, ağbəniz, xurmayı saçlı, güləndə üzündə zənədxanası batan və bu da onun çöhrəsinə gözəllik verən bibimə oxşatdıqları üçün sevinirəm.

− Day yekə qızdı. Başını bağlayan vaxtıdır.

− Bir az keçsin....Çadrasını özüm tikəcəm. – Bibimlə üzbəüz oturan güllü yaylıqlı qadın əyilib üzümdən öpdü.

− Vallah, deyillər, Tehranda hamı başı açıq  gəzer.

− Yox, bacı, Ərdəbildə belə şeylərə pis baxelar.

Qonşu qadınlar bir xeyli söhbət edib qalxanda anam onları əliboş getməsinlər deyə hamısının şirni paylarını verdi.

* * *

Kəndimizin yaz ayları gözəl olurdu. Yazın axırı − may ayında qırmızı lalələr, gül-çiçəklər xalı kimi yamaclara səpələnərdi. Atam bizi Bakıya aparanda balacaydım. Kənd yaddaşımdan çıxsa da bibimin məni qucağına alıb kəndin ortasıyla ilan kimi qıvrıla-qıvrıla axan çayın qırağına düşməyi, gül dərməyi yadımdaydı. Bir də həyətimizdəki ağappaq, şipşirin, şirəli tutu olan ağacımızı unutmamışdım. Nənəm hər il  tut çırpdırıb mis qazanda doşab bişirər, bizim də payımızı göndərərdi. Anam doşabı boğazımız ağrıyanda bizə  içirdərdi. Xəşil bişirəndə isə üstünə nehrə yağı ilə doşab töküb yeyərdik.

Səhər açılar-açılmaz mən gözümü açdım, ancaq təzədən gözümü yumub özümü yuxuluğa vurdum. Mələk bibim məni oyatmasın deyə

yavaşca geyinib həyətə düşdü. Mən də qalxıb paltarlarımı əynimə keçirib bibimin ardınca özümü çölə atdım. Hava soyuqdu. Qış, nənəm demişkən, hələ ki, dirənib durur. Bibim həyət-bacaya göz gəzdirirdi. Məni görüb gülümsündü: − Niyə tez durdun, Həlim? − soruşdu.

− Yuxum gəlmir, bibi.

Bibim məni qucaqlayıb üzümdən öpdü. Sonra təzə-təzə yarpaq açmaq istəyən tut ağacına baxdı.

− Az qalıb. Havalar istiləşsin. Çoxlu tut yeyəcəyik. − Mələk bibim də mənim kimi şirin meyvələri xoşluyurdu. − Bax, alça, ərik ağaclarımız gül açeyb.− Ağacların budaqlarına elə bil qar dənəcikləri qonmuşdu. Elə gözəl görünürdü ki...

Anam çörək bişirmək üçün təndirə təzək qalayıb xəmirin acımasını gözləyirdi. Badam xala isə həyətimizin aşağı tərəfində hindən çıxıb həyətə tökülən toyuq- cücələrə dən tökürdü. Atamla əmim görünmürdülər. Belinə qalınça bağlayıb, ləçəyinin üstündən qara, yun şalını örtüb, uclarını boynuna dolayan nənəmin inək sağdığını gördüm. Nənəm uzaqdan məni görüb əliynən çağırdı.

− Gəl, ay Həlim, bəri gəl.− Qaça-qaça yanına getdim. Nənəm süd dolu sərinci mənə verdi: − Apar ver bibinə. Mis qazanımız var ha, ona töküb bişirsin. İndi mən də gəlirəm,− dedi.

Anam təndirdən isti çörəyi çıxardanda artıq bibim südü bişirmişdi. Atamla əmim də gəldilər. Əl-üzümüzü yuyub hamımız süfrə arxasına, kürsünün başına yığıldıq. Səhər tezdən qalanan kürsünün istisi evi qızdırmışdı. Oturub motal pendirlə, isti çörəyimizi, südlü sıyığımızı yedik.

Atam yeməyini yeyib qalxdı, kürkünü geyinib əkinə getdi. Tumgöz Fərruxun qardaşı satdıqları torpaq sahəsini göstərmək üçün atamı xırmanda gözləyəcəkdi.

Mən İçəri şəhərdəki evimizdə anamın yanından əl çəkmirdimsə, indi də burda bibimin yan-yörəsində hərlənir, ətəyi əlimdə hara gedirdisə onunla gedirdim. Nədənsə bibimdən çəkinmir, başa düşmədiklərimi ondan soruşurdum.

− Bibi, mənə doğrudan çadra tikəcəklər?

− Hə, əlbəttə, sən day yekə qız olmusan.

− Mən axı orda məktəbə gedirdim. Bəs burda? – Məktəbdə mənimlə oxuyan qızlar yadıma düşdü. Kövrəldim.

Bibim duruxdu, bilmədi nə desin. Sonra nə fikirləşdisə astaca dilləndi.
– Sən gərək quranı oxumağı öyrənəsən. Bəlkə səni, nənəm də deyirdi məşədi Nisənin yanına apardıq. O ayələri yaxşı öyrədir. Namazı özüm öyrədəcəyəm.

− Namazı da, kəlməşahadətimi də bilirəm ey, bibi, mömən öyrədib mənə.− İçərişəhərdə uşaqlar analarına "mömə" deyə çağırardılar. Mən də onlar kimi anama "mömə" deyirdim.

− Bibi, mömən deyirdi ki, sənə  Novruz bayramından əvvəl bayramlıq gətirəcəklər, düzdü? Bayramlıq nə olan şeydi?

Bibim gülümsədi, elə bil çöhrəsi işıq saçdı. Ət taxtasının üstündə ət döyə-döyə mənim suallarıma cavab verərək: − Nişanlı qıza toyu olana qədər,  − dedi, − oğlan tərəfdən Novruzda,  bayram payı, təzə paltar, başmaq gətirelər.  Qurban bayramındasa qurbanlıq heyvanı doğulandan bəsləyib böyüdelər, boynuna da  qırmızı bağleb qız evinə aparelar. Hələ onu

demirəm ki, meyvələr yetişdikcə, hər fəslin öz meyvəsi oler axı, gəlini yaddan çıxarmelar, evlərinə nübaranlıq aparelar.

– Sən nə istəyirsən? Nə gətirsinlər sənə? Sabah yox, o biri gün axır çərşənbədi. Düz deyirəm, bibi? Onun də səhəri Novruzun axşamı? Lap dalbadal düşdü ki, çərşənbəylə, novruz. Bıy, sabah yox, o biri gün gələcəklər ki, nişanlıngil.

Bibim gülümsəyir: – Hə, gəlməlidirlər. Mən nə deyə bilərəm ki, Həlim. Nə gətirelər gətirsinlər. Özləri bilərlər. − Bibim güləndə elə qəşəng görünür ki.

Anam İçərişəhərdə qonşumuz Bibixanım nənəyə bibimdən danışanda eşitmişdim ki, bibimi əsilli-nəsilli ailənin oğlu ilə nişanlamışlar. Oğlanın atası Hacı Əlimərdanın Ərdəbildə, elə Pətəxorun özündə də bir neçə dükanı vardı. Oğlu – yəni bibimin nişanlısı o dükanlardan birini işlədir. Özü də ağlı-başı yerində olan cavanlardandı. Bibimdən beş-altı yaş böyük ola, ya olmaya.

– Nişanlının adı nədi? Heç görmüsən onu? – Maraqla soruşdum.

Bibimin üzü təzədən allandı.

− İkicə dəfə,− dedi, − Ancaq heç kəsə demə ha görməyimi. Adı Rəsuldu.

− Bəs sən onu harda görmüsən?

− Çay qırağında.- Bibim pıçıltıya keçdi. Çaya qab-qaçığı yumağa aparmışdım. Onda gördüm. Nişanımdan qabaq görməmişdim ki, dədəsigil gəleyb istəmişdilər məni, bizimkilər də razılıqlarını vermişdilər. Hə, elə qabları təzəcə yumağa başleydım. Onda gördüm atın üstündə bir oğlan gələb dayandı yanımda. Demə, evdən çıxmağımı gözleyermiş. Atı saxladı. Cibindən bir ovuc şirniyyat çıxarıb- Mələk, –dedi, –ovcunu aç, gör sənə nə

verəcəm, ağzını şirin elə. − Mən duruxdum. Tərs-tərs atlıya baxdım: − Sən kimsən ki, məni danışdırırsan. Yolunu azma, dedim, Başladı gülməyə.

−Ay qız, – dedi, − Rəsulam da, sənin nişanlın.− Utandığımdan az qaldım yerə gireym. Mən nə bilem nişanlımdı. Məni kimə verdiklərindən xəbərim vardı ki... Məni çayın qırağında görübmüş. Ancaq, Həlim, xoşum gəldi ondan. Ürəyimə yatdı. Bu yaxınlarda bir dəfə də nənəmlə−bu kəndimizdə analara "nənə" deyirlər − hamamdan gəlirdik, boğçamızın biri yadımdan çıxıb qalmışdı hamamda. Nənəm dedi ki, Mələk sən dur burda, görüm boğçanı harda qoymuşam. − Nənəmin məndən aralanmağı ilə Rəsulun yanımda dayanmağı bir oldu: − Mələk, − Adımı eşidib tələsik çadramla üzümü qapadım.

− Üzünü örtmə, -dedi. – Mənəm. −Dönüb baxdım. Gördüm Rəsuldu. Mənə baxıb güldü: − Bu yaxında Tehrana gederyəm.−dedi,− Sənə nə alyem gətirim. −Gülə-gülə üzümə baxırdı.

− Heç nə,− dedim,− Sağ-salamat qayıdasan..

− Sağ ol, Mələk, − dedi, Anamgil bayramlıq gətirəcəklər. Öz əllərinlə mənə köynək toxuyarsan? Toxusan anamgilə verərsən gətirərlər. O toxuduğun köynəyi əynimdən çıxarmaram, Mələk.

− İstəyirsən ikisini toxuyum,− deyib üzünə baxdım.

− Əllərin ağrımasen. Elə bircəciyi bəsimdi. Tehrandan libas gətirəcəyəm sənə. Elə paltar alacağam ki, heç kəsdə o paltardan olmasın. Dedim payın çox olsun. Alsan da sağ ol, almasan da.

− Həlim, nişanlın qəşəng idi?

− Hə.

− Sən onu istəyirsən? − Utana-utana soruşdum.

Bibimin üzünə qızartı çökdü.

−Hə, amma əvvəllər yox. Axı görməmişdim onu. Gecə-gündüz ağlerdim. Görəndən sora istədim .

Arvadların çənələrinin altında bitib qaldığıma, onların söhbətlərinə qulaq asdığıma görə nişanlısı bibimi harda gördüyünü və görəndən sonra anasına gedib nə dediyini və ondan sonra onların bibimə necə elçi gəlməylərindən danışdıqca mən də maraqla qulaq asırdım. Onsuz da təxmini bilirdim nişanlısı ona harda rast gəlib. Nənəmin söhbətindən belə başa düşdüm ki, Rəsul bibimi çayda qızlarla xalça-palaz yuyanda görübmüş. Həmin gün Mələk bibimin göyçəkliyi oğlanın ağlını başından alıb. Atının başını yönəldib düz gəlib evə, anasına bibimin nəmini-nişanını verib və hətta deyib ki, qızlardan biri xoşuna gəldiyi qızı "Mələk" deyib çağırıbmış. Anası o saat bilib ki, Zinyətin qızını, dörd qardaşın bacısı Mələyi deyir. Arvad sevinir, qalxır oğlunun boynunu qucaqlayır: − Bıy, Mələyi soruşursan ki, bala,− deyib. Qızı çox yerdən istellər. Qardaşları hələ ki, "Uşaqdı" deyib vermeylər. Bala, yaxşı nəsildən qız seçmisən. Sabah gedib arayaram ağızların. Səhəri gün bibimçün gəlirlər elçiliyə. Atamla əmilərim Rəsulun atasını, kökünü tanıdıqlarına görə bibim oğlanı görmədən, bilmədən elçiləri boş qaytarmırlar, bibimin "Həri"sini verirlər. Sonra nənəm kövrələ-kövrələ arvadlara bibimə bu xəbəri necə verməyindən, bibimin də nə hala düşməyindən danışdı.− Mənim göyçək balam fağırlıqda qardaşı Əhmədə çəkib. Elə ki, dedim, qızım, sənin razılığını verdik, Mələk baxdı üzümə, rəngi oldu ağappaq. Bircə onu dedi ki, nənə, niyə mənsiz belə iş tutduz? Axı kimə verdiz məni, ay nənə, dedi, görmədən, bilmədən məni niyə bədbəxt eləyesiz. Dedim, bala, kökün bileyik bəsimizdi. Heç nə demədi, keçdi yatdığımız öyə. Ürəyim dayanmadı, getdim arxasınca, gördüm oturub, dizlərini də qucaqleb ağler.

Bir, iki ay qızın üzü gülmədi. Vallah, bilmədim noldu, nə dedilər qıza axır vaxtlar, bacı, qızın üzü güley, kefi kökəleb. Vallah, baş çıxartmeram bu Mələydən.− Bibim otaqda yox idi, həyətə samovar qaynatmağa düşmüşdü. Bircə mən bilirdim bibim niyə xoşbəxt görünür. Nişanlısı Rəsulu axır ki, görmüş, ikicə dəfə görməklə bibimin ürəyi rahatlıq tapmışdı. Rəsul həm yaraşıqlı idi, həm də bibimi istəyirdi.

***

Mələk bibim söz verib ki, məni çay kənarına aparacaq. Yaz qapımızın ağzındadır. Havalar istiləşir. Bibim: − Həlim, – dedi, Savalannan gələn sel-su bizim kəndimizin çayını, görərsən, necə coşduracaq. Səsindən evdə də oturmaq mümkün olmayacaq.

Bibim üzümə, saçlarıma sığal çəkə-çəkə: − Heç, Həlim, yadına düşer böyürtkən yığmamız? − Soruşdu.

− Yox, − Mən başımı yellədim. – Ancaq çaya getməyimiz, gül dərməyimiz yadımdadı. Sən ayaqlarıma tikan batmasın deyə məni qucağına almışdın. Bax o yadımda qalıb.

− Novruz bayramının günü gedərux. Təkcə biz getməyəcəyik, Həlim, bütün kəndimizin camaatı töküləcək çaya. Adətdi də. Hamı Novruz günündə ürəyində nə niyət tutublarsa çaya deməlidilər. Elə ordaca bir-biriləriylə bayramlaşacaqlar da. Kim ki, çaya gedə bilmer, qocaları, naxoşları deyirəm də, onda biz evlərinə gedeb bu əziz gününə- bayramına mübarək deməliyıq.

Mələk bibi əynimdəki paltara başdan ayağa nəzər salıb soruşdu:

− Ləłəm sənə təzə paltar aleb? Almebsə nənəmdən parça alarıq. Onun sandığında olmamış olmaz. Gəlin bacıma verərik tikər. Bayramda hamı təzə paltar geyinməlidir axı.

− Narahat olma, bibi, − dedim, − Mömәm mәnә tәzә paltar da tikib, ayaqqabı da alıb.

− Sәmәd lәlәmin uşaqları da tәzә paltar geyәcәklәr. O dәfә Әrdәbildәn ayaqqabı da aldılar. Әliynәn, Sәdiyә − Sәmәd әmimin iki ekiz oğlu var. İkisi dә mәndәn bir yaş balacadılar. Nәdәnsә mәnimki onlarla tutmur. Bütün günü hәyәtdә uzun qamış tapıb at kimi çapırlar. Üst-başları palçığın içindә olurdu. Havanın soyuğu, şaxtası heç olara kar elәmir. Yanaqları da hәmişә qıpqırmızı olur.

Mәn dә bibimin bayramda geyәcәyi paltarla maraqlanıram. −Bibi, bәs sәn nә geyinәcәksәn? Sәmәd әmi alıb sәnә tәzә paltar, başmaq?

Bibim tutuldu. − Nә Sәmәd lәlәm, nә dә arvadı hәlә indiyә kimi bir dәnә dә çöp almeblar mәnә. Bundan sora neynirәm. Bayramlıqda nişanlımgil hamısından gәtirәcәk. Әhmәd lәlәm, gәlinbacı − sәnin anan gördün dә mәnә nә qәdәr şey aleblar, gәtereblәr. Yorğan-döşәyimin üzlәri yox idi. Nәnәm elә fikir elerdi ki, nә tәhәr alacam. Özü dә әsil xaradan. Hәlә üstәlik әyin-başımı da aleblar. Әr evinә köçәndә demәsinlәr bu qızın palı-paltarı yox emiş.

Sevinә-sevinә bibimin üzündәn öpdüm. − İkimiz dә tәzә paltar geyәcәyik, − dedim.

* * *

Çay bizim evdәn çox da uzaqda deyil. Yayda suyu azalır, yazda isә çoxalır. Dupduru, göz yaşı kimi suyuna soyuqluğundan әlini vurmaq olmur. Elә bil iti bıçaqla adamın әlini kәsir.

Mәlәk bibi bayram gününü mәnә gözlәtmәdi. Qәfәdanı әlinә alıb mәni çaya apardı. Yaxınlaşıb әl-üzümüzü yuyuruq.

− Ay bibi, su soyuqdu.

− Eybi yox. Buranın suyuna da, dağ havasına da yavaş-yavaş öyrəşərsən.

Gün çıxsa da havada soyuqluq var.

− Sən hələ Səreni görməmisən. Ora başqa aləmdi. Dağın başındadı. Gölünün suyu bu çayın suyundan da soyuq oler. – Bibim əlini Səren tərəfə uzadıb mənə göstərir. Həlim, o dağa bax, ordan gələn su bu çaya axır. − Savalan dağının əzəməti gözlərimi qamaşdırır. Bibim qəfədanı qumla sürtüb tərtəmiz yudu. Soyuqdan əlləri qızarmışdı. Mən də çay kənarında hələ təzə-təzə baş qaldıran göy ləçəkli novruz güllərini dərib birini bibimə göstərirəm:

− Bibi, bax, novuzgülüdü bu?

− Hə, düz tapmısan, novruzgülüdü.. Bayramnan qabaq çıxer. Elə bil Novruzun gəlişinin xəbərini vermək istəyir bizə. Həmişə qar yağsa da, havalar şaxtalı olsa da, bu çiçək çıxmalıdır. Daşın altından da olsa cücərməlidir. Ona görə buna qar çiçəyi də deyillər. Sonra əlavə etdi. – Təbiətin möcüzəsini göresən də, Həlim.

− Görürəm, bibi, görürəm. Ancaq bu güldən çox xoşum gəlir.

− Mənim də.

Qəribədir bibim nəyi bəyənirsə mən də onu bəyənirəm.

Biz evə qayıtdıq. Bibim qəfədanı ocağın üstünə qoydu. Samovarı axşam qaynadarıq,− dedi.

Nənəm bayaq ət taxtasının üstündə qiyməkeşlə döydüyü ətə soğan, duz, istiot, kəkotu, sarıkök vurub əti nazik cünayının üstünə yığıb əli ilə yastıladı. Nənəmdən utanıram soruşum ki, o ətdən nə bişirir. Üzümü bibimə sarı çevirdim. Bibim soyuqdan qızarmış əllərini isitmək üçün yorğanın altından kürsiyə uzadıb: – Gəl sən də qızın, Həlim, − dedi. Bibimin yanında

oturub yavaşca qolunu dümsükləyirəm: − Nənəm nə bişirəcək? − Bibim gülümsüyüb üzümə baxdı: − Acımısan? −Yox, −dedim. Bibim: − Ərzuman küftəsi yemisən? Gəlinbacı bişirmeb bu küftədən?

− Yox. Bişirməyib.

− O toyuqları göreysən, Həlim. Onları ütüb təmizləyəcəyik, sora içinə üç-dörd bişmiş yumurtanın soyutmasını qoyacağıq. O döydüyüm ətin üstünə toyuğu qoyub cünayınan, yəni ərşinləmə aldığımız tənziflə bağlayacağıq, qazana su töküb o bağladığımız əti, toyuğu qazanın içinə saleb ocağın üstünə qoyeb bişirəcəyik.

Nənəm bibim deyən kimi eləyib qazanın qapağını bağladı. Həyətə düşdüm. Anamla Badam xala bayırda günə verdikləri yorğan-döşəyi içəri daşıyırdılar. Burda da bayrama görə, İçəri şəhərdəki kimi hər evdə təmizlik işləri görülürdü. Uzaqdan atamı gördüm. Xırmannan gəlirdi. Həmişə fikirli gəzən atamın üzü gülürdü. Qaçıb Ziniyət nənəmin ətəyindən yapışdım.− Dədəm gəlir, nənə, − Nənəm çevrılıb yola baxdı: − Nə yaxşı, ay Həlim. – Nənəm uzun, enlibalaq tumanının üstündən qalın köynək, onun üstündən də qolsuz gödəkcə geyinib. Deyir bu gödəkcə olmasa kürəyimin ağrısından dayana bilmərəm. Nənəmin də gözləri aladı, bir az da yaşıla çalır. Yanaqları dağ havasındanmı, ya çöldə, həyət-bacada çox hərləndiyinə görə qıpqırmızıdı. Ağarmış saçları ləçəyin altından görünən kimi ləçəyini tez alnına kimi çəkir. Atamın da, bibimin də üz cizgiləri nənəmkinə oxşayır. Mənə elə gəlirdi ki, nənəm atamı, o biri övladları kimi deyil, başqa cürə istəyir. Bir şey olanda atama xəbər göndərər, onunla məsləhətləşərdi. Böyük əmimə demək istədiyi sözü də atam vasitəsilə əmimə çatdırardı. Elə bil hamı kimi o da əmimdən çəkinərdi. Atam nənəmin sağ əliydi. Elə ona görə də bizim gəlib burda- onun yanında həmişəlik qalmağımız nənəmin

ürəyincəydi. Hamı kimi nənəmin də üzü gülürdü. Səhərdən həyət-bacada iş görə-görə yola baxır, atamın gəlməyini gözləyirdi.

− Görəsən, nə xəbərlə gələcək, ay Qumru? − Səhər nənəm nigaran-nigaran anamdan soruşmuşdu. Anam də gözünü torpaq yola dikib. − Nə bilim, ay nənə. İndilərdə gələr, özünnən soruşarıq.

− Nənəm: − Get, bala, − dedi,− Bibinə de samavarı qaynatsın.

− Bibim qəfədanı qoyub ocağın üstünə. Qaynayır.

Bir azdan Səməd əmim də gəldi. Qoltuğunda nəsə vardı. Heç kəs görməsin deyə gizlincə kağız torpadakı şeyi Badam xalaya verdi. Badam xala əmimin ona verdiyi torbanı otağına apardı. Əmim Badam xalaya hədiyyə alanda kefi açılırdı.

Hamımız süfrə başına yığışdıq. Nənəm xörək qazanının qapağını açdı. Ərzuman küftəsinin ətri otağa yayıdı. Nənəm cünayının ucundan yapışıb küftəni qazandan çıxarıb iri buluda qoydu və ehmallıca cünayının düyününü açdı, küftədən, toyuq ətindən hissələrə bölüb hərənin payını çəkdi.

Atam xörəyini yeyə-yeyə Tumgöz Fərruxun bizə satdığı torpaqdan, onun yumşaqlığından danışdı. Sonra Səməd əmimlə məsləhətləşdilər ki, orda nə əksinlər. Buğdamı, arpamı, lobyamı, yer almasımı. Bizim kənddə kartofa yer alması deyərdilər. Belə qərara gəldilər ki, əkin yeri böyükdü. Elə hamısına ehtiyac var. Səməd əmim: − Biz əkməyimizdə olaq. Alverçilər elə yerindəcə alacaqlar, − dedi. − Satılanı satarıq, satmadıqlarımızı gətereb evə yığarıq. Bütün qış azuqələrimizi də, un ehtiyatlarımızı da görər. Təki məhsul bol olsun. Nənəm dedi ki, qonşuların çoxu işsizdi. İş axtarırlar. Onlardan da özünüzə köməkçi götürün. Atam nənəmin təklifilə razılaşdı: − Düz deyirsən, nənə. Təkbaşına heç nə edə bilmərik.

Badam əmidostum hirsli-hirsli əmimə baxdı.

‒ Nə əkin, əkin deyeb dureysan. Bə Tehrana getmersənmi. Demirdin ki, gedib orda iş tapacağam. Bə bizi də özünlə aparmeysanmı? ‒ Nənəm narazı-narazı başını buladı.

‒ Tehran elə Səmədi gözler.

‒ Bunun dərdi ayırı dərdi, nənə. Ona görə heç nədən...

‒ Nədi dərdi?‒ Nənəm Səməd əmimin sözünü ağzında qoydu: ‒ Ay gəlin, çıxartma Səmədi yoldan. Qardaşı təkdi. Qoy qaleb Əhmədə kömək eləsin. Görək, nə çıxar bu işlərdən. ‒ Atam söz-söhbət böyüməsin deyə sözü dəyişdi.

‒ Novruzu yola verək. Hər şey yaxşı olar, inşallah.

‒ Sabah axır çərşənbədir. ‒ Bibim sevinə-sevinə dilləndi və üzünü Səməd əmimin oğlanlarına tutdu, tonqalı da qaqaşlarım qalayacaq.

Əliylə Sədi yerlərindən dirçəldilər: ‒ Hə, uşaqlarla danışmışıq, elə bir tonqal yandıracağıq ki, heç biri bizimkinə çatmayacaq.

Söhbətin şirin yerində qudalardan xəbər gəldi ki, Mələk bibiyə bayramlığı sabah gətirəcəklər. Həm əziz gündü, yəni çərşənbə axşamıdı, həm də Mələyin Şurəvidən qardaşı, bizi nəzərdə tuturdular, külfəti gəlib. Onlara gəlib “Xoş gəldin” deməli, nənəmə göz aydınlığı verməliydilər.

Nənəmgil əl-ayağa düşdülər. Düyü artlanıb islağa qoyuldu. Balıq suya salındı ki, duzu çəkilsin. Kişmiş, ərik, xurma təmizləndi. Həyətdən qonaqların adına kəsilməkçün quzu seçildi. Quzunun kəsilməyi Səməd əmimə tapşırıldı. Çünki atam xırmana gedəcəkdi. Bakıdan alınan bayram çərəzləri ‒ qoz, fındıq, iydə, innab, noğul, qovut şirniyyatlar məcməyilərə düzüldü.

Mən kəndimizə gələndən bibimlə yatırdım. Yerdəcə kilimin üstə iki döşəyi yanaşı salıb uzanardıq. Nənəm gec yatıb, tez durduğundan nə vaxt

harda yatdığını görmürdüm. Kürsünün yanı isti olduğu üçün hərdəm nənəm başını döşəkçiyə qoyub elə ordaca yuxulayardı

Bibim yatmağa hazırlaşanda mənə nişanlısına toxuduğu köynəyi göstərdi. Atamın aldığı boğazı açıq, yay köynəyini də üstünə qoydu: − Həlim, necədi? Yaxşı hədiyyədi? Eləmi.?

Mən başımı tərpətdim. − Buları bayrama görə verəcəksən nişanlına?

−Hə. − Bibim anamın qonşuların köməyilə bişirdiyi şəkərburadan, paxlavadan da ayırıb gizlətmişdi ki, yeyilər, nişanlısına qalmaz.

Bibimin üzü gülürdü: − Gəl çay içək, külçəylə. Gedim görüm samovar soyumayıb ki.

Bibim qalxıb iki stəkan çay gətirdi. Nənəmin bizim gəlişimizdən əvvəl bişirib teştə yığdığı külçələrdən hərəmiz birini yedik.

− Külçələr dadlıdır, bibi, −dedim.

− Nuş olsun. Cümə günü bişirdik ki, sora qonaq-qara olacax, vaxtımız olmaz. Gəlib-gedən çox oler axı bayramda.

− Bibi, çərşənbə axşamı biz neyləyəcəyik?. Gedib qonşuların, qapısını pusarıq hə...

− Yaxşı... Gedib pusarıq. Təki yaxşı söz eşidək.

Bibim uşaq kimi sevinə-sevinə qıraqları butalı, noxudu kəlağayısını sandıqdan çıxarıb başına saldı. Sonra balaca əl güzgüsünü üzünə tutub: − Həlim, − dedi, − Bu rəng mənə yaraşer? İsterəm qaynanamgil bayramlıq gətirəndə bunu örtüm başıma. Necədi?

Mən bibimi başdan-ayağa süzüb: − Bu kəlağayı pis deyil, ey bibi, ancaq sənin ağ zəkəriyyə şalın var ha, biz gətirdiyimiz qirbişin şalı deyirəm, onu örtərsən.

− Sən hansını desən onu da örtəcəm. - Bibim əyilib təzədən sandığın içini eşələdi və rəngi süd kimi ağ olan, saçaqlı zəkəriyyə şalı çıxartdı. Şalın xoş ətri otağa yayıldı. Görünür, bibim bu şalı ətirləyib sandığa qoymuşdu. Zəkəriyyə şalı başına örtüb təzədən güzgünü üzünə tutdu.

− Ay bibi, sənə ağ necə də yaraşır. Bax elə bunu ört, − dedim.− Sonra yavaşca, heç kəs eşitməsin deyə soruşdum.− Bibi, sənin nişanlın da gələcək? Bayramlıq gətirəndə?..

− Yox, Həlim , mənə bayramlığı arvadlar gətirəcək, ancaq, deyəsən deyiblər ki, qaynatam da gəlməlidi. Eşidiblər ki, ləl əmgil, yəni siz uzaqdan − Şurəvidən gəlibsiz, adətdi uzaqdan gələnlərlə gəleb görüşməlidilər, “Xoşgəldin” deməlidirlər axı.

* * *

Səhəri gün çərşənbə axşamı yuxudan tez durub yerimin içində bibimə sarı boylandım. Bibim də durmuşdu, paltarlarını geyinirdi. Bibimin axır çərşənbəsini təbrik edib boynunu qucaqladım.

− Sənin də, Həlim, sənin də bayramın mübarək, − deyib üzümdən öpdü. Sonra: − Dur, geyin gedək evdəkiləri təbrik edək.

Kürsülü, böyük otağımıza keçdik. Hamı oyanmışdı. Əvvəlcə nənəmi, sonra atamı, əmimi və növbəylə hamının axır çərşənbəsini təbrik etdik.

Axşamın soyuğunda yorğanın altında üşüyürdüksə, səhərsə günəş Savalan dağının arxasından görünüb öz hərarəti ilə havanı qızdırdı. Nənəm havanın istiləşdiyini görüb həyətdə ocaq qaladı: − Plovu elə bu ocaqda bişirəcəyəm.− dedi,− Sonra nənəm üzünü anamla Badam xalaya tutdu: − Ay gəlinlər, xuruşu bişirin, əldən çıxsın.

***

Günorta bir neçə çarşablı qadın başına quzu dərisindən papaq qoymuş bir ahıl kişiylə darvazamızın ağzında faytondan düşdülər. Gələnlər nənəmin təzə qudaları idilər. Kişinin əynində bahalı kürk, yaşlı, kök qadının isə zərri çarşabı diqqəti cəlb edirdi. Atam qabağa keçib qonaqları qarşıladı. Sonra nənəm, anam, əmidostum Badam xalayla Leyla xala da yaşmaqlanıb gələn qonaqlara xoş gəldin deyərək evə dəvət etdilər. Qadınlar əllərindəki xonçaları kilimin üstünə qoyub döşəkcələrin üstündə oturdular. Zərli, qara çarşaba bürünmüş yaşlı qadın evə göz gəzdirib: − Bə mənim ceyran qızım hanı? Gətirin gəlnimi, bir üzündən öpem, − dedi.

Anam tələsik o biri otağa keçib bibimi gətirdi. Bibim utana-utana içəri girib qaynanası ilə, o biri qadınlarla görüşüb əllərindən öpdükdən sonra qaynanası bibimi yanında otuzdurdu.− Mənim göyçək gəlnimin əhvalı necədi? − soruşdu.

Bibim utandığından başını aşağı salmışdı. Sıxıla-sıxıla pıçıldadı: − Yaxşıyam, xala, xoş gününüz olsun.

− Yaxşı ol, qızım. Həmişə yaxşı ol.

Süfrə açıldı. Yemək veriləndən sonra zərif, armudu stəkanlarda çay gətirildi. Oğlan evindən gələn qadınlardan biri xonçaları açdı. Qızılı, gümüşü, zərli parçalar, alt geyimlər, ipək corablar, ətirlər göz qamaşdırırdı. Xonçaların içində bibimin gözü yaşıl libasa sataşdı. Bibim mənim də marıtlayıb libasa baxdığımı görüb gülümsədi. Demək, nişanlısı sözünün üstündə durub ona libası Tehrandan almışdı. Gələn qadınlardan biri: − Ərdəbildə belə gözəl paltar satılmer ha. − dedi.

Qaynana bibimin xonçadakı hədiyyələrini və nənəmə, evdəkilərin adına alınan xələtləri çıxarıb payladı. Nənəm də əvvəldən hazırladığı pay-puşları xonçaların yerinə qoydu. Bibimin qaynanası nənəmə:

− Zinyət, bu nəmənədi? Mən sənə, sən mənə? Öycük-öycük oynamırıq ki, − Sonra güldü: − Day nə deyem, almısan payın çox olsun, − deyib cibindən zərif naxışlı, sədəflə işlənmiş bir qutu çıxardıb qapağını açdı və içindən ortası əqiq, qıraqları brillaynt qaşları olan üzük çıxartdı: − Gəlinmə bu əziz gündə qızıl payını özüm almışam, − dedi,− Bibimin təzədən üzündən öpüb üzüyü barmağına taxdı..

Arvadlar üzüyü nöbvəylə əllərinə alıb xeyli təriflədilər və çay içə-içə Bakı bişmişlərindən yeməyə başladılar.

Nənəm çayından bir qurtum içərək üzünü qudasına sarı tutub: − Ay Qızxanım bacı, – dedi.− Bu əziz bayramda damədimi də gətireydiz də. Oğlum Quzeydən gəleb. Bir-birilərini görüb tanıyardılar.

Bibimin qaynanası nənəmin bu sözünə bir az təəccüblə:

− Nə bileydim, qıza, ağayi Əhmədin gələməyini eşitmişik, ancaq dedux, yaxşı döyül, birdən acıxları tutar.

− Niyə acığımız tuter? Öz balamız döyülmü.

Qaynana zarafata keçdi.

− Təzə daməd şirin olar, deyərlər. Eybi yox inşallah ara günlərdə qonaq çağırarsız gələr.

− İnşallah. Gözümüz üstə yeri var. − Nənəm qudasına baxın gülümsədi: − Allah bütün cavanları xoşbəxt eləsin, bizimkilər də onun içində.

− Amin!

− Yarıyanlardan olsunlar!

Qudalar xudahafisləşib gedəndən sonra qonşularımız bibimin xonçalarına baxmaq üçün yığışıb gəldilər. Yenidən xonçalar ortaya töküldü. Gələnlər bibimə alınan hədiyyələrə baxdıqca yerbəyerdən: − Hər qıza belə

bayramlıq gəlmer ha. Qanacaqlıymışlar, vallah, Allah bəxtini versin, qızım, xoşbəxt olasan, – dedilər.

Bibimsə qaynanasının barmağına taxdığı üzüyə baxa-baxa utanır, başını aşağı salıb gülümsəyirdi. Bibimin ürəkdən sevindiyini görürdüm. Bibim xoşbəxt idi. Həm qaynanasının aldığı hədiyyə, həm də nişanlısının seçdiyi libas ürəyincə idi. Bir də bibimi sevindirən nişanlısı Rəsulun sözünün üstə durmağıydı. Demək, nişanlısı onu sevirdi, onu yadından çıxarmır, onun haqqında düşünürdü. Bibim sevincinin səbəbini gecə yatağımıza uzananda utana-utana dedi: – Rəsul atın üstündə mənə şirni verəndə bileysən nə dedi, Həlim? Dedi ki, səni hər gün gömək isterəm. Mən də başımı saldım aşağı. Eh, məni hər gün nə təhər görə bilər?

Bibim gözümü xonçalardan çəkmədiyimi, heyran-heyran baxdığımı görüb xəfifcə gülümsəyərək üzümdən öpdü.

– O gün olsun sənin də xeyir işini görem, Həlim,– dedi, – Allah sənə də belə nişanlı qismət eləsin.

* * *

Şər qarışmamış qonşular evlərinə çəkildilər. Nənəm hamımızı kürsünün başına yığdı. Süfrəyə məcməyilərdə qoz-fındıq, qovut, şirniyyatlar düzüldü. Bibim məcməyinin qırağına  hər birimizin adına şam düzüb yandırdı. Nənəm Bulud əmimlə Abdulla əmimin burda olmasalar da, iki şam da gətirib: – Buları da yander, ay Mələk, – dedi. – Bu əziz gündə  bilmirəm tifillərim hardadırlar,  yedikləri nədi, içdikləri nə. – Üzünü bir ayağını qaçaraq qoyan Leylaya tutdu: – O gün olsun ərinlə əziz bayramları bir yerdə keçirdəsən, bala, – dedi.

Leyla xalanın üzünə yenə də kədər çökdü. Ərinin gəlməyindən gözü su içmirdi, nədənsə heç nə deməyib nənəmə baxdı. Elə bil gözləri dolmuşdu.

Leyla xala anasını evdə tək qoyduğu üçün axşama qalmadı, hamımızla öpüşüb bayramımızı təbrik etdi, Səkinəni götürüb getdi.

Bir az keçmədi ki, uşaqların qaladığı tonqalın alovu həyətimizi işıqlandırdı. Bu vaxt Səməd əmimin oğlanları − Əliylə Sədinin səsini eşitdik.

− Bibi, gəlin, tonqalı yandırmışıq. − Hava soyuduğundan bibim mənə qalın gödəkçəsini verdi. Özü də qalın geyindi. Həyətə çıxdıq. Qonşularımızın uşaqları da tonqalın başına yığışmışdılar. Nənəm, atamla anam, Səməd əmim, Badam xala da həyətə düşdülər. Həyətimizin oğlanları, Sədiylə Əli tonqalların üstündən atlanır: − Ağırlığım, uğurluğum burda qalsen, − deyib gülüşürdülər. Sakit təbiətli, az danışan atam hamıdan kənarda dayanıb gözünü tonqaldan çəkmirdi. Atamın üzündə xoş bir təbəssüm vardı. Elə bil inanmırdı ki, elinə, obasına qovuşub. O qədər kəndimizin xiffətini elədiyini görmüşdüm ki.

Bir azdan böyüklər çəkilib evə getsələr də, tonqal yanıb-yanıb köz olana qədər uşaqlarla mən onun ətrafından çəkilmədik. Bibim də bizə qoşulmuşdu. Sonra oğlanlar qapılara "papaqatdıya" getdilər.

Bibim dünəndən mənə söz vermişdi ki, axşam məni qapılara qulaq falına aparacaq. Tonqalın yanından aralanan kimi qonşu qapılarını pusmağı bibimin yadına saldım.

Bibim: − Yaxşı, Həlim, − dedi, − Gedərik. Əvvəlcə fikirləşək görək kimin qapısını pusaq.

− Nə bilim, bibi.

− Kəlbə Nisə nənənin evi yaxındı. Bir az keçsin, gedərik ora.

− Görürsən, − dedim, −Bibi, qonşularımızın hamısının lampaları yanır.

– Əlbəttə yanacaq, Həlim, bu əziz gündə hamının çırağı yanmalıdır. Gördün, qaynanamgil axşama qalmadılar. Tez getdilər ki, evlərini işıqsız qoymasınlar.

Bibimlə mən nənəmin gözünü oğurlayıb qapıları pusmağa, daha doğrusu qulaq falına getdik. Yavaş-yavaş, xəlvətcə gəlib Kəlbə Nisə nənənin qapısının ağzında dayandıq. Evdə səs-küydən qulaq tutulurdu. Görən, nə danışırdılar. Bibim qulağını qapıya dirəyib diqqətlə qulaq asmağa başladı. Mən də qulağımı qapıya dirədim. İçəridən qadın səsi aydınca eşidilirdi:

– Ay qız, Fizzə, uşağı qoyma ağlasen bu əziz gündə.

– Ay xala, sən allah, sən kirit onu. Görmeysən qabları yuyuram. Hələ başıma xına da qoymalıyam. Sabah nənəmgilə ağarmış saçımnan getməyəcəyəm ki.

– Yaxşı, ay qızım, xınadan çox islat. Mən də əlimə xına qoyacam.

Bibimin üzü gülürdü: – Sağ olasan səni, ay Nisə nənə. Gör gəlninə nə yaxşı sözlər deyer. Ömrün uzun olsen sənin, ay nənə. – Elə bil bibimin taleyi kəlbə Nisə nənənin evində gedən söhbətdən aslıymış.

Bibim: – İndi də gedək Zeynəbgilə. – deyib qaranlıqda yıxılmayım deyə əlimdən tutdu: – Yavaş elə, Həlim, ayağının altına bax. Bu əziz gündə yıxılarsan.

– Qorxma, bibi, yıxılmaram. Zeynəb xalanın evi hansıdı?

– Odey, qapısının ağzında quyu görüner. Hə, bax odu. Gəl, gəl tez gedək. İçəridən səs gəler. Birdən qapını açıb bizi görsələr biabır olarıq.

Biz bu qapıdan da xoş sözlər eşidib sevinə-sevinə evə qayıtdıq. Evə çatanda bibim gülə-gülə dedi: – Həlim, gördün, nə yaxşı sözlər eşitdik. – Bibim sevindiyindən məni qucaqlayıb üzümdən öpdü. Birdən nəsə yadına

düşmüş kimi üzünü mənə tutdu: – Elə səni Kəblə Nisə nənənin yanına aparacağıq da. Qoy bayramı yola verək. Nisə nənə sənə Qurandan dərs keçəcək.– Bakıdakı məktəbim yadıma düşdü. Ora təzə-təzə isnişmişdim. Sinif yoldaşlarıma, müəlliməmə. Elə isnişdiyim vaxt məktəbdən ayrıldım. Burdasa mənə əvvəlcə ərəb əlifbası, sonra isə Quran oxumağı öyrədəcəkdilər. Namaz da qılmalıydım. Anam fəxrlə deyirdi ki, doqquz yaşından namaz qılıb, oruc tutub, hələ bir dəfə də olsun orucunu pozmayıb, namazının vaxtını keçirməyib. Mən də burda şəriətin bütün qaydalarına əməl etməliydim.

* * *

Köhnə ilin axır çərşənbəsindən iki gün sonra Novruz bayramı gəldi. Xonçamızı bəzədik, bibimin göyərtdiyi səmənilərі süfrəyə düzdük. Bu əziz günün axşamı elə bir ev yox idi ki, orda plov qazanı asılmasın. Axı plov biz azərbaycanlılara görə xörəklərin şahı idi. Nənəmin bişidriyi plovun dadından doymaq olmur. Xüsusən də səbzi plovun. Axşam yenə də ailəmiz bir yerə yığışdı. Plovmuzu yedik. Səhəri gün sübh tezdən kəndimizin qız-gəlinləri çaya tərəf axışırdılar. Axşam yatanda əlimizə qoyduğumuz xınanı çayda yuyacaqdıq. Kimin ürəyində nə istəyi vardısa çaya söyləyəcəkdilər. Savalan dağının başından günəşin əritdiyi qar sel-suya dönüb çaya tökülürdü. Gurultu ilə axan çayın şırıltısından qulağımız tutulurdu. Hər tərəfə çöl güllərinin, novruzgülünün xırda ləçəkləri səpələnmişdi.

Bibim qonşu qızlarla bayramlaşdıqdan sonra mənim əlimdən tutub çaya yaxınlaşdı. Xınalı əllərimizi yuduq. Bibimin dodağının altından pıçıldaya-pıçıldaya çaya nəsə dediyini gördüm. Bibim salavat çevirib mənə tərəf baxdı: – Həlim, sən də arzunu çaya söylə. Bu əziz gündə nə arzulasan, hamısı yerinə yetirilər, – dedi.

– Nə deyim. Axı mənim arzum yoxdu.

– Yox, düz demirsən, Həlim. Fikirləşsən taparsan.

– Yaxşı, – deyib, – fikrə getdim. Ata, anam, tanıdığım adamlar, yaxınlarımız yadıma düşdü. Həmişə bir adam dünyasını dəyişəndə valideynlərimin, qardaşımın, yaxın qohumlarımın nə vaxtsa öləcəklərinin əzabını çəkərdim. Çaya sarı əyilib suyu ovcuma götürərək bibim kimi pıçıldadım.

– Allahım, həyatımız bu su kimi duru olsun. Heç vaxt ölüm olmasın. Nə dədmi, nə də möməmi öldürmə. Heç kəsi öldürmə. İstəyirəm hamı sağ qalsın.

Bibim altdan-altdan mənə baxırdı. Sonra gülümsəyib üzümdən öpdü.

– Yaxşı arzudu, – dedi. – Mənim arzumsa başqaydı. Arzu edirdim ki, nişanlım məni həmişə istəsin, heç vaxt bir-birimizdən ayrılmayaq.

Birdən yaxınlığımızda at kişnərtisini eşitdik. Bibim mənə demişdi ki, Rəsul həmişə atın belində gəzir. Bibimin həyəcanlandığını, üzünün qızardığını gördüm. Bildim ki, bizə yaxınlaşan bibimin nişanlısı Rəsuldu.

Bibimin nişanlısı bizə yaxınlaşanda atının yüyənini dartdı, at sürətini azaldıb addım-addım yeriməyə başladı. Rəsul bibimdən gözlərini çəkmədən üzünə gülümsədi, bibim də gülümsəyib başını aşağı saldı. Sonra Rəsul atının başını döndərib yüyəni əlinə keçirtdi və bizdən uzaqlaşdı.

Çayın qırağına yığışanlar arzularını çaya söyləyəndən sonra dağılışdılar. Biz də evə gəldik.

Pətəxorda keçirtdiyimiz bu Novruz bayramında hamımızın üzü gülürdü.

İki gündən sonra atam bizi anamın doğulduğu Torpaqlı kəndinə nənəsiylə, yəni mənim böyük nənəmlə bayramlaşmağa apardı. Gövhər

nənəm cavankən dünyasını dəyişdiyinə görə anamı Əsmət nənəm saxlamışdı. Əsmət nənəm qızının iyini anamdan alardı. Bu nənəm Ziynət nənəmdən fərqli olaraq dolu bədənli, kök bir qadın idi. Xoş qılıqlı olsa da ötkəmliyi vardı. Yeddi qardaşın bir bacısı kimi onun sözü hamı üçün qanun sayılırdı. İşli-güclü qonaqlı-qaralı nənəmin mal-qarasının, qoyun-quzusunun sayı-hesabı yox idi. Gecələr sərhəd kəndlərdən şahsevənlilərdən mal-qara oğruluğuna gələrdilər. Ona görə də nənəm nökərlərinə evini, həyətini etibar eləməyib evində tüfəng saxlar, özü də ayıq yatardı. Bir dəfə soyuq qış günü bir neçə oğru qoyun-quzu saxlanılan tövləyə girirlər. Heyvanların mələşməsinə nənəm ayılır, əlinə tüfəngi alıb özünü bayıra atır. Tövlənin yanında qaraltını görüb:- Köpək uşaqları nə işiniz var orda? – deyərək tüfəngini oğrulara sarı tuşlayır. Güllə səsinə qonşular oyanırlar. Oğrular özlərini hasarın üstündən küçəyə atırlar. Onlardan biri: – Vay, dədəm, vay, ayağım! − qışqırıb ayağının qanı axa-axa qaçıb canını qurtarır. Səhər tövlənin yanından düz küçəyə kimi oğrunun ayağının qan izlərini görürlər.

Əsmət nənəmin qardaşlarından ən varlısı Hüseynəli bəy olub. Hüseynəli bəy Bakıdakı Göy məscidinin yanından bir neçə mülk almışdı. Deyilənə görə "Göy məscid"in tikilməsinin yardımçılarından biri də Hüseynəli babam imiş. O, qış ayları külfətini götürüb Bakıya gələr, mülklərinin birində yaşayardı. Şamaxı meydanında, kömürçü bazarının yanında dükanları vardı. Əsmət nənəyə də qaldığı evinin yanında ev alımışdı ki, o da ürəyi şəhəri çəkəndə, Ərdəbilin şaxtalı aylarında gəlib Bakıda yaşasın. Elə anamın toyu da Əsmət nənənin Bakıda qaldıqları vaxta düşmüşdü. Anam atası da cavankən dünyasını dəyişdiyinə görə nənəsinin evindən İçəri şəhərə- atamgilin evinə gəlin köçmüşdü.

Torpaqlıda Əsmət nənəmgildə bir həftə qaldıq. Mənə bu bir həftə bir ildən də çox göründü. Əsmət nənəm, anamın dayıları, qohum-əqrabalar başımıza fırfıra kimi dolansalar da bibim üçün darıxırdım. Evə qayıtmağımızın günlərini sayırdım. Axır ki, həftənin sonu atam gəlib bizi Pətəxora apardı. Bizi pay-puşla, əzizləyə-əzizləyə yola salanda Əsmət nənəm ağlayırdı. Anamın onlardan uzaq düşdüyünə, yoxsa anamın cavankən dünyasını dəyişən qızını, yəni anamın anasını yadlarına saldıqlarına görəmi – hamı kövrəlmişdi.

***

Yazı da yola verdik. Atam hər gün xırman yerinə gedər, axşamlar gün batandan xeylək keçmiş evə qayıdardı. Arada Səməd əmim də ona qoşulardı.

O il atamgil torpaqdan bol məhsul götürdülər. Yığım vaxtı kəndimizin kəndxudası ərbabla atın belində həyətimizdə göründülər. Ərbab həyətdə odun doğrayan atamı barmağının işarəsilə yanına çağırdı. Atam baltanı odunların birinə sancıb gələnlərə yaxınlaşdı və salamlaşıb evə dəvət elədi.

Ərbab: –Vaxtımız yoxdu, kişi, –dedi. – Verginin vaxtıdır. Səhər xırmanda ol! – deyib atına qamçı çəkdi. Kəndxuda da onun ardınca.

Səhəri gün atamla əmimin alın tərilə becərdikləri məhsulun elə əkin yerindəcə üçdə iki hissəsini ərbabın adamları gəlib apardılar. Nənəm axşam atamdan bu xəbəri eşidəndə, iki əlini dizinə çırpıb: – Haramuuz olsun, – dedi, – Özgənin malına tamah salan müftəxorlar, nakişilər.

Atamın üzünü qüssə bürümüşdü. Fikirli-fikirli nənəmə baxırdı. Sonra yavaşca:– Biz neyləyə bilərik, nənə,– dedi, Bəs bilmeysən bu dünya ağalar, qullar dünyasıdır.

Buna baxmayaraq qış azuqəmizə görə hamımızın üzü gülürdü. Bizə qalan məhsulu atamla əmim qonşuların köməyilə evə daşıdılar. Sonra atam beş-altı kisə buğdanı arabaya yığıb üyütmək üçün dəyirmana apardı. Qışda mal-heyvanın yemi üçün ot tədarükü də görüldü. Ot tayalarının qar, yağış çürütməsin deyə üstü basdırıldı. Nənəm sapsarı ot tayalarına baxıb: − Bıy, ürəyim rahatlandı. Heyvanların yemindən arxayın oldum.− dedi.

Sevincimiz uzun çəkmədi. Ot yığımının qurtarmaq ərəfəsində atam xırmandan qanı qaralmış vəziyyətdə gəldi. Rəngi ağappaq ağarmışdı. Nənəm atamın qanının qaraldığını görüb sorğu-suala tutdu:

− Nolub, ay Əhməd, iraq canından xəstə-zad döyülsən ki?

Atam çevrilib mənə baxdı: − Həlimə qızım bizdən ağıllıymış.

− Həlimə neyləyib ki, bala?

−Vallah Həlim adam tanıyanmış. O Fərrux əclaf torpağını bizə satdığını daner. Deyir mən sizə torpaq-zad satmamışam. Çıxın əkin yerimdən.

Evin küncündə çay dəmləyən anamın əlləri əsdi. Az qaldı çayniki əlindən salsın. Nənəm iki əlini dizinə çırpıb: − Mən elə belə də bilirdim. O nakişidən nə desən gözləmək olardı, bala, uşaqlıqdan elə cüvəllağı idi köpək oğlu. Yadından çıxıb, ay Əhməd, qonum-qonşudan əlinə nə düşürdü oğurlayardı. Yaxşı, bala, bəs o torpağın kağızından-zadından yazdırıb barmağınızı basmadız?

− Nə kağız, ay nənə? Bulud qağamnan evə gəleb, bir yerdə duz-çörək kəsmişik. Çörək ey, nənə, çörək kəsmişik.− Nənəm yandığından qarğışa keçdi: − Görüm ona çörək qənim olsen. Amin, ya rəbbim! O çörək qədrini biləndi?

Axşam Tumgöz Fərrux yanında bir kişiylə evimizə gəldi. Nənəm çarşabını başına atdı, ətəyini əllərinə yığıb qabağa keçdi: − Ay kişi, Allahından qorxmesan? Bu nə həngamədir çıxardesan, hə? Nakişilik eləmə Fərrux. Neçə ilin qonşusuyuq. Bəlkə elə gör qonşusu da olduq.− Fərrux sırtıq-sırtıq atamın üzünə baxıb əlini-qolunu ölçə-ölçə:

− Nakişi sənin oğlanlarındı ki, gəleb torpağıma yiyə dureblar.

Atam hirslə Fərruxa baxdı. Sonra: − Fərrux,− dedi, −Qoşaqala qapısının ağzında Buludla rastlaşmadın? Qardaşım səni adam bileb evə gətirmədi? Oturub səninlə duz-çörək də kəsdik. Bu nə məsələdi. Sən nə danışdığını bileysən?

− Hı, Əhməd kişi çörəyi başıma qaxesan? Neynək, neynək.

− Biz o çörəyə inandıq, Fərrux. Bulud da, mən də, demək, verdiyimiz pulu danersan. Torpağın pullarını toplayıb vermədik sənə? Buluda demişdin ki tümən verin mənə. Dedin Pətəxora gedərəm, mənə tümən lazımdır. Pulun azlığı səni qane eləmədi, üstündə qızıl da aldın.

Mənim gözümün qabağına anamın eyvana keçib boynundan, qulağından çıxartdığı qızıllar gəldi. Körpə qardaşımı əmizdirəndə uşaq anamın arpa boyunbağısını əliylə oynadardı. İndi anamın boynu boş qalmışdı. Mən istər-istəməz keçib kişinin qabağında dayandım.

− Anamın sırğasını, boyunbağısını ver,− dedim.− Ver onları!

Tumgöz Fərrux dönüb tum gözlərini qırpa-qırpa :

− Səsini kəs. bihəya, − çımxırdı.

Onun söyüş söyməyinə, mənim üstümə çımxırmağına atam dözmədi. Fərruxa yaxınlaşıb üzünə bir yumruq vurdu: − Çıx bayıra, allahsız! − Atamın yumruğu, deyəsən, Fərruxun burnuna dəymişdi. Burnundan axan qan çuxasını buladı. Fərrux burnunu tuta-tuta atama: − Sənnən, Əhməd,

şikayət edəcəyəm, qazıya. Hələ qardaşının- dələduz Abdullanın şahımıza qarşı Təbrizdə nə hoqqalardan çıxdığını da lazımi yerlərə çatdıracam. Elə bilirsən nəlayiq işlər gördüyündən, Tudəçilərə qoşulmağından xəbərimiz yoxdur? Bax, deyerəm, dinməz, söyləməz çıxın xırmanımdan. O muzdurlarına de, o həndəvərlərdə görünməsinlər. Yoxsa...

Tumgöz Fərrux burnunu tuta-tuta qapımızı çırpıb getdi.

Nənəm Abdulla əmimin adını eşidəndə gözləri doldu. Bir ildən çox idi ki, əmimdən xəbəri-ətər yox idi. Hardaydı, nə işlə məşğul idi. Bu yaxında eşitdiklərinə görə xeyli adamı zindana salmışdılar, bəlkə elə o da o zavallıların arasındadı.

Nənəm tez-tez anama Abdulla əmimdən söz salıb kövrələrdi: − Dedim, bala, şahlıqla şahlıq eləməyəcəksən ki, cavansan, gəl, bala, evlənginən, sənin də başın bağleyem. Sözə baxmadı. Elə deyirdi mənnən işivüz olmasen.

* * *

O gündən atam bikef-bikef gəzir, əli işə yatmırdı. Zəhmətlə yığdıqları pulu bir nadürüstə, fırıldaqçıya verdiyinin peşmançılığını çəkə-çəkə: − Bu Tumgöz Fərruxu biz axı tanıyerdıq. Nahaq lələmnən bu işə qol qoyduq. Bu adamnan gərək salaməleykum belə eləməyəsən, − deyirdi.

Bir gün atamı qazının yanına çağırdılar. Qazının idarəsi Ərdəbildə yerləşdiyi üçün atamın gedib gəlməyi uzun çəkdi. Atam axşamdan xeyli keçmiş gəldi. Yorğun idi. Yağışlı gün olduğu üçün ayaqları çarığın içində islanmışdı. Anam ləyəndə su gətirdi, atam ayaqlarını isti suya saldı. Hamımızı nigarançılıq üzürdü. Görən, qazı atamı niyə çağırmışdı.

Nənəm: − Noldu, ay Əhməd, danış, bala, ürəyimizi üzmə.

Axır ki, atam dilləndi: − Ay nənə, qazı ağa Tumgöz Fərruxun tərəfini saxlaer, deyir, sənnən şikayət var, Frrux Cəfərpurdan. Kişinin torpağını zəbt etməyin bəhs döyül, hələ onun başını da yarmısan.

− Sən nə dedin?

− Dedim  Fərrux mənim qızımı söydüyünü, qazı ağa, sizə deməyeb?

− Sənin qızını söyeb deyə kişinin başını yarmalısan. Sən də söy, yoxsa...

− Mən onun kimi tərbiyəsizlik eləmərəm, − dedim, − vuraram, amma söyüş söymərəm.

− Yaxşı, yaxşı, get. Sabah gələrsən. Kişinin şahidi var.

Nənəm: − Ay oğul, o yanındakı nadürüstnən qudadırlar. Sən tanmersan. Xorasannandı. O, Fərruxun tərəfini saxlamasa qızını oğlundan boşatdırar. − Nənəm başını yelləyə-yeləyə ah çəkdi: − O allahsız səni işə salmasa yaxşıdır.

Atam səhərisi  gün yenə də qazının yanına getdi. Yenə də gəlməyi uzun çəkdi. Nənəm yenə də atam gələn kimi başının üstünü kəsdirdi. Anam atamın yağışdan islanmış ayaqlarına görə yenə də su qızdırdı. Atam bu dəfə lap dilxor gəlmişdi. Atam ayaqlarını  suya sala-sala danışmağa başladı: − Neçə saat növbə gözləmişəm, − dedi. − Gördüm Fərrux gəldi. O bizə gətirdiyi kişi də yanında, hə, gəldi Fərrux, başı da sarıqlı. Fikirləşdim ki, bunun burnu qanamışdı, görəsən, niyə başını sarıyıb. Bizi qazının yanına buraxdılar. Qazı Fərruxdan soruşdu ki, şahidin bumu? Dedi, bəli, qazı ağa, elə bu kişinin yanında evin içində yabanı necə üstümə tulazladısa yaba başıma dəydi. − Qazı kişinin adını soruşdu. Sora soruşdu, kişi, Fərrux Cəfərpur düzmü deyir? Sən öz gözlərinlə gördünmü vuranda? Fərruxun şahidi bir mənə baxdı, bir də Fərruxa. Dedi, qazı ağa, öz gözlərimlə

gördüm. Az qaldı elə oradaca kişinin üzünə tüpürem. Nəhlət şeytana, deyib, güclə özümü saxladım. − Atam susdu, məyus-məyus nənəmə baxdı. − Deyəsən, nənə, bu Fərrux məndən əl çəkməyəcək.

Bu söhbətdən sonra qonşumuz Əliş dayı atama dedi ki, Tumgöz Fərrux qazıya yeriyəndə quyruğu tir-tir titrəyən bir qoç aparıb ki, iki göz istəyir tamaşasına dursun. Əliş dayı düz deyirmiş, qazıya aparılan rüşvət öz işini gördü.

Məhkəmədə Tumgöz Fərruxun şərti bu olub ki, torpağımı özümə qaytarmasa, mənim başımı yardığına görə şikayətimi geri götürməyəcəyəm.

Atam da deyib ki, qazı ağa mən onun başını yarmamışam. Sarığını açıb baxın. Evin içində də yaba olar? Qazı əsəbləşib atama qeyzlə: − Kişinin şahidi var. Uzun danışma. Sabahdan kətənini, xışını, öküzünü- nəyin var çıxart xırmandan. O torpağı sənə satsaydı əlində sənədin olmalıydı.

Atam başa düşür ki, qazı qoçun xətrinə işi Fərruxun xeyrinə həll edəcək. Üzünü qazıya tutub: − Qazi ağa, bir sual vermək istəyirəm sizə? Bu Fərruxun, bu allahsızın sənə gətirdiyi qoçun quyruğu çox böyük idi, eləmi?

− Nə? Nə dedin? − Qazı hirsindən ayağa qalxır: − Çıx odamnan! Vələdüzna! Lənətə gəlmiş!

Atam o gündən Ərdəbildən ayağını kəsdi. Fərruxa da xəbər göndərdi ki, gəlib satdığı əkin yerinə yiyə dursun. Atam Fərruxa bir də onu dedi ki, sən ki, belə dələduzluq elədin, sən o torpaqdan xeyir görməyəcəksən.

* * *

Bibim çox keçmədi ki, məni Kəblə Nisənin yanına Quran dərsi keçməyə apardı. Artıq bir neçə hərfi yazıb oxuya bilirdim. Əli işdən soyuyan atam fikirli-fikirli gəzir, Səməd əmimlə iş dalınca harasa gedib gəlirdi. Nənəmin başı mal-heyvana qarışmışdı. Səhər mal-heyvanı örüşə

buraxır, axşam üstü örüşdən qayıdan inəkləri sağır, sağılanın da, sağılmayanın da otunu, ələfini verib tövləyə salırdı. Anam da qardaşım qucağında nənəmə əl-ayaq verir, nə deyirsə yerinə yetirirdi. Bibim xalça toxuya-toxuya dodağının altından bayatı da deyərdi. Mənə deyirdi ki, bu bayatıları nənəmdən öyrənmişəm.

− Xalçanı kimə toxuyursan, bibi? − soruşuram.

− Bibim gözünü ilmələrdən çəkmədən:

− Özümə, Həlim,− dedi.− Göreysən, az qaleb. Allah qoysa toyuma kimi qurtararam. Nənəm yanımda oturseydi çoxdan kəsmişdik. Nənəmin də işi, gücü. Mal-heyvana baxmaq asan gəlməsin ey sənə. − Bibim çevrilib gülümsünür və üzümdən bir çimdik götürür.

− Allah qoysa, inşallah sənə də toyunda bundan yaxşısını toxayacağam.

− Bəs Badam əmidostum səninlə xalça toxumaq istəmir.

Bibim nədənsə susub başını yelləyir.

Badam əmidostum qaşqabaqlı gəzir, bütün günü hirsini yuduğu qab-qaşığa, uşaqların üstünə tökürdü. Bir dəfə bibimdən soruşdum ki, Badam əmidostum niyə qaşqabaqlı gəzir.

Bibim həvəngi toxuduğu iplərə həvələyə-həvələyə dedi:

− Onun dərdi əvvəl ev dərdi idi, indi də qağamı dilə tutur ki, çıxıb Tehrana getsinlər.

− Bəs Səməd əmim nə deyir?

− Qağam nə deyəcək. Nənəmi tək qoymaq istəmerdi. Ona görə də razı olmurdu. İndi ki, Əhməd lələm Şurəvidən həmişəlik gəleb, sizi də gətereb, ona görə də Səməd qağamın bəhanəsi qalmeb.

* * *

Nənəm gözünü yollardan çəkmirdi. Bulud əmimlə Abdulla əmimin yolunu gözləyirdi. Gecə nənəm səksəkəli yatdığındanmı, Bulud əmim fikrindən çıxmadığına görəmi yuxu görmüşdü. Səhər yuxusunu anamla Mələk bibimə danışanda mən nənəmin böyrünü kəsdirmişdim: − Gecə, ay qızlarım, göy qurşağı görmüşəm. Düz Savalan dağının üstündən aşağıyacan uzanerdi. Zənnim məni allatmersə Bulud yol gəler.

Anam sevinə-sevinə dedi: − Allah ağzından eşitsin, nənə, kaş ikisi də gəleydilər. Ağaqardaş gəlseydi Leylanın də təklikdən canı qurtarardı.

Bibim nənəmə təsəlli verib: − İnşallah gələrlər,− dedi,− fikir eləmə.

Ancaq nənəmin yuxusu düz çıxmadı. Əksinə, xəbər gəldi ki, Şimali Azərbaycanla Cənubi Azərbaycanın sərhədlərinə məftillər çəkilir, yollar bağlanılır, iki nəhəng dövlətin əsarəti altında yaşayan, Türkmənçay müqaviləsindən sonra müstəqilliyini itirən Azərbaycanda camaatın bir-birilərinə gediş-gəlişlərinə qadağa qoyulur. Yenə də xəbər gədi ki, sarıbaşlarla şahın əsgərləri Araz boyu düzülüb. Bu gözlənilməz xəbər hamını çaşbaş saldı. Nənəm iki əlini dizinə çırpıb vay-şivən qopartdı.

− Bulud balam qaldı qürbətdə! Bunnan sora balamın üzünü görməyəcəyəm. Balamın yolları bağlı qaldı, balam tək qaldı orda!

Axşam Səməd əmim Ərdəbildən gəldi. Onun dediyi xəbərdən hamı donub qaldı. Şurəvidə baş verən hadisələrdən biri də bu idi ki, ordakı əhalinin sənədlərinin yoxlanışı gedir. Kim İranda anadan olubsa və kimliyində (sənədində) İran vətəndaşı yazılıbsa onlar ailəli oldu, olmadı, uşaqları vardısa, yoxdursa məcburən Ənzəli gəmisiylə, keçid məntəqələrdən Cənubi Azərbaycana yola salınırdı. Səməd əmim yanıqlı-yanıqlı danışırdı: − Düz, yalan olmasın, Ənzəlidə bir gəmi adam düşürdüblər. Binəvaların ikisi Ərdəbildəndi. Mən elə hazırlaşırdım evə gəlem, Pətəxordan bizim

kənddən Əlif kişini gördüm. O bizim qonşu Cəfərlə birgə məni göreb üstümə atıldılar. Əlif kişi: − Ay Səməd, − dedi, − məni elə küçədən tutub gəmiyə atdılar. Gəmi, gördüm ki, ləngiyir uşaqların anasına xəbər göndərdim ki, məni aparırlar. Dedim bəs külfətin hanı? Dedi, harda olacaq, qardaş, qaldılar. Arvadım Bəkili qızıdı. Dədəsi, nənəsi, qardaşları var. Heç bir saat çəkmədi ki, arvad özünü çatdırdı. Dedim uşaqları gəter gedek. Yazıq arvad duruxdu, bilmədi nə desin. − Dişimizlə, dırnağımızla ev-eşik düzəltmişik, buları qoyub nə təhər gedem, − dedi. − Uşağın biri məktəbdə, o birisi anamın yanında: Onları necə gətirim. Uşaqlarsız da qoşulum necə gedim sənən. Hamısını − evimi, eşiyimi, külfətimi qoyeb gəldim, yox ey məcbur çıxartdılar məni Şurəvidən. İndi qalmışam başıma döyə-döyə. Bu zülmü kim götürər, ya rəbbim. Başıma nə çarə qılım, − Kişi zülüm-zülüm ağlayırdı, yollarım bağlı qalacaq, deyirdi, balalarımı, külfətimi bir də görə biləcəyəmmi?

Nənəm: − Görəsən, Buludu da Şurəvidən çıxardarlar? − Naümid-naümid soruşdu.

Atam: − Yox, nənə, − dedi, − Onun kimliyini Bakıda vereblər. Sən özün demişdin ki, Bulud o tayda − Bakıda doğuleb. O vaxt Göy məscidin yanında olurmuşsuz ha. Özün danışırdın ki...

− Hə, hə, düz deyirsən, bala, − Nənəm dedi, − Buludu orda doğmuşam. − Nənəm təzədən vaysındı. − Kaş Buludun kimliyini burdan aleydıq, onu da bəlkə çıxardeydilər Şurəvidən. Balama həsrət qalmazdım.

Səhəri gün bir neçə ailə Şimali Azərbaycandan gəldilər. Onları Astara keçidindən keçirmişlər. Ev-eşiyini qoyub gələnlər bizim kənddən – Pətəxordan idilər. Hamısının üzündə qəm-qüssə yağırdı. Onları ev-eşiyindən çox, doğmalarına, qohum - əqrəbasına həsrət qalmaq qorxusu

üzürdü. Qadınlar göz yaşlarını saxlaya bilməyib ağlayırdılar. Nənəmgilin qonşuları Əbil əmi də arvadı Güleyşə xala, iki körpə balasayla Ənzəli yoluyla Pətəxora gəlib çıxdılar. Bibim Güleyşə xalanı görməyə gedəndə məni də özüylə apardı. Güleyşə xala bizi qapısının ağzında qarşılayıb ağladı, bibimin, sonra da mənim üzümdən öpüb: − Ay Mələk, − dedi, − başımıza gələnləri eşitdiniz də! Evim-eşiyim, yorğan, döşəyim, qabım-qacağım hamısı qaldı o tayda. Bir qurulu ev qoyeb gəldik. Bu zülmü kim götürər. Kimdi bizim başımıza bu oyunu gətirən, görüm Allah bəlasını versin . Bibimin birdən gözü evin küncündə altı - yeddi yaşlı oğlan uşağını aldı. Uşağın gözü nəmliydi. Görünür, ağlamışdı.

− Ay Güleyşə xala, bu kimin uşağıdı, doneb qaleb?

Güləyşə xala uşağın başını sığallayıb ağlamsındı: − Baldızımın oğludu. Bu uşağın dərdi bizə dağ çəkdi, dağ. Hələ anasını demerəm.

− Nolub ki? − Bibim təşvişlə soruşdu. O nə sözdü deyersən?

− Day nolacaq! Baldızım bizi yola salmağa gəlmişdi. Bu balanı da özüylə gətirmişdi. Başı qarışmışdı bizə. Qardaşından ayrıla bilmerdi. Bu Fərəməz bala da özüyçün oynayerdı. Gah keçirdi gəmiyə, gah qayıdırdı bizim yanımıza. Bizi ki, gəmiyə mindirdilər, sən demə, uşaq da gəmidə. Xəbərimiz yox. Gəmini sürən elə bizim minməyimizi gözleyirmiş. Aralandı qurudan. Bir də gördük uşaq yanımızda. Fərəməzi anasına verə bilmədik. Baldızım ordan ağler, balam getdi, balamı verin, deyib ağler, uşaq da gəmidə "ana" deyib ağler. Nə qədər gəmiçiyə, gəmi sürən o xaxol rusa başa saldıq, yalvardıq ki, qayıt uşağı verək anasına heç tükü də tərpənmədi. Hələ üstümüzə də qışqırdı ki, keçib yerimizdə oturaq. Vallah, zalımların əlində qalmışıq.

Balaca Fərəməz dayıdostusuna qulaq asdıqca təzədən ağlamağa başladı. Bibim də kövrəldi. Uşağı sinəsinə sıxıb təsəlli vermək istədi.

-Dünya dərəbərlik deyil ki...Çox keçməz gələb anan aparar səni, − dedi, − Ağlama.

− Anamı istəyirəm, xala, anamı! − Fərəməz ağlaya-ağlaya bibimin qucağına sığındı.

− Can bala, − Güleyşə xalanın gözləri doldu. Sonra:

− Eh, ay Mələk, nə deyim. Yolumuzu yaman bağladılar. Gediş-gəlişə, deyilənə görə, qadağa qoyulacaq. O sarıbaşlar Bəkiyə ayaqlarını qoyandan, Şura hökuməti qurulandan üzümüz gülmer. Kimdən şübhələnerlər tutub gedib-gəlməzə göndərerlər. Mənim qohumumun qaynatasını, qaynatasının qardaşlarını qolçomaq adıynan rusun Sibirinə sürgün eləmədilərmi. On beş ildi nə kağızları gəler, nə özlərindən bir xəbər var.

Bibimin halı özündə deyildi. Ürəyi yuxa olduğu üçün uşağa baxa-baxa gözünün yaşı yanağından süzülürdü. Mən də pis olmuşdum və fikirləşirdim ki, görən, Fərəməz anasını bir daha görəcəkmi.

* * *

Yağışlar başlamışdı, həyətimiz saralmış payız yarpaqları ilə dolu olardı. Hər gün həyət- baca süpürülsə də, yenə də səhərisi gün xəzəl həyəti bürüyərdi. Bibimin toyu elə payız günlərinin birində oldu. Toya bir gün qalmış axşam nənəm bibimə “Xına yaxdı” elədi. Adət idi. Gəlin aparılan günün axşamı gəlinin başına, əlinə ayağına xına qoyulardı, sonra toyu olan qız saldışı, solduşu ilə hamama gedərdilər.

Toy günündən bir gün əvvəl bibimin baldızı və bir neçə tanımadığım cavan qadınlar əllərində xonça, (xonçanın birinin içərisində xına vardı)

gəldilər. Anam xınanı götürüb islatdı. Bir az keçmədi ki, rəfiqələri bibimin başına yığışdılar.

Bibimə gətirilən qırmızı toy libası, qırmızı zərli başmaq, qırmızı baş duvağı, çiməndə belə bağlanan fitə, ətir, alt geyimlər, zərli corab, hamam dəsmalı, kisə və sabun xonçalarda açılmadan bizim yatdığımız otağa yığdılar. Sonra bibimin rəfiqələrindən diribaşı nənəmdən bir qazan alıb, qazanı üzü üstə çevirdi çalıb- oxumağa başladı.

Qızıl üzük laxladı,
Verdim nənəm saxladı,
Nənəmə qurban olum.
Yarı qonaq saxladı.

Qızlar əl çalıb oynayır və onun səsinə səs verirdilər:

Ağ dəvə düzdə qaldı,
Yükü Təbrizdə qaldı,
Oğlanı dərd apardı,
Dərmanı qızda qaldı.

Sonra hamısı bir ağızdan əl çala-çala bibimi dövrəyə aldılar:

Mübarək ay, mübarək,
Gəlin, xınan mübarək.

Xeyli çalıb oxuyandan sonra nənəmin ocağın üstə bişirdiyi döşəməli aş ortaya gəldi. Əl suyu veriləndən sonra hamının payı çəkildi. Aşı əlimizlə yeməyə başladıq. Bibimə baxıb sevinir, onun boynunu qucaqlayır, yersiz suallar verirdim. Bibim mənim danışmağıma gülərək yanağımı çimdikləyib üzümdən öpdü. Bibim:

− Bilmeyəm, Həlim, sənsiz o evdə neyləyəcəyəm? Darıxacağam, səninçün − dedi.

Süfrə yığışılandan sonra anam  islatdığı xınanı gətirib ortaya qoydu.

Sonra bibim mənə işarə elədi ki, xına kasasını  mən götürüm. Mən də əlimə alıb dövrələmə yerdə bardaş qurub oturan qızlara yaxınlaşdım. Növbəylə onlara uzatdım ki, barmaqlarını qaba  batırsınlar. Onlar da barmaqlarını xınaya batırıb: − – Allah mübarək eləsin, oğullu, uşaqlı olsunlar. Damadımızla qoşa qarısın.− deyib bibimə xeyir-dua verirdilər. Xına yaxması qurtarandan sonra bəyin bacısı xına nimçəsini  mən götürdüyüm üçün əvvəldən hazırladıqları xələti − zərli yaylıq və bir də mərcan boyunbağını xonçanın birinin içərisindən çıxartdı. Yaylığı başıma bağlayıb, boyunbağını boynuma salanda sevincimdən gözlərim  yaşardı.

Səhəri günü oğlan evindən  bir neçə fayton gəldi. Mələk bibimi zurna – balabanla apardılar. Faytonun biri düz qapımızın ağzında dayanmışdı. Bibimin üzü qırmızı duvaqla örtülmüşdü. Başdan ayağa kimi qırmızı, zərli paltarın, qiymətli, qaşı almazdan olan sırğasıyla üzüyün işartısı içində bibim günəş kimi parlayırdı. Əvvəlcə nənəm bibimə yaxınlaşıb,  duvağını qaldırıb xeyir-duasını verdi və kövrələ-kövrələ qızının üzündən öpdü. Sonra növbəylə evdəkilər, atamla əmim bibimin alnından öpdülər, öyüd-nəsihətlərini verdilər.

Nənəm əmilərimi yadına salıb kövrəldi.− Ay Bulut, ay Abdulla, hardasız? Gəlin bacınızı yola salen, – deyib ağladı.

Bibim də tutulub qalmışdı. Nənəmin bu çağırışından sonra o da doluxsundu. Sonra  gördüm ki, gözü məni axtarır. Bibim yavaşca məni yanına çağırdı. Mən qapının ağzında dayanıb bibimə tamaşa edirdim. Adamlari aralayıb ayaqlarım dolaşa-dolaşa bibimə yaxınlaşdım. Bibim məni bağrına basdı. Mən pıçıltıyla: − Bibi, − soruşdum, − Sən mənimçün darıxacaqsan?

– Əlbəttə darıxacam, Həlim. Elə darıxacam Sənsə darıxma, vallah, Bulud lələmin canı, gəleb görəcəyəm səni.

– Yaxşı, darıxmaram.

O vaxtlar adət deyildi bəyin toyunda gəlin tərəfinin adamları o toyda iştirak etsin. Gəlinin ancaq saldışı, solduşu və yengəsi gedərdi. Yengənin də əlində gəlinin bəxt güzgüsü.

Sonra Leyla xala balaca dəmir qabda yandırdığı üzərriklə içəri girib bu qəribə bitkinin iyini otağa yaya-yaya tüstüsünü bibimin başı üzərində fırlatdı. – Heç kəsin, gözü olanların gözü dəyməsin,– deyib bibimin üzündən öpdü– Mələyimiz elə bil su pərisidir, gözəldi.

Nənəm başını yırğalaya-yırğalaya dilləndi:– Özü gözəl olmasa da olar, qızım, bəxti gözəl olsun. Amin ya rəbbim!

–Amin!

* * *

Mələk bibim gəlin köçəndən sonra yatdığımız otaqda, bibimin xalça toxuduğu aşağı evdə, həyətdə gözüm onu axtarırdı. Bibim toxuduğu yun xalçasını toyuna yaxın qurtardığından qurduğu hana boş qalmışdı. Bibim üçün darıxır, özümə yer tapa bilmirdim. Nə yaxşı ki, anam vardı. Anamın da iş-gücdən başı açılmırdı.. Gah mal-heyvanı yerbəyer eləyir, gah da bayır-baca işlərini görürdü. Mən təzədən anamın böyründə dolaşmağa başladım.

* * *

İkiyə bölünən Azərbaycan torpağında güney quzeyin, quzey də güneyin, yəni o tay bu tayın, bu tay da o tayın həsrətini çəkməyə başladı. Gediş gəlişə qadağa qoyuldu. Araz boyu sərhədin hər iki tərəfində nəzarətçilər gücləndirildi. Bu qadağadan çaşbaş qalan, üzlərinə yolları

qapanan insanların əksər hissəsini yurd nisgili, qohum, qardaş həsrəti üzürdü. Zinyət nənəm də gecə-gündüz "Bulut" deyib ağlayırdı. Ərini görmək ümidiylə yaşayan Leyla əmidostumsa da artıq başa düşmüşdü ki, onu bir daha görməyəcək, qızı Səkinəni tək başına, atasız böyütməli olacaq. Atamsa öz halal pullarıyla aldığı əkin yerindən əli çıxdığı üçün fikirli-fikirli gəzir, özünə yer tapa bilmirdi.

Nənəm atamla dərdləşdiyi günlərin birində dedi ki, kaş, ay Əhməd, sən də çıxıb gəlməyəydin Şurəvidən, Bulut binəva tək qaldı orda. O tayda qalseydın iki qardaş bir-birinizə həyan olardınız. Biz çoxuq, qohum-əqraba hamısı burda... Sən də, Qumru binəvada mənim sağ əlimsiniz. Vallah Qumrunu, bəlkə, Mələkdən də çox istəyirəm. Amma, ay bala, Buluta halım yaner ey, yaner. − Nənəmin vaysına-vaysına dediyi bu sözlər atamı silkələdi. Bir dəfə oturub çay içdiyimiz yerdə atam nənəmə dedi ki, nənə, sənə sözüm var, mənə qulaq as, istəyirəm Qumrunu da, uşaqları da götürüb Şurəviyə keçim. Buluda xəbər göndərmişəm, onun cavabını gözləyirəm. Görüm nə deyer, desə gəl, gedəcəyəm.

Bir ay keçmədi ki, əmimdən xəbər gəldi. Bizim qüzeyə keçməyimizi istəyirdi. Bir gün atamın nənəmə, − Buluddan məktub almışam,− dediyini eşitdim. Mən bir küncə çəkilib atamla nənəmin söhbətinə qulaq asırdım: − Nə təhər gedəcəksən, ay oğul. Yollar bağlı döyülmü? − Nənəm naümid-naümid dilləndi.

− Keçiddən keçməyə qadağa qoyulub. Bulud bizi sərhəd kəndlərinin birində gözləyəcək. Tanış qayıqçı da var. O bizi gecə gəleb aparacağ.− Nənəmin rəngi qaçdı: −Bıy, ay bala, sən lap gerçəklədin ki. Mən nə bilem, Buluta yandığımdan deyirdim ki, tək qoymayaq qardaşını. Yaxşı, bəs siz getdüz, bir də qayıda biləcəksüz?

−O, Allahın işidir. Ya qismət, − Nənəm, bizim getməyimizlə razılaşsa da küncdə-bucaqda, həyətdə onu ağlayan görürdüm. Bir tərəfdən də atamın işsizliyi, bekar-bekar gəzməyi nənəmi üzürdü.

− Bala, ağlım kəsmer yollarin açılmağına. Allah o tumgöz Fərruxa nəhlət eləsin. Gül kimi torpağı əkerdiz, becərerdiz. Bulut da gələrdi...Gözüm yollardan yığılardı. Siz də getsəz dərdimin üstə bir dərd də artacağ. Neyneyem, nə təhər eləyem, qalmışam məəttəl.

Atamın təzədən bizi Şurəviyə aparmaq xəbərini eşidən anam donub qalmışdı. Nə yediyini bilirdi, nə də içdiyini. Atamla nənəmsə heç nə deyə bilmirdi. Böyüklərin üzünə ağ olmaq anama yad idi. Əgər onlar belə məsləhət bilirsə elə də olmalıdı. Getməyimizin yaxın vaxtlarının birində atam anama dedi ki, əlimizdə ancaq yüngül yük olmalıdı. Şurəviyə qayıqla keçməliyik. Elə ona görə də burda da İçərişəhərdəki evimizdəki kimi, öz əliylə sırıdığı yorğan-döşəyimizi, xalçamızı, qab-qaşığımızı qoyub gedəcəkdik.

* * *

Payızın axır günlərinin birində qaranlıq düşən kimi atam bizi arabaya mindirib Pətəxordan çıxartdı. Bibimlə, ana qohumlarımızla vidalaşa bilmədik. Mənsə bibimi görmək, onu qucaqlayıb öpmək istəyirdim. Ona demək istəyirdim ki, bibi, biz tezliklə qayıdacağıq, bizi gözlə. Kim bilir qayıdacaqdıqmı?

Arabaya minəndə nənəm ağlayır, gözünü atamdan, bizdən çəkə bilmirdi. Səməd əmim də kövrəlmişdi. Anamın üzü avazımışdı, o da nənəmlə qucaqlaşıb öpüşəndə özünü saxlaya bilməyib hönkürdü. İsti yuvamızdan yenə didərgin düşəcəkdik. Çarşabının altından anamın bədəni

tir-tir titrəyirdi. Yola çıxmamışdan bir gün qabaq quran açmışdı. Tərs kimi açdığı quran yenə də yaxşı gəlməmişdi.

Anam bizi qalın geyindirmişdi. Evdən ancaq əyin-başımızı, bir də nənəm yolumuza yolda ac qalmayaq deyə bişirdiyi soyutma yumurta, yağ, pendir, yağlı fətir qoymuşdu.

Heç kəs duyuq düşməsin deyə qonum-qonşuyla da sağollaşa bilmədik. Anam sızıldıya-sızıldaya dedi:− Heç kəslə halallaşmadıq. Məni də yolda ağlamaq tutdu. Mən ancaq bibimə görə ağlayırdım. Uşaq ağlımla hiss edirdim ki, bizim bir də bura- kəndimizə qayıtmağımız mümkün deyil. Zavallı anam təzə-təzə qohum-əqrəbasına qovuşmuşdu, elindən-obasından ayrılmaq istəmirdi.

Arabayla bir neçə saat yol getdik. Yollar daşlı-kəsəkli olduğu üçün arabanın içində atılıb düşürdük. Uzun yol bizi əldən salmışdı. Gecənin yarısı, dan yeri ağarmamış biz sərhəd kəndlərin birinə çatdıq. Hansı kənd idi, yadımda deyildi. Astara çayının qırağında üzünü tük basmış yaşlı bir kişi bizi gözləyirdi. Qayıqçı idi. Səhər açılmamış biz qayıqla o taya – Şurəviyə keçməliydik. Atam həyəcanlı idi, anam ağlayır, qorxudan tir-tir titrəyirdi. Nəzarətçi məntəqəsi uzaqda yerləşsə də işıq zolaqları hər yarım saatdan bir sərhəd zonasının üstündən keçirdi.

Biz qayığa oturduq. Atam anamın titrədiyini görüb qardaşımı ondan alaraq, qucağına götürdü ki, birdən anam həyəcandan huşunu itirər, uşağı qayıqdan suya salar. Qayıqçı tez-tez ətrafa baxır, suyun şappıltısı eşidilməsin deyə qayığı açtaca sürürdü. Mənim yuxum gəlsə də yata bilmirdim, atamla anamın üzündəki təlaşdan qorxuya düşüb anama sığınmışdım. Bir saatmı çəkdi, iki saatmı, dəqiq bilmirəm. Axır ki, çatdıq. Bulud əmim sahildə bizi gözləyirdi. Hələ ki, hər tərəf qaranlıq idi. Səhərin

açılmağına lap az qalmışdı ki, biz qayıqdan düşdük. Əmim atamla qucaqlaşıb görüşdü, sonra bizi − mənimlə qardaşımı bağrına basıb üzümüzdən öpdü. Anam çarşabının altından bağladığı sürməyi tirmə şalıyla yaşmaqlanıb əmimə: − Ağaqardaş, −dedi − Görürsən də başımıza nə gəldi. Yollarımızı da bağladılar. Bunun axırı nolacaq?

Əmim anama "Xoş gəldin" deyib təsəlli verdi: −Yaman günün ömrü az olar, bacı. Buna da çarə tapılar, − dedi.

Qayıqçı bizim sahildə yubandığımızı görüb əmimə:

− Bulud qardaş, hava açılır, uzaqlaşın buralardan, − deyib aradan çıxdı.

* * *

Həmin gündən biz aran yeri olan qəsəbənin birində məskunlaşdıq. Qəsəbənin mərkəzində qamışdan tikilmiş baraklar gəlmə adamların yolunu gözləyirdi. Bura nə qəsəbə kimi qəsəbə, nə kənd kimi kənd idi, susuzluqdan torpağı cadar-cadar olmuş, ağacsız, bozluqdan adamın gözü yorulan, yayı isti , qışı palçıqlı, üstü yastı-yapalaqlı evlərdən ibarət idi. Barakların bəzilərinin qapısı eyni səmtə açıldığından orda yaşayanlar həyətə çıxanda qapının ağzında qarışqa kimi qaynaşırdılar.

Əmimin direktoru olduğu zavodda qəsəbənin adamları köhnə qara-qura paltarlarını geyinib mazutlu əlləriylə bir-birinə sarılmış məftilləri açaraq qamışdan mat (həsir) toxuyurdular. Bu həsirləri neft çıxan şəhərlərə göndərirdilər ki, buruqları küləkdən qorusunlar.

Qəsəbədə malakanlar çox idi. Deyilənə görə, Nikolay vaxtı Rusiyadan sürgün olunanlardan idilər. Burda məskunlaşmış, Azərbaycanlılarla qaynayıb- qarışmışdılar. Bəzən elə olurdu ki, öz dillərini yadırğayaraq Azərbaycan dilində, sözlərin qolunu, qıçını sındıra-sındıra danışardılar.

Atam burda da özünə yer tapa bilmirdi, çünki qəsəbədə nə bulaq vardı, nə də kəndə su çəkilmişdi ki, əkin, biçinlə məşğul olsun. Sakinlər su deyib dad edərdilər. Əmim bizə tapşırmışdı ki, sərhəddən keçməyimizi heç kəsə deməyək. −Kim maraqlansa deyin şəhərdən gəlmişik. Qumru bacı onsuz da Bakı ləhcəsiylə danışır, −dedi.− İnşallah heç kəs duyuq düşməz.

Bir, iki həftə keçmədi ki, əmim atamı qəsəbəyə yaxın bir yerdə çayçıda işə düzəltdi. Torpağa, əkin-biçinə bağlı olan atam işi çətin olmasa da (özünə işçi də vermişdilər) çayçılığa alışa bilmirdi. Məni isə qəsəbənin uçuq-sökük məktəbinin ikinci sinfinə qoydular. Şəhərdə birinci sinifdə latın həflərini öyrəndiyim üçün mənim burda dərslərimi qavramağım çətin olmadı.

Qəsəbəni, onun müxtəlif yerlərdən gəlmə adamlarını idarə etmək əmim üçün çətin idi. Əmimin işi başından aşırdı. Bataqlıqdan qamışları qırmaqdan ötrü şəhərdən işçilərə uzunboğaz çəkmələr aldırmışdı. Onlar da hər gün çəkmələrini geyinərək qəsəbədən xeyli aralıda, bataqlıq olan yerdən qamış qırıb qəsəbənin “Azneft” deyilən mərkəzinə yığırdılar. Çörək pulu qazanmaq xətrinə qadınlar da bu işə qoşulmuşdu. Məftillərin mazutundan gündən qaralmış fəhlələrin üz-gözləri, əlləri, paltarları qapqara olardı.

Əmimin sakinlərə tikdirdiyi baraklar uzunsov, iki, üç otaqlı evlərdən ibarət idi. Yaxınlıqdan isə dəmir yolu keçirdi. Həmin dəmir yoldan qatarla çənlərdə haralarasa neft daşınırdı. Gündə bir dəfə günorta vaxtı sərnişin qatarı gəlirdi. Hər gün eyni vaxtda keçdiyi üçün saata baxmaq lazım deyildi. O dəqiqə bilirdik ki, saat neçədi. Çox keçmədi ki, buraya işləmək üçün uzaq kəndlərdən xeyli insanlar köçdü. Baraklarda yer olmadığından özləri palçıqdan kərpic kəsib ev tikirdilər. Qəsəbə get-gedə böyüməyə başladı.

Susuz qəsəbəni su ilə təmin etmək lazım idi. Əmim su sarıdan çox çalışdı. Uzaq ərazidən keçən kürdən su çəkmək baha başa gədiyi üçün bircə ona nail oldu ki, qatarla qəsəbəyə su gətizdirsin. Qatar fitini verə-verə qəsəbəyə girəndə qəsəbədə bir canlanma yaranırdı ki, gəl görəsən. Su çənlərini darta-darta gətirən paravozun səsini ilk eşidən həyət-bacada, küllükdə toyuq kimi eşələnən uşaqlar olurdu. Uşaqların səsi bu vaxt kəndi başına götürərdi.

–Qatol gəldi!

–Qatol, qatol gəldi!

–Ay camaat, qatol gəldi!

Qəsəbə əhli, xüsusən qadınlar əllərində vedrə, çiyinlərində səhəng dəmir yoluna axışardılar. Qatar iki, üç saatdan artıq kənddə qalmazdı. Suyun üstündə növbəsizlərlə növbəlilər arasında dava da düşər, elə vaxt olurdu ki, bir-birilərinə hücum da edərdilər. Qatar qəsəbədə çox qalmazdı. Camaatın yalvarışlarına baxmayaraq qatarın sürücüsü saatına baxıb fitini başına sala-sala qəsəbəni tərk edəndə su götürə bilməyənlər qatarın arxasınca baxıb məzlum-məzlum boş qablarla evlərinə dönərdilər. Mən də anamla su gətirməyə gedərdim. Mənim əlimdə balaca su qabı olardı. Anam səhəngə alışa bilmədiyi üçün əlinə vedrə götürərdi. Su çənlərinin qabağına o qədər adam yığılardı ki, biz elə kənardaca dayanıb baxardıq. İnsafən anamın vedrələrini əmimə görə tanıdığımız və tanımadığımız adamlardan biri alıb doldurar, bizi boş yola salmazdılar.

Əmim bizi yerləşdirmək üçün əvvəlcədən hazırlığını görərək qapısı,. pəncərəsi ayrıca hasara alınmış, böyük həyəti olan evi seçmişdir. Anam qapıları bir-birinin içinə girən baraklardan fərqli olaraq bizim qaldığımız barakın qapısı ayrıca həyətə açıldığı üçün sevinirdi. Çünki namaz

qılmamışdan əvvəl gündə çorablarını çıxarıb üç dəfə dəstəmaz alanda arxayın idi ki, çılpaq ayaqlarını heç kəs görmür. Dəstəmaz alandan sonra anam namaz qılar, dualarından sonra Pətəxordan gətirdiyi quranını qabağına qoyub oxuyar, təsbeh çevirib istixarələr edərdi. Anamın bu qərib yerdə başı namaza, quran oxumağa, ev işlərinə, biş-düşə qarışsa da gecələr doğmalarını, kəndini yadına salıb ağlayardı. Bircə qonşumuz Minəpüstə nənə anama təsəllü verərdi, çünki bizim hardan gəldiyimizi ancaq o bilirdi.

Minəpüstə kasıb, kimsəsiz, fağır bir qadın idi. Əmim onu ərzaqla – unla, şəkərlə, yağla təmin edərdi. Anam Minəpüstə xalaya tez alışdı. Elə bil nənəsinin, qaynanasının iyini ondan alardı. Minəpüstə xala da anama öz qızı kimi baxardı, eyni zamanda anamla birgə əmimin qulluğunda dayanar, onun qəsəbədə olanda palını-paltarını, köynəyini yuyar, xörəyini bişirərdi və tez-tez deyərdi: − Allah bizə bu Bulud oğlumu göydən göndərib. Peyğəmbər kimi adamdı. Nə qədər yetim-yesiri aclıqdan qurtardı, görüm onu “Neynim, nə təhər eləyim” deməsin.

Bir gün əmimdən danışanda üzünü anama tutub pıçıltıyla: − Ay Qumru, − dedi, − Buludun arvadıyla özünün arasında yerlə göy qədər fərq var, allah haqqı. Gəlinin görkəmi pis döyül ey, ancaq dili acıdır. Hərdən gətirir özüynən qəsəbəyə. Tez-tez dalaşır əriynən. Yaman hökümlü arvaddı. Çox vaxt da pulun üstə düşür davaları. Buludun ipək kimi xasiyyəti var. Dinir dava düşür, dinmir arvadı çıxıb başında oturur.

Anam Minəpüstə nənədən bu xəbəri eşidəndə quruyub qaldı, sonra özünə gəlib: − Nə arvad, ay Minəpüstə xala, onun arvadı var Ərdəbildə... Adı da Leyladı.

−Yox, ay qızım, şəhərdən gətirmişdi qaynın. Bir uşağı da var. Beş-altı aylıq oğlan uşağıdı.

−Adı nədi gəlinin? −Anam üzülmüş halda soruşdu.

−Vəsixanım.

−Vəsixanım? − Anam duruxdu, sonra öz-özünə: − Yazıq Leyla, − pıçıldadı, − Bədbəxt Leyla. − Sonra üzünü arvada tutub: − Nə deyim, xala. Ağaqardaşı axır ki, yoldan çıxartdı Vəsixanım. Allah xeyir versin. Görünür, Ağaqardaş utanıb, evlənməyini gizlədib bizdən. − Sən demə əmim Vəsixanımla evlənməyini atama deyibmiş. Anam bu xəbəri atama deyəndə atam da dedi ki, bilirəm. Sonra qüssəli-qüssəli anamın üzünə baxdı: − Neyləyə bilərik, Qumru, − dedi, − Bulud bir neçə dəfə Leyla gəlinbacını gətirmək istəyib yanına, alınmayıb. Bulud demirdi ki, külfətimi yığacam başıma. İndi də yollar bağlandı. Hələ bilinmir bu işlərin axırı nəylə qurtaracaq. Buludun bir oğlu da olub. Adını Əliyusif qoyub.

Anam başını yırğalayıb: − Mən nə deyə bilərəm. Allah bilən yaxşıdı. Adıynan qalsın. − Anam, deyəsən, sakitləşmişdi: − Bir tərəfdən də Ağaqardaşı qınamaq olmaz. Vallah, arvad-uşaqsız da keçinmək olmur bu qərib yerdə. −Anam durub dəstəmazını aldı. Günorta namazının vaxtı keçirdi. Atam köksünü ötürüb gözünü bir nöqtəyə dikdi. Vətənin bu tayına keçəndən üzü gülmürdü, tez-tez iki qaşının arası düyünlənərdi. Mənsə....Mən məktəbə getsəm də, başım dərslərə qarışsa da darıxıram. Ən çox da bibim üçün. Evdən gizlin çıxdığımıza görə onunla vidalaşa bilmədik. Görən, bizim kənddən çıxdığımızı, bu taya keçdiyimizi biləndə neyləyib. Bilirəm, bibim sarsılıb ağlayacaq, uzun müddət özünə gələ bilməyəcək. Axı o bizə bağlı idi. Dayılarından atamı daha çox istəyirdi. Biz Pətəxora gedən gündən məni yanında yatızdırar, əlinə nə düşürdüsə mənə yedizdirər, hara gedirsə məni də özüylə apardı. İndi üzümüzə bağlı qalan yollar bir də açılacaqdımı? Bir də bibimi görəcəkdimmi?

Gecə-gündüz ağlayıb sızlayan anam ümidini allaha bağlamışdı. Namazdan sonra əllərini yuxarı qaldırıb dua edər, yollarımızı bağlayanları rəhmdil olmağa çağırardı. Anamın belə üzgün vaxtlarında Minəpüstə nənə ona təsəlli verirdi.

–Ay qızım, allah böyükdür. Hər şeyi yoluna qoyan allah bu işlərə də bir əncam çəkər.

Anam başını bulaya-bulaya Minəpüstə nənənin sözünü kəsərdi.

–Ay Minəpüstə xala, sən axı hardan bileysən yurd həsrəti nə deməkdi. Bura da vətənimdi, ancaq insana doğulduğu yer daha şirin görüner. Mən orda nənəmi dayılarımı, istəkli qaynanamı qoyub gəlmişəm. On üç yaşımdan mən ər evindiyəm, ağlım kəsəndən oları görmüşəm, sora yurdum, sənə deyim mələk kimi baldızım, qayınlarım qaleb orda. Mənim bağrım çatlar da, hamısı da mənim xətrimi istəyərdilər. Burda bircə qohumum Ağaqardaşdı. Gəlin gələndən ona "Ağaqardaş" demişəm. Ağaqardaşın da üzünü az-az görürük. Bir ayağı burdadı, o biri ayağı da şəhərdə.

***

Əmim şəhərlə kənd arasında qalmışdı. Bir dəfə şəhərdən gələndə özüylə Vəsixanımı da gətirdi. Vəsixanım xala maşından düşəndə anamla Minəpüstə xala ony qarşılamağa çıxdılar. Hamıyla görüşüb öpüşən əmim arvadının ədalı görnüşü o dəqiqə hiss olunurdu. Anama qıyqacı baxıb uşağı mənə verdi. Bilirdi ki, əmimin onunla evlənməyinə anam razı deyil. Biz şəhərdə yaşayanda anamın Leyla xala dilindən düşmürdü. Mən əmim oğlunu sinəmə sıxıb öpdüm. Gombul, ağappaq, qara göz bir uşaq idi. Əmim oğlu ürəyimə o saat yatdı. Anam da uşağı öpüb Vəsixanımı evə dəvət elədi.

Həmin gündən sonra bir aydan, iki aydan bir Vəsixanım xala qəsəbəyə gələrdi. Özünü evdə qonaq kimi aparar, əlini ağdan qaraya vurmaz,

xörəyini, işini - gücünü Minəpüstə nənəyə gördürərdi. Bəzən bizim evdə də qalardı. Bilirdi ki, qulluğunda duranlar var. Evimizdə yorğan-döşək az idi . Anamın cehizinin çoxu Pətəxorda, bir qismi də İçərişəhərdəki evimizdə qalmışdı. Ən çox sevdiyi, vaxtilə bibimlə toxuduğu göllü xalça da. Anam utanırdı xalçanı  Vəsixanımdan istəyə. Hərdən xalçası yadına düşəndə: − Heç vaxt o xalçanı dilimə gətirmərəm. Ağaqardaşdan utanıram, − deyərdi.

Vəsixanım xala bizim evdə hamıya, hətta qonşularımıza da yuxarıdan aşağı baxırdı. Bir, iki dəfə qonşu qadınlardan birinə eşitdirmişdi ki, müdir arvadının qabağında gərək qulluqçu işləsin. Bulud əmim nə qədər sadə, əlaçıq, rəhimdilsə, Vəsixanım bir o qədər təkəbbürlü, simic, qəddar idi, sözbazlığı da vardı. Kənd qadınlarının geyimini, danışığını məsxərəyə qoyub gülərdi. Anamın  quran oxumağına, namaz qılmağına rişxənd edərdi. Özü isə bir dəfə də olsun nə namaz, nə də oruc tutardı.

− Bu köhnəliyin qalığıdır,− deyərdi. − Görmürsüz hökumətimiz məscidləri uçurdur, sənsə, ay Qumru, vaxtını boş şeylərə sərf etmə. Yığışdır canamazını, möhürünü. − Anam əqidəsinə sadiq idi. Namazının vaxtını bir dəfə də olsun keçirməmişdi, isti yay günlərində dodaqları susuzluqdan çatlasa da orucunu tutardı. Ona görə də qaynı arvadının sözünə: −Tanrının hökumətimizə yazığı gəlsin, Vəsixanım, − deyərdi,  − Allah onları doğru yola qaytarsın, azmışların yoluna yox. Kaş o günü görəydim. O sökdükləri məscidləri təzədən tikeydilər. Qonşularımız, hətta rus, malakan qadınları anamın xətrini istəyərdilər. Barakların birində valideynləri Azərbaycana sürgün olunan və onların vəfatından sonra tək yaşayan Frosiya adlı qoca arvad da vardı. Heç vaxt ailə qurmayan bu qadına mən və həyətin uşaqları "Babuşqa" deyə müraciət edərdik. Babuşqa kəndin qızlarına, arvadlarına paltar tikməklə dolanardı. Boş vaxtlarında dua edər, xaç çevirər, köhnə

vərəqləri saralmış "İncil" kitabını açıb oxuyardı. Heç kəslə qaynayıb qarışmasa da getdiyi ev bircə bizim ev idi. Anam bayramlarda, əziz gündə bişirdiyi xörəklərdən babuşkanın da payını ayırardı. Həmişə də onun payını mən aparardım. O da məni boş yola salmazdı. Doğulduğu Krasnodarın hansı kəndindənsə qohumlarının ona göndərdikləri alma, ərik, gavalı qurusunu nimçəmə tökərdi. − Sən yaxşı qız, Halima. Mən sənə çox istər, − deyərdi. İsti havalarda küçə qapımızı açıb həyətimizə gələrdi, atamın taxtadan düzəltdiyi mizin üstünə "İncil" kitabını qoyub anamı səsləyərdi.− Kumru bacı, gəl sani də otur. Bura sarındı. Kuran kitab da gətir. − Anam əlində yağı daşsa da Quranın adını eşidən kimi sevinə-sevinə daima hara getsə özüylə gəzdirdiyi "Quran" ını gətirib babuşqanın yanında oturardı. Hərəsi özlərinin sitayiş etdikləri müqəddəs kitablarını oxuyardılar. Çox vaxt da dinləri, əqidələri, millətləri ayrı olan anamla Firosiya xala – babuşqa kitablarındakı ibrətli kəlamları bir-birilərinə danışardılar..

Vəsixanım xala bir-birilərilə mehriban dolanan qonşuların arasını vurmağın şakəri idi. Anamın İçərişəhərdə olduğu kimi, burda da qonşu qadınlarla mehriban dolanmağını və onların anama olan hörmətini, istəklərini görəndə halbahal olardı. Bir də görürdün qadınlardan birini salıb çənəsinin altına. Uzaqda dayansam da onun anam haqda dediyi sözlər qulağıma çatardı.

−Az, − deyərdi.− Bunun üzüvüzə xoş baxmağıynan döyül ey. Quran oxumağnan, namaz qılmağnan gözə kül üfürür. O dəfə görürəm, az çay içib getdüz ha stəkanlarınızı götürüb sürt ki, sürtəsən. Deyirəm, ay Qumru, yavaş elə, əlində sınar, qan aparar barmağını. Deyir, neynim birdən xəstə-zad olarlar keçər bizə. − Bu sözlərdən allanan qonşularımız: − Aa... xəstə nəyşə oluruq. Bu da təzə çıxdı. Vəsixanımın anam haqda dediyi bu

sözlərdən sonra anamın qonşu rəfiqələri ayaqlarını bir müddət bizdən kəssələr də sonradan başa düşərdilər ki, bu sözləri Vəsixanım qərəzçiliklə deyir. Qaynı arvadını gözdən salmaqdan ötrü.

Vəsixanım xalanın hər dəfə qəsəbəyə gəlib getməyi qonşuların bir-birilə dalaşmağı ilə bitərdi. Biri deyirdi ki, sən mənim arxamca bu sözü demisən, o biri deyirdi sənsə belə demisən. Anam qonşuları güclə sakitləşdirər, Qurandan misallar gətirərdi. Həm də türkəsayalığı köməyinə çatardı. Özü də bilmədən kim kimin haqqında nə demişdisə elə onların yanındaca tökürdü ortalığa və məlum olurdu ki, bir-biriləri haqda deyilən söz-söhbət heç olmayıb, yalandı.

Vəsixanım xala əmimim həlim, yumşaq xasiyyətindən istifarə edib istədiyini edərdi. Əmim onun pul, paltar üstə deyinməyinə dözməyib gününü işdə keçirərdi. Bizə gələndə isə ürəyini anama açar, Vəsixanımın şıltaqlığından, heç nədən evə söz-söhbət salmağından şikayətlənərdi: − Ay Qumru bacı, bilmirəm bu nankor məndən nə istəyir. Şəhərdə də, burda da isti xörəyə həsrətəm. Sağ olsun Minəpüstə arvad, sən elə özün yenə çayımı, çörəyimi hazırlayırsız. Nə qədər evin içində dığ-dığ olar. Zalımın qızının hər şeyi var, çörəyi, palı-paltarı. Evə nə lazımdır alıram. Elə deyir azdı. − Əmim nədənsə anamdan utanırmış kimi başını aşağı salar, sonra ah çəkərək öz-özünə pıçıldayardı.

−Yazıq Leylanın qədrini bilmədim. Axır-axırda könlü vardı mənimlə gəlsin. Onda da mən yubatdım. Sora da yollarımızı bağladılar. − Əmimi bu qədər aciz, ümidsiz görməmişdim. Anam əmimə təsəlli verməkdən savayı söz tapmırdı: − Ağaqardaş, − Anam yaşmağının altından asta-asta dillənərdi: − Vəsixanım, vallah pis gəlin deyel ey. O da neyləsin. Görünür bir az hövsələsizdi. İlk bəxti də gətirməyib. Amma ayağı düşərli oldu.

Gördün, buz parçası kimi bir oğul verdi sənə, Allah onu bizə çox görməsin. − Əmim təzə-təzə qığıldayıb gülən, atasını görəndə üstünə atlanan balaca Əlyusifi yadına salıb gülümsədi: − Nə deyim, vallah, bəlkə də düz deyirsən.

Hamını, hətta yeri gələndə bizi də əmimin gözündən salmağa çalışan Vəsixanımı təriflədiyinə görə anam gözümdə böyüyür, axı anamın qəlbi kin- küdurətdən uzaq idi.

***

Qəribçilik, Cənubda qalan ana, ata, bacı, qardaş həsrətinin ağrısı azmış kimi ailəmiz dəhşətli bir faciəyə düçar oldu. Atamı İran casusu kimi həbs etdilər. Onun sərhədi gizli yolla keçməyini kimsə bilmiş və lazımı yerə xəbər vermişdi. Həmin il repressiyanın tuthatut vaxtı idi. Heç nədən ən təmiz, namuslu adamları məhkəməsiz güllələyir, ya da Rusiyanın soyuq gedər-gəlməz yerlərinə,− Sibirə sürgün edilirdilər. Atamı evdən aparanda qış öz sərt günlərini yaşayırdı. Anam sobaya kərmə yığıb yandırmışdı və evimiz təzəcə qızmağa başlayırdı. Mən hesab dəftərimi açıb misallarımı həll edirdim. Hava tez qaraldığından atam çayçıda müştərilərini yola salıb evə gəlmişdi. Axşam şamını edib dil-dil ötən qardaşımı qucağında oturdaraq danışdırıb gülürdü. Anam mətbəxi əvəz edən dəhlizdə şam yeməyindən sonra qab-qaşıq yuyurdu. Həyətdə maşın səsini eşidib yaşmaqlandı və qapını açıb həyətə sarı boylandı. Gələnlər üç nəfər idi. Dəvət gözləmədən evə təpindilər. Atamı qucağında uşaq bardaş qurub oturduğunu görəndə: -Əhməd Süleymanzadə sənsən? − soruşdu.

− Bəli, Süleymanzadə mənəm. – Atam uşağı yerə qoyub ayağa qalxdı.

− Yığışın! Bizimlə getməlisiniz! − Kişilərdən uzun boylusu gözü çəp, arıq, sısqa kişiyə üzünü tutub:

− Axtarışa başlayın! − deyə əmr etdi. Qəsəbə adamlarına oxşamırdılar, deyəsən, rayon mərkəzindən gəlmişdilər. Yorğan-döşəkdən, rəfə düzülmüş üç, dörd qab-qaşıqdan başqa evdə nəyimiz vardı ki. Anam sənədləri üstünə yük yığdığı sandıqda gizlədərdi. Yorğan-döşəyi yerə töküb sandığın qapağını açdılar. Atamın farsca yazılmış doğum şəhadətnaməsi, pasportu da ordaydı.

Gözü çəp kişi atamın sənədlərini əlinə alıb gözdən keçirdə-keçirdə uzun boylu kişiyə verdi. Kişi sənədin ora-burasına göz gəzdirib: − İran cəsusu...Çoxdan işləyirsən oraynan? − Boynunu Cənuba tərəf döndərdi. Atamın heyrətdən gözləri böyüdü.

− Qardaş, nə cəsus?

− Kəs səsini, alçaq. Sərhədi keçməyinlə qayıtmağın çox az çəkdi. Gizli yollara əl atırsan, hələ dilin da var danışırsan. Kişilərlə gələnlərdən biri cavan idi. Gözünə eynək taxmışdı. Gah mənə, gah da gözlərini döyə-döyə, onlara baxıb ağlamaq istəyən qardaşıma nəzər salıb köksünü ötürdü. Sonra yavaşca anama:− Yoldaşınıza isti pal-paltar qoy, – dedi, − lazım olar. O yerlərdə qış sərt keçir.

− Hara, ay qardaş, hara aparırsız yoldaşımı? − Anam ağlaya-ağlaya atama, sonra gələnlərə baxdı.

Atamın rəngi qaçmışdı. Geyinə-geyinə gah mənə, gah da qardaşıma baxdı. Mən də atama baxıb ağlayırdım. Atam geyinəndən sonra qardaşımı qucağına alıb sinəsinə sıxdı, məni də qucaqlayıb öpdü. Mən hıçqıra-hıçqıra yad, çağırılmamış kişilərə qoşulub getməyə hazırlaşan atamın dizlərindən yapışdım.

− Getmə, dədə, bizi qoyub getmə! – Atam mənə, sonra anama tərəf baxıb: –Uşaqları sənə tapşırıram, Qumru,− dedi. − Səni də Allaha, ancaq

ağlama. − Anama sarı əyilib pıçıltıyla: − Buluda xəbər göndər bu tərəflərə gəlməsin.- Sonra əlimdən yapışdı, başıma sığal çəkib: − Sən mənim ağıllı qızımsan, Həlimə,− dedi,− fikir eləməyin. Anandan muğayat ol. Yaxşımı, qızım. Ağlamayın.

Atamı apardılar. Anam heysiz-heysiz yerə çökdü. Qardaşımı qucaqlayıb hönkürə-hönkürə ağlamağa başladı. Mən də anama sığınmışdım.− Ağlama, mömə, −dedim,− Əmimə deyərik gəlib dədəmi qurtarar.

Anam hönkürtüsünü kəsib: − Yox, yox, ay bala, − deyə fəryad etdi, − Ağaqardaş buralarda görünsə onu da apararlar. Bilmirəm, kimdən xəbər göndərim ki, gəlməsin bu tərəflərə.

* * *

Atamın həbsindən sonra əmim bir müddət qəsəbədə görünmədi. Anamın qorxusu lap artdı. Elə bildik ki, əmimi də həbs ediblər. Anam gecə-gündüz dua edir, Allaha yalvarırdı ki, atamla əmimə heç bir şey olmasın. Atasızlıq, əmimin yoxluğu bizi üzürdü. Bur tərəfdən də bizə qəsəbədəkilərin münasibəti dəyişməyə başladı. Xüsusən müəllimlərimin. Rus dili müəlliməmlə kimya müəllimim heç nədən üstümə qışqırırdılar. Əmimin də qəsəbədə görünməməyi onların əlinə əsas verirdi ki, doğrudan da atamın təqsiri böyükdü. Mən sinifə girəndə uşaqlar mənə baxıb pıçıldaşırdılar. Bir dəfə sinif yoldaşım Narıngül qulağıma pıçıldadı:

− Düz deyillər sənin atan şipyondu?− soruşdu.

− Nədi? − Təəccüblə soruşdum.

− Nə bilim, elə deyillər dayna. Heç mən də bilmirəm nədisə rus sözüdü.

“Şipyon” sözünü başa düşməsəm də bildim ki, bu yaxşı söz deyil. Anama heç nə demədim. Bircə ümid yerimiz əmim idi. Əmim gəlib

çıxsaydı. Onsuz da anamı dərd üzürdü. Heyi yox idi ki, durub işdən-gücdən yapışsın, qardaşımın qayğısına qalsın. Anam günü-gündən arıqlayırdı. Mən anama təsəlli verir, başını qatmaq üçün oxuduğum nağıllardan, hekayələrdən ona danışırdım. Axı anam ancaq əski əlifbanı bilirdi. Oxuduğu da bircə Quran idi.

Maddi vəziyyətimiz get-gedə çətinləşirdi. Atamın aldığı ərzaq qurtarmaq üzrəydi. Anam un kisəsinin dibində qalan unun axırını bişirmişdi ki, əmimin adından bizə pul göndərildi. O pul bizim karımıza gəldi. Dükandan un, yağ, qənd və evə lazım olan şeyləri aldıq.

Gecələr tez-tez yuxuda atamı görürdüm. Görürdüm ki, gecənin yarısı gəlib pəncərədən bizə baxır. Pəncərəyə yaxınlaşıram: − Dədə, içəri gəl. Qapı açıqdı.- Atam mənə baxıb gülümsəyir və birdən harasa qeyb olur. İki aydan çox idi ki, atamı aparmışdılar və birdən əmim gəlib çıxdı. Anam əmimi görəndə göz yaşlarını saxlaya bilməyib sevindiyindən ağladı. Ağaqardaş, − dedi, − Əhmədi apardılar. Evimiz yıxılıb. − Əmimin ilk dəfə idi ki, gözlərinin yaşardığını gördüm.

− Bilirəm, Qumru, sakitləş, bacı. − Əmim mənimlə qardaşımı sinəsinə sıxıb üzümüzdən öpdü. Əmimin gəlişi möcüzə idi. Çoxdandi bizimlə birgə bütün qəsəbədəkilər də əmimdən əlini üzmüşdülər. Mən də ağlaya-ağlaya əmimin əlindən tutdum: − Dədəmi hara apardılar, əmi? Ona neyləyiblər? − Soruşdum.

Əmim gah mənə, gah da şalını başına çəkib utandığından ağlamağını içinə çəkən anama baxdı.

− Əhmədi qurtara bilmədik. Bayıl həbsxanasına salmışdılar. İki həftədir ki, Sibirə sürgün etdilər. Mənim də şəhərdən çıxmağıma icazə vermirdilər. Elə ona görə də gəlib sizi görə bilmirdim.

− Sürgün? − Daha utanmaqdan keçmişdi. Anam ucadan hönkürdü.

− Ağaqardaş, o soyuqda Əhməd binəva neyləyəcək? − Sonra öz-özünə: − Bu nə zülümdü biz çəkirik, ay tanrı! −deyib hıçqırdı.

Əmim anamı sakitləşdirməyə çalışdı:

− Olacağa çarə yoxdur. Ola bilsin, bacı, məhbusların yarısını Kirov vilayətində düşürtsünlər. Onları qatara mindirəndə eşitdim. Yenə də o yerlər Sibirdən yaxındır. Əmim əlləri ilə başını tutdu. Hündür boylu, enli kürəkli əmim bu iki ayın içərisində arıqlamışdı. -Məni də çağırmışdılar HKBD-yə, sorğu-suala çəkib  buraxdılar. Get, işlə, - dedilər, − Səninlə işimiz yoxdu. Sən bizə lazımsan. Məni danışdıran rəhimdil insana oxşayırdı. Nəyə görəsə mənə toxunmadılar. Bu da Allahın işidir.

Anam dərdli-dərdli başını aşağı salıb susurdu. Mən də “Sürgün” sözünün dərinliyini dərk etmədiyimdən sevinirdim. Deməl, atam sağdır, ona heç nə etməyiblər.

Əmim bizə ərzaq gətirmişdi. Sürücüsünə qəndı, yağı, kartofu evə daşıtdırıb idarəyə tələsdi: – Gedim  işçilərimin də ərzaqlarını paylayım, məvaciblərini verim. Axşam şəhərə qayıtmalıyam, − dedi,− Günorta naharına da qalmayıb bizimlə sağollaşdı.

Bulud əmimin qəsəbəyə qəfildən gəlməyinə və iki ay idi ki, qapısı bağlı qalmış idarəsində görünməyinə qəsəbədəkilər məəttəl qalsalar da, həm də sevinirdilər. Çünki əmimdən heç vaxt pislik görməmişdilər. İşçilərin bütün qayğılarını əmim çəkərdi. Əvvəlcə onlar elə fikirləşirdilər ki, atamı həbs ediblərsə, mütləq, Bulud əmimi  də həbs gözləyir. Əmimin gəlişindən sonra qonum-qonşunun təzədən bizə münasibəti dəyişdi.  Əmim hər dəfə şəhərdən gələndə Minəpüstə nənənin evində gecələsə də, bizə baş çəkər, çox vaxt günorta naharını bizimlə edib idarəyə gedərdi. Əmim mənimlə

qardaşıma atamızı əvəz edirdi. Atamızın iyini ondan gələn məktublardan və əmimdən alardıq. Anam atamın üç- dörd cümləlik məktublarını mənə oxudardı. Bizim təsəllimiz ancaq bu məktublar idi. Sevinirdik ki, bu qısa məktubları atam göndərir. Demək, atam sağdı və nə vaxtsa qayıdacaq.

* * *

İllər gəlib keçirdi. Mən məktəbdə oxuyur, sinifdən sinfə keçirdim. Bu illərin içərisində İkinci dünya müharibəsinin acı səhifələri də vardı. Alman faşizmi dünyaya hökmranlıq etmək arzusu ilə on dörd respublikanı öz əsarətində saxlayan Rus imperiyası ilə müharibəyə başladı. İtkilərimiz çox oldu. Müharibə ərəfəsində elə bir qıtlıq, aclıq baş verdi ki, insanlar az qalırdı bir –birilərinin ətini yesinlər. Allah elə bil bəşər övladlarını çörəyə görə imtahana çəkmişdi. Qəsəbənin camaatı ümidini göydə Allaha, yerdəsə Bulud əmimə bağlamışdılar. Həmin illər əmim qəsəbənin adamlarını − uşaqdan tutmuş böyüyünə kimi ətrafına toplayıb aclıqdan, xəstəlikdən qurtardı. İş qüvvəsi olmayan əlillərin də adını işçi kimi dəftərə saldı, onları da ərzaqla təmin etdi, gecə-gündüz qamış yığıb, məftil açan, neft buruqlarını küləkdən qorunması və cəbhədə vuruşan əsgərlərə sığınacaq tikilməsi üçün həmin qamışlardan həsir (yerli adamlar "mat" da deyərdilər) toxuyan insanlarla bərabər qocaların, şikəstlərin, çox uşaqlı yoxsul ailələrin qayğısına qaldı. Hətta əmim anamın xasiyyətinə bələd olduğu üçün bizə ayırdığı ərzaq məhsulunu bol-bol gətirərdi, bilirdi ki, anam ərzaqların – unun, yarmanın yarısını qapımızın qabağında əmimdən utandıqları üçün onun getməyini gözləyən, yetim, kimsəsiz uşaqlara paylayacaq:

− Apar, bala, – deyəcək. – Apar ver anana çörək bişirsin, yeyin.

Uşaqları yola salandan sonra anamın üzündəki sevinci görməmək mümkün deyildi. Anam öz-özünə pıçıldayardı:

− Ay Allah, biz verdik doydurduq, sən özün yetir. − Anam başını Quran oxumaqla, namaz qılmaqla qatardı. Namazını qılandan sonra duaya oturardı. Ən çox duasını müharibəyə gedən əsgərlərin sağ-salamat qayıtmasına görə edərdi. Quranı içəri otağımızın qapısını bağlayıb heç kəs eşitməsin deyə asta-asta oxuyardı. Bəzən qonşularımıza qurandakı ayələri tərcümə edərdi. Aşura günü anamı hər gün ağlayan  görərdim. Mütləq imamların adlarını çəkib halva çalardı. Həyətimizin uşaqlarını küçədə oynadıqları yerdə evimizə yığıb halvadan lavaşın arasına qoyar, dürmək tutar, onları yedizdirərdi. Özü imamın qırxı çıxana kimi qara paltar geyəndə mənə də qara parçadan don tikdirib əynimə keçirdərdi. − Qoy dədən sağ-salamat gəlsin, hər il ehsan verəcəm. Nəzir demişəm məhərrəm ayında ər evinə gəlin köçənə kimi qara geyindirəcəyəm sənə, qara paltar tikdirəcəyəm sənə. O Firosiya arvad, o mənim bacılığım tikəcək sənə paltar. Demişəm ona, sonrası öz işindir. O mənlik döyül, bala, ərə gedəndən sonra birdən ağan icazə verməz (yəni mənim gələcək ərim) sənin qara geyinməyinə. Allah eləməmiş günaha bataram. Mən anamın sözündən çıxmayıb onun dediklərinə əməl edirəm,  heç kəs görməsin deyə qapımızı içəridən bağlayıb anamla namaz da qılıram. Mənim namaz qılmağımı anamdan  başqa  heç kəs bilmir. Mənim namaz qılmağımı anamdan başqa heş kəs bilmirdi. Qorxuram bilsələr məni məktəbdən xaric edərlər. Məhərrəm ayında geydiyim qara paltarla məktəbə gedirəm, allı-güllü parçadan tuman- köynək geyən kənd qızları mənim ağ yaxalıqlı qara donuma təəccüblə baxardılar. Frosiya xala ağ yaxalığı yaraşıq üçün özündən quraşdırmışdı. Dərsə həvəslə gedirdim. İlk dəfə Bulud əmimin zəhməti hesabına kənddəki yeddillik natamam orta məktəb tam orta məktəblə əvəz olundu. Pətəxorda Quranı oxumaq üçün əski əlifbanı  keçirdimsə, artıq burda latın əlifbası ilə

ədəbiyyat, hesab, kimya, fizika və sairə dərslərini öyrənirdim. Hesab dərsinə böyük marağım vardı. Əmim mənim əlimdən hesab kitabımın düşmədiyini görüb: − Həlimə, qızım, –deyirdi. − Görürəm bu fənnə marağın böyükdür. Məsələ-misalları sərbəst edirsən, inşallah oxumağını davam etdirərsən. – Əmim, mənim əziz əmim atamın yanımızda yoxluğunu bizə hiss etdirməməyə çalışır. Mənim oxumağımı istəyir. İstəyirdi ki, məni özü ilə şəhərə aparsın. Orda institutların birinə daxil olum. Ancaq mənim şəhərə getmək məsələm ortaya çıxanda arvadı Vəsixanım xala gəlib dururdu. Gözünün qabağında. Bilirdi ki, mən şəhərə getsəm və onlarda qalsam Vəsixanım xala məni yola verməyəcək. Təklikdən qorxan anam da mənim şəhərə oxumağa getməyimi istəmirdi, ancaq xətrini istədiyi, özünə, ailəmizə böyüklük edən əmimdən keçə bilmirdi. Susurdu. Mən qəti qərarımı verdim: − Əmi, – dedim, – Dədəm sürgündən qayıtmamış mən heç yerə getməyəcəyəm. Mömən də təkdi.− Əmim mənimlə razılaşdı. O saat hiss etdim ki, bu Vəsixanıma görədir:

− Neynək, qızım, sən deyən olsun. Bir-iki il də gözləyək. O vaxta qədər Əhməd də sağ-salamat gəlib çıxar.

Anam səsi titrəyə-titrəyə sevinclə: −Allah ağzından eşitsin, Ağaqardaş, − dedi. − Mən də burda yalqızam. Qohum yox, əqrəba yox. Həlimə düz deyir.

* * *

Artıq orta məktəbi bitirmişəm. Atamın qayıtmağına hələ xeyli var. Buna baxmayaraq gecələr anamla mənim gözlərimiz qapıda qalır. Oxumağın daşını atmışam. Bir gün riyaziyyatdan mənə dərs deyən Qərib müəllim yolunu bizə saldı. Anama riyaziyyat fənnini yaxşı bildiyimdən danışdı. − Qumru xanım, Həliməni saxlamayın yanınızda, oxudun, − dedi.

− Bu qızdan yaxşı riyaziyyatçı çıxar. Qızın arzularını məhv etməyin. − Mənsə öz qəti fikrimi bildirdim: − Anamlıq döyül, Qərib müəllim. Mən atamı gözləyəcəyəm,− dedim.

Atamı gözləyə-gözləyə məktəbin kitabxanasının kitablarını oxuyuram. Hərdən əmim də mənə şəhərdən kitablar alıb gətirirdi. Səkkiz ildi atamın getdiyindən. Onu görəcəyəmmi. Artıq on yeddi yaşın içindəyəm. Deyilənə görə (qulağım tez-tez çalır) qəsəbənin ən gözəl qızı sayılıram. Anam hərdən zəndlə üzümə baxıb bibimi xatırlayır, kövrəlir: −Sənə baxanda, − deyir, − Mələk bibin gəlib durur gözümün qabağında.− Ancaq mən gözəllik hayında deyiləm. Ailəmizin qəribçiliyi, atamın sürgün olunması, anamın həm atam üçün, həm də yolları bağlı qalan doğmaları üçün axıtdığı göz yaşları məni üzür. Yerli qəsəbə sakinlərinin əksəriyyətinin rəngi qaradı. Günün altında isə dəriləri lap qaralıb kömürə dönür. Anam ağbənizdir. Ancaq ağır həyat şəraiti, dərd rəngini soldurub. Yanağındakı qızartı biz cənubdan kecib burda, bu barakda yaşayandan solub. Qəsəbəyə yeni gələn və bizi tanımayanlar o dəqiqə soruşurlar ki, biz bu yerin adamlarıyıq, yoxsa gəlməyik. Hardan gəldiyimizi əvvəllər gizlətsək də, atamın həbsindən sonra daha gizlətmirik. Onsuz da bizə dəyən dəymişdi.

Mən qardaşımın dərslərinə, anama ev işlərində kömək edir, həm də qardaşımı qəsəbənin qurtaracağında yerləşən uçuq-sökük məktəbimizə aparıb gətirərdim. Atam gələn kimi biz şəhərə köçməliydik. Əmimin deməyinə görə ona təzə binaların birində ev verəcəkdilər. İçəri şəhərdəki evimizdəsə biz yaşamalıydıq.

Qəsəbə get-gedə böyüyürdü. Gəlmələr ev tikib burda məskunlaşırdılar. Bulud əmimin bir ayağı şəhərdə qalsa da qəsəbəyə tez-tez gələr, sakinlərin müraciətlərini, qəsəbənin kəm-kəsirlərini həll edərdi . Əmim tez bir

zamanda qəsəbəyə su çəkdirdi. O günü borulardan axan suyu görəndə camaatın üzündəki ifadəni, sevincdən axan göz yaşlarını hələ də unuda bilmirəm. Kəndə daha qatarla su gətirilməsi yığışdırıldı. Görünür, indi qatar yönünü başqa istiqamətə – su olmayan yerlərə döndərmişdi. Bizim qəsəbənin uşaqları isə bundan sonra su çənlərini darta-darta arxasınca sürüyən parovozun fitini eşidib: “Qatol gəldi! Ay camaat, qatol gəldi!”, – deyib qışqırmayacaqdılar.

Əmim köhnə, bir tərəfi əyilmiş, uçmaq təhlükəsində olan məktəbi sökdürüb, yenisini tikdirdi. Yollara asfalt döşətdirdi. Qəsəbəyə su çəkiləndən sonra yayın cırhacırında kölgəlik, sərinlik axtaran insanlar torpaqla əlləşir, ağac əkir, bostanlıq salırdılar.

Əmimlə biz atamın yolunu səbirsizliklə gözləyirdik. Atam gəlib çıxmırdı ki, çıxmırdı. Əmim həyətimizə də su çəkdirmişdi. Atam gəlsəydi öz sevimli peşəsini –torpağa bağlılığını davam etdirərdi. Həyətimız böyük idi. Bilirdim ki, atamın əli torpağa dəysə həyətimiz cənnətə dönəcəkdi. Kaş gəlib çıxaydı.

Uşaqlıq illərimi qardaşımla atasız keçirtdim. Cənubda qalan nənələrimdən, bibimdən, əmilərimdən uzaqda yaşamaq o qədər ağır idi ki... Tez-tez yuxuma girirlər. Onları elə görmək istəyirəm ki... Görən, bir-birilərindən ayrı düşən, bir-birilərinə həsrət qalıb dünyalarını dəyişən insanlar heç olmasa o biri dünyada qovuşa biləcəklərmi? Bu sual məni tez-tez düşündürürdü.

* * *

Yazın son ayında şəhərdən qəsəbəyə cavan bir oğlan əmimə müavin göndərildi. Bu şəhərli oğlan tez bir zamanda öz işgüzarlığı, davranışı ilə hamının hörmətini qazandı. Xüsusən əmimin. Əmim deyirdi ki, çoxdan

özünə belə bir kadr axtarırmış. Şəhərli oğlan əmimin son vaxtlar tikdirdiyi qonaq evində qalırdı. İşə məktəbin yanından keçib gedirdi. Mən qardaşımı məktəbə aparıb gətirəndə tez-tez rastlaşırdıq. Şəhərli oğlan məni görəndə addımlarını ləngidirdi. Onunla üz-üzə gəlməyim adi hal almışdı. Əvvəl-əvvəl elə bilirdim ki, bu təsadüfdü. Ancaq yox. Bu təsadüfə oxşamırdı. Hiss edirdim ki, o işə getməyini mənim qardaşımı məktəbə aparmaq vaxtına salır. Axır vaxtlar mənə nəsə demək istəyirdi. Bir dəfə axşamüstü qardaşımı məktəbdən gətirməyə gedəndə yenə də üz-üzə gəldik. Məhərrəmlik ayı təzə başladığından əynimdə anamın təşəbbüsü ilə məni dilə tutub geydirdiyi qara donum vardı. Açıq şabalıdı saçımı arxadan sancaqlamışdım. Qara donumda üzümün, qollarımın ağlığı daha da gözə çarpırdı. Şəhərli oğlan sözlü adam kimi ayaq saxlayıb mənə yaxınlaşdı.

– Bir dəqiqə olar sizi?

Dayandım.

– Siz bu məktəbdə oxuyursuz?

– Xeyr. Oxuyurdum. Buranı bitirmişəm.

Nədənsə səsim titrədi.

– Bəs təhsilinizi davam etdirmək istəmirsiniz?

Şəhərli oğlan mənim yaralı yerimə toxunmuşdu.

– Əlbəttə, istəyirəm.

– Bəs elə isə...

– Atamı gözləyirəm. Gəlsin sonra...

– Atanız hardadır ki?

Dinmədim.

– Demək istəmirsiniz?

− Yox. − Nə deyəcəkdim ki. Nahaq yerə casus adıyla damğalanan atamın harda olduğunu necə deyəydim. Təəccüblənib gülümsədi.

− Olar adınızı soruşum? − Tərəddüdlə başımı aşağı saldım.

Zarafatla:− Adınızı da demək istəmirsiniz? Əgər demək istəmirsinizsə deməyin, – dedi.

− Həlimədi. − Səsimin titrəyişini, deyəsən, o da hiss elədi. − Çox gözəl. – Mənə təzədən nəzər salıb:

− Qara paltar sizə çox yaraşır, – dedi ,− Ancaq siz çox gəncsiniz. Gənc qızların qara geyinməyi təəccüblüdür. Niyə axı qara geyinirsiniz?

− Anam belə istəyir. Axı məhərrəmlik ayıdır. Əhd eləyib ki, qara geyinim.

− Məhərrəmlik? Doğrudan ha. Anan, görünür, dindar qadındı.

− Dindar olmaq pisdi?

Tutuldu: − Mənim Allaha bağlı olan insanlara böyük hörmətim var, − dedi.

Başımı aşağı salıb yoluma davam etmək istədim. Məni ləngitmək məqsədiylə, ya nəyə görəsə yenə də mənim təhsilim məsələsinə keçdi.

− Oxumaq istəyisinizsə mən sizə...

− Əlbəttə istərdim, − Oxumağın adı çəkiləndə gözlərim işıqlanır, – Riyaziyyat, ya da fizika fakültəsində.

− Nə yaxşı. Mənsə kimyanı qurtarmışam. İndi də gec deyil. Bu il sənədlərini instituta verə bilərsən.

− Yox, – dedim, – Anamı tək qoya bilmərəm.

− Anan? Niyə tək qalır ki?

- Bizim burda heç bir qohum-əqrəbamız yoxdu. Bizi burda hamı qərib sayır.

− Deyirəm axı, siz aran adamına oxşamırsınız. − Şəhərli oğlan yenə də mənə baxıb nəsə demək istədi.

− Ola bilər, – deyib tələsik ondan uzaqlaşdım. Həyəcanlı olsam da onun məni  sorğu-suala tutmağına görə dilxor oldum.

O gündən  onunla rastlaşanda ya yolumu dəyişirdim,  ya da özümü görməməzliyə vurub yanından yel kimi keçirdim. Ancaq bir dəfə hava qaralmışdı. Qardaşımı məktəbdən götürməliydim. Deyəsən, gecikmişdim. Addımlarımı yeyinlətdim. Qaça-qaça məktəbin tinini burulanda üz-üzə gəlib toqquşduq. Alnım pencəyinin düyməsinə dəydi. Alnımı ovuşdura-ovuşdura üzünə baxdım. O da narahat idi. – Sizə bir şey olmadı ki, Həlimə? Bərkmi əzildiniz?

− Yox, keçib gedər, – deyib ondan aralanmaq istədim. Yavaşca qolumdan tutdu.

− Həlimə, niyə məndən qaçırsınız?

− Mən?

− Əlbəttə, sən.− Bilmirəm nəyə görəsə sizdən sənə keçdi...

− Niyə qaçıram ki. Heç də qaçmıram.

− Bəlkə, incimisən məndən. Mən üzr istəməyə hazıram... − Tutulub qalmışdım. Özümü toplayıb qolumu çəkdim. Elə bu qalmışdı məndən üzr istəyir.”

− Yox, niyə inciyirəm ki.

− Bir dəqiqə dayanın. Mən sizə şəhərdən instituta  hazırlaşmaq üçün kitablar gətirmişəm. Nə vaxt istəsən verə bilərəm..

−Ehtiyacım yoxdu. −Bir ayağımı qaçaraq qoyub dedim: − Zəhmət çəkmisiniz.

− Nə zəhməti var. − Nədənsə məyus-məyus üzümə baxdı. − Bəs mənim adımı soruşmaq istəmirsən?

Mən başımı qaldırıb üzünə baxdım! – Sizi bu qəsəbədə hamı tanıyır.

−Doğrudan? − Sevinən kimi oldu. − Adım nədir ki?

− Kamal. Familiniz də  Yusifzadə.

Güldü. − Hətta familimi də bilirlər ki.

Mən qaşqabağımı töküb: − Gülməli nə var ki? − dedim.

Dinmədi. Susdu. Gülümsünə-gülümsünə üzümə baxırdı. Yenə də əlimi alnıma apardım. Deyəsən, azacıq şişmişdi. Alnımı ovuşdurduğumu görüb təlaşlandı:

− Ağrıdırmı? Nə pis oldu, Həlimə. − İstədi əyilib alnıma baxsın geri çəkildim.

“Həlim? Ailəmizdən başqa mənə heç  kəs Həlim deməmişdi” İstər-istəməz gülümsədim. Sonra − Heç. Keçib gedər, − dedim və alnımın şişini ovuşdura-ovuşdura üzümü  çevirib sağollaşmadan məktəbin həyətinə girdim.

* * *

Kamalla toqquşduğum həmin gündən iki gün sonra əmimin “Vilis”i küçə qapımızın ağzında dayandı. Mən pəncərədən baxıb anama əmimin gəlməyini xəbər verdim. Anam tirmə şalını başına atıb qapıya sarı gedə-gedə:

− Həlimə, qəfədan elə indicə qaynara düşdü. Sən tez çay dəmlə. Ağaqardaş, əmin birdən çay istəyər, − deyib əmimi qarşılamağa düşdü. Mən əlimdə dəm çayniki yenidən pəncərədən baxdım. Maşından əmimlə şəhərli oğlan −Kamal da düşdü. Gözlərimə inanmadım. Həyəcandan məni tər basdı.

− Kamal! Görən niyə bizə gəlib? − Öz-özümə pıçıldadım. Anam yaşmaqlanıb əmimlə şəhərli oğlana xoşgəldin deyərək içəri dəvət elədi. Əllərim əsə-əsə dəm çaynikinə çay töküb dəmləmək üçün pilətənin üstünə qoydum. Əmim evə keçəndə səsini eşitdim. Məni soruşurdu.

− Bəs Həlimə qızım hanı? Bilirəm, İsmayıl dərsdədir.

Mən tələsik əmimlə görüşmək üçün qabağına çıxdım. Əmim mənə yaxınlaşıb alnımdan öpdü. − Mənim gözəl qızım necədi?

− Yaxşıyam, əmi. − pıçıldadım.

− Aldığım kitabları oxuyursanmı?

Şəhərli oğlanla baxışlarım toqquşdu. Kamal heyrətdən donub qalmışdı. O bilmirdi ki, kimin evinə gəlib və mən Bulud əminin qardaşı qızıyam.

− Oxuyuram, əmi, − dedim.

− Oxu, qızım, oxu, − Sonra əmim üzünü Kamala tutub: − Həlimə mənim qardaşım qızı olsa da, öz balamdan ayırmıram. Özü də ali məktəbə hazırlaşır. Deməyim odu ki, Kamal, ona istədiyi kitabları tapa bilərsənmi?

Kamal özünü ələ alıb: − Əlbəttə, Bulud əmi,− dedi. − Nə vaxt istəsəniz. Mən Həliməni instituta hazırlaşdıra da bilərəm. Əgər istəsə

− Ay sağ ol. Bu oldu əla.

− Mənköməksiz də hazırlaşa bilərəm, -Mızıldandım.

Əmim bizə ərzaq gətirmişdi. Əmimin sürücüsü ərzaqla dolu zənbili içəri daşıdı. Əmimlə Kamal bizdə çox oturmadılar, çay içib getdilər.

Həmin gündən bir həftə keçmişdi ki, Kamal mənə bir qalaq kitab gətirdi. Mən otaqda idim. Kamal həyət qapısından içəri girəndə anam zivəyə paltar sərirdi. Kamalın səsini eşidib pəncərədən boylandım. Kamal anamla salamlaşıb: − Xala, -dedi, – bu kitablar Həliməyə çatacaq. Anam

sərmək istədiyi yaş paltarı təzədən ləyənə qoyub Kamala dil-ağız elədi: − Nə zəhmət çəkməsin, ay oğul, − dedi,− Çox sağ ol.

− Nə zəhməti var. − Kamal evə tərəf baxıb gözünü pəncərəyə sarı dikdi. Bilmək istəyirdi mən evdəyəm, yoxsa yox. Görünür anamdan da soruşmağı utanırdı. Pərdənin arxasından məni görə bilməzdi. Sonra kitabları həyətimizdəki mizin üstünə qoydu. − Mən gedim, xala. Əgər başqa kitablar da lazım olsa Həlimə mənə desin.

− Deyərəm, oğul. Ancaq niyə tələsirsən? Heç olmasa bir stəkan çayımızı içərdin

− Yox, xala, başqa vaxt. Sağ ol, işim var. − Kamal yenə də nəzərlərini döndərib pəncərəyə tərəf tuşladı. "İşim var" desə də nədənsə ləngiyirdi. Sonra anamdan çəkindimi nə fikirləşdisə anamla sağollaşıb getdi. Mənsə utandığımdan həyətə düşmədim. Yerimdəcə mıxlanıb qalmışdım.

Kamalın mənimlə riyaziyyatdan məşğul olmağına razılaşmadım. Öz biliyimə arxayın idim. Atamınsa nə vaxt gəlməyi bilinmirdi. Bir il də keçdi. Atamın, nəyə görəsə, sürgün vaxtını uzadırdılar. İkinci ili də gözləməli olduq. Onunsa mənimlə təsadüfü görüşləri davam edirdi. Ya kitabxanadan kitab alanda, ya anamla dükana gedəndə, ya da qardaşıma görə valideynlər iclasına çağrılanda.

Qəsəbədə tez bir zamanda bizim haqqımızda söz-söhbət yayıldı. "Şəhərli oğlan Bulud əminin qardaşı qızına vurulub". Kamalın məni yolda-irzdə saxlayıb söhbətə tutmağından şübhələnmişdilər. Mənsə ayağımın birini qaçaraq qoyduğum üçün söhbətimiz qısa alınırdı.

− Həlim, necəsən?

− Yaxşıyam. – Üzünə baxmağa utanıb mızıldanıram.

− Gətirdiyim kitabları oxuyursanmı?

− Oxuyuram. Sağ olun, zəhmət çəkmisiniz.

− Nə zəhməti var.

Və yaxud soruşur: − Bu gün niyə bikef görünürsən?

− Yox. Sizə elə gəlir.

− Üzündə bir kədər var. − Təşvişlə soruşur: − Xətrinə dəyən olmuyub ki? De məndən gizlətmə.

− Atamı yuxuda görmüşəm.

− Necə gördün?

− Gördüm ki, atam gəlib. – Gözlərim dolur. Birdən duruxub üzünə baxıram. Onun da gözləri dolur. “Axı mən ona deməmişəm atam hardadır”.

− Sakitləş, Həlimə, harda olsa gələcək.

“Yox... Deyəsən, atamın harda olduğunu bilmir”.

Gözlərimin yaşını silirəm. − Ümidsizcəsinə soruşuram: – Gələcək? − Elə bil Kamaldan təsəlli umuram. − Elə şey olar ki, gəlməsin?

− Gəlməyəcək nədi, Həlimə, gələcək. Əlbəttə gələcək. “Yox, atamdan nəsə bilir. Heç soruşmur atan hardadır. Bəlkə də, bilmir. Bilsəydi məndən uzaq gəzərdi. Adımı belə çəkməzdi”.

Məni ovundurmaq üçün əlimdən tutmaq istəyir. Əlimi çəkirəm. Əlimi çəksəm də ona qarşı laqeyd deyildim. Kamalı görəndə, səsini eşidəndə ürəyim titrəyirdi. Görən, sevgi beləmi olur. Onu görməyəndə darıxır, özümə yer tapa bilmirdim. Onunsa təyinatının vaxtı qurtarmaq üzrəydi. Bir gün mənimlə görüşmək istədiyini bildirdi. Məktəbin kitabxanasında. Oxuduğum kitabları götürüb məktəbə getdim və oradaca görüşdük. Kədərli görünürdü. Xeyli üzümə baxıb: − Mən bir neçə gündən sonra həmişəlik gedirəm, Həlimə, − dedi. − Sənə olan münasibətimi hiss etməmiş olmazsan. Bilirəm oxumaq istəyirsən. Mən sənin oxumağına mane olmayacağam,

əksinə kömək də edəcəyəm. Ancaq sənin fikrini bilmək istəyirəm. Bilsəydim valideynlərimi.... − Aramızda gərgin bir sükut yarandı. Həyəcanla məndən cavab gözləyirdi. Mən dirsəklərimi stola söykəmişdim. Başımı əllərimin arasına alıb tərəddüdlə qarşımdakı kitablara baxırdım. Sonra yavaşca: – Bu mümkün deyil,- dedim,− Heç mümkün deyil. − Kamalın rəngi qaçdı. İstər-istəməz yerindən qalxdı. − Niyə, Həlimə, axı niyə? Yəni sənin mənə qarşı heç bir.... − Sonra diqqətlə üzümə baxdı. Üzümdəki ona olan isti münasibətimi o dəqiqə hiss etdi. Sevinən kimi oldu. Sonra: − Axı, Həlimə, niyə narahatsan? −soruşdu.− Yox, sən məndən nəsə gizlədirsən. Xahiş edirəm... Düzünü de, Həlimə.

− Mən demək istəmirdim. Görünür, əmimdən də soruşmamısan. Mənim atam, cəsus kimi həbs edilib. Sürgündədir. Sizcə belə bir atanın qızıyla...−Susdum. – Yox mümkün deyil. Başınız ağrıya bilər. Sizi də incidərlər.

Başımı qaldırıb üzünə baxdım. Kamalın çöhrəsi dəyişdi. Elə bil rahatlandı da və təzədən stula çökdü.

− Atanın sürgündə olduğunu bilirəm. Nə üçün sürgün edildiyini də bilirəm. Bu məni heç də narahat etmir.

Təəccüblə Kamala baxdım: – Bilirdiniz?

− Əlbəttə bilirdim. Burda hamı Bulud əmiylə atanızın xeyirxahlığından, insanlığından danışırlar. Atanıza böhtan atıblar. Əgər, Həlimə, bilmək istəsən, mənim babam Müsavatın fəal üzvi kimi həbs edilibdi. Güllələyiblər. Min doqquz yüz iyirminci ildə. Bolşeviklər tərəfindən. Xalq cümhuriyyətinin süqutundan sonra. − Mən heyrətlə Kamala baxırdım: – Demək sizin də.... −pıçıldadım: −Allah rəhmət eləsin. Kamal təşəkkür edib: − Bir də ki, mən hər şeyə hazıram. Təki mənə “Yox” demə, − deyə üzümə

baxdı. Yenə tərəddüd içərisində çabalayırdım. Axı mən də ona qarşı laqeyd deyildim. Yavaşca səsim titrəyə-titrəyə: – Gəlsinlər, − dedim. − Ancaq...

− Nə ancaq, Həlim?

− Kamal, indi yox. Mən xeyir-duamı atamdan alacağam. Düzdü, əmim mənə atam kimi əzizdi, ancaq atam gəlməmiş mən sənə heç nə deyə bilmərəm.

Kamal tərəddüd eləmədən əlimdən tutdu: − Sən necə istəsən elə də olacaq,− dedi,− Ancaq mənə sənin "Razı"lığın lazımdı. Yaxşımı? − Kamalın məni sevdiyini anamdan gizlətmişdim. Yumşaq xasiyyətli anam onunla təsadüfü görüşlərimə, bəlkə də, heç nə deməzdi. Ancaq bu haqda danışmaqdan utanırdım.

Getməmişdən qabaq Kamal bizə gəldi. Anamla sağollaşmağa. Bildim ki, onun anamla vidalaşmağı bəhanədir. Gedərkən məni görmək istəyirdi. Mən evdə olmayanda bir-iki dəfə əmimlə bizim evdə günorta naharına gəlibmiş. Anam qulluğunda dayanmış, ona ana nəvazişi göstərmişdi. Mən başımı aşağı salıb Hüqonun "Səfillər"ini oxuyurdum.

− Xala, mənim işim qurtarıb, həmişəlik gedirəm, – dedi, – Gəldim sizinlə vidalaşım.

Anam təəccüblə Kamala baxdı. – Bıy, ay oğul, elə bil dünən gəlmisən qəsəbəyə,− deyib, − ona xeyir-dua verdi. – İşin avand olsun, oğul. Ağaqardaş da sənnən çox razılıq eləyir.

Kamal mənə baxa-baxa:− Həm də, − dedi, − Mən sizə evimizin ünvanını verməyə gəlmişəm, xala. Şəhərə yolunuz düşsə bizə qonaq gəlin: − Cibindən evlərinin ünvanı yazılmış vərəqi çıxarıb anama verdi.

−Anam: – Gələrik, oğul gələrik. Sağlıq olsun. Sən də bizləri yaddan çıxartma.

Kamal gülümsəyə-gülümsəyə məndən baxışlarını çəkmədən: − Sizi heç unutmaqmı olar, xala,− dedi,− Sizin çörəyinizi yemişəm, çayınızı içmişəm. Mütləq gələcəyəm.− Sonra yavaşca, yalnız mən eşidim deyə pıçıldadı: − Tək gəlməyəcəm ki, gələcəyik.

Kamal getdi. Qəlbimin bir parçasını da özüylə apardı. O bir daha qəsəbəyə qayıdacaqdımı? Onu zaman göstərəcəkdi. Atası vətən xaini, sürgün həyatı sürən, köçkünlər, kimsəsizlər üçün tikilən barakların birində əmisinin himayəsində yaşayan bir qız üçün gözləməyə dəyərdimi.

* * *

Vaxt çox ləng gedirdi. Ürəyimin bir parası atamdan ötrü, o biri parası Kamal üçün döyünürdü. Atamın sürgündən qayıtmağı ləngiyirdi. Günlər keçdikcə anamla birgə atamdan əlimizi üzmüşdük. Bizə elə gəlirdi ki, onun başında bir iş var ki, gəlib çıxmır. Görünür, bizə yazdığı məktubları da o özü yazmır, kimsə atamın xəttiylə yazır. Anam dərdini içinə çəkə-çəkə tez-tez xəstələnirdi. Mən də ümidsizliyə qapılmışdım. Atamı görəcəkdimmi, Kamalı isə.... Kamal bir daha qəsəbəyə qayıdaqcaqdımı? Kamaldan xəbər yox idi. Elə bil belə bir adam heç vaxt olmayıb. Onun mənimlə təsadüfü görüşlərin həsrətindəydim. Belə görünür ki, o məni çoxdan unudub, Əvvəllər ümidə bel bağlayırdımsa, artıq o da məndən uzaqlaşıb. Kamalı ürəyimdən çıxarda bilsəydim. Ancaq bacarmırdım. Bu da mənə əzab verirdi. Allaha yalvarırdım ki, onu mənim qəlbimdən silsin, bəlkə, onda rahatlıq tapar, sakitləşərdim.

* * *

Payızın çiskinli, yağışlı bir günündə gecə təzəcə yatmağa hazırlaşırdıq ki, küçə qapımız döyüldü. Qardaşım ertədən yatırdı. Anamla mən hövlnak yerimizin içində oturduq. Bizim qapıydı. Asta-asta döyülürdü. Anam

tələsik tumanını geyindi, köynəyini başından keçirdib, qara şalına büründü, həyətə düşdü. Mən geyinib onun ardınca evdən çıxdım.

− Ay adam, kimsən?

− Mənəm, Qumru, qapını aç. − Atamın səsini o saat tanıdım.

Ürəyim yarpaq kimi titrədi.

− Dədəmdi, mömə! Dədəmdi, − deyə qışqırdım.

Anam qapının cəftəsini qaldırdı. Küçə fənərinin işığında anamın əllərinin əsdiyini gördüm.

Atam qapıdan içəri girəndə mən atama sarı qaçmaq istədimsə ayaqlarım yerə mıxlandı. Bu atam idimi? Atamı tanıya bilmirdim. Qapımızın ağzında saçları ağappaq ağarmış, üzünü qırış basmış, arıq, köhnə, nimdaş paltarın içində bir kişi dayanmışdı. Donub qalmışdım. Anam da çaşqın-çaşqın atama baxırdı. Ancaq yox bu atam idi. Atamın ala gözlərindən, hündür boyundan tanıyaraq: −Dədə! −deyib üstünə atıldım. Atam ikimizə də sarıldı. Üçümüz də göz yaşlarımızı saxlaya bilmirdik. Ağlayırdıq. Evə keçdik. Atam otağa girən kimi elə bil kimisə axtardı. Bildim ki, qardaşımı görmək istəyir. Üç-dörd yaşın içində qoyub getdiyi qardaşımı. İndi onun həbsindən on il keçib. Qardaşımı tanıyacaqmı? İsmayıl səsə oyanıb yuxulu-yuxulu yerinin içində oturmuşdu. Yad kişini qapıda görüb duruxdu, sonra ayağa qalxıb çaşqın-çaşqın anama baxdı. Atam İsmayıla yaxınlaşıb qucaqlayaraq sinəsinə sıxdı. Anam qardaşıma: − Qorxma, bala,− dedi,− Yad adam döyül, dədəndi. Gözlərimiz aydın olsun, dədən gəlib,– dedi.

* * *

Atam qayıtdığı gündən heç kəslə qaynayıb-qarışmır, orda Sibirdəki dustaq həyatından bir kəlmə də danışmırdı. Əvvəllər az-az danışsa da,

zarafatı sevərdi. Ara-sıra insanlarla ünsiyyət qurmağı da bacarardı. İndi isə gününü sükut içərisində keçirirdi. Atam o şaxtalı Sibirdən özüylə xeyli xəstəlik də gətirmişdi. Mədə-bağırsaq, yel xəstəliyindən əziyyət çəkirdi, bir yandan da ürək ağrısı. Anam, zavallı anam atamın başına fırfıra kimi dolanır, gah kürəyinin quluncunu tutur, gah ayağını ovuşdurur, gah da atama xəstə mədəsinə görə pəhriz xörəkləri bişirirdi. Əmim də atama qayğısını əsirgəmirdi. Atamın qayıtmaq xəbərini eşidənlər bizə gözaydınlığa gəlirdilər. Evimiz dolub-boşalırdı. Adamların ürəkdən sevindiklərini gördükcə atama görə fərəhlənirdim. Demək bizi burda sevirdilər, axı bura da vətən idi.

* * *

Atamın gəlişindən heç üç-dörd gün keçməmişdi ki, Kamal qəsəbədə peyda oldu və mənimlə görüşmək istədiyini bildirdi. Kamalın mənə yazdığı məktubu kitabxanaçı qız evimizə gətirdi. Məni məktəbin kitabxanasınıda gözləyəcəkdi. Qəsəbədən gedəndən Kamaldan xəbər yox idi. Onun gəlişi mənimçün gözlənilməz oldu. Ürəyim döyünə-döyünə Kamalın görüşünə getdim. Necə getdiyimi, məktəbə necə çatdığımı özüm də hiss etmədim. Ayaqlarım əsirdi. Doğrusu elə bilirdim ilk məhəbbətim daşa deyib. O gedəndən Kamala olan sevgimi ağır bir yük kimi ürəyimdə gəzdirirdim.

Kamalın üzü gülürdü. Atamın qayıtmasını elə birinci gündən bilirmiş. Buradan həmişəlik çıxıb gedəndən sonra ya qatarla, ya da maşınla qəsəbəyə gəlirmiş, uzaqdan-uzağa məni görüb qayıdırmış. Qəsəbədə nə olub, nə hadisə baş verib hamısından xəbərdar idi. Hətta mənə vurulan, mənə ürəyini açmaq istəyən qəsəbənin həkim oğlanı ilə tanış da olub, onunla söhbət də edib.

Mən duruxub qaldım. Axı həkim oğlanın mənə olan sevgisini hiss etməmişdim. Həmin həkimi bir-iki dəfə anamın qan təzyiqi qalxanda, ürəyinin ağrısı tutanda evə çağırmışdıq. Cavan olsa da ciddi görkəmi vardı. Bəlkə, başım xəstə anama qarışdığı üçün baxışlarını hiss etməmişəm. Mənə anamın xəstəliyi haqda bir-iki sual verib cavabımı gözləmişdi. Mən də anamın xəstəliyindən ətraflı danışmışdım. Həmişə də məni sakitləşdirib:

– Siz, görürəm, ananıza görə həyəcanlanırsınız, Həlimə xanım, narahat olmağa dəyməz. Anan yazdığım dərmanları qəbul etsə, sağalıb ayağa qalxar,– deyərdi.– Onun yazdığı dərman reseptləri doğrudan da anamı yataqdan qaldırardı. O həkim oğlan mənə ürəyini açsaydı da məndən müsbət cavab ala bilməzdi. Kamaldan sonra çətin ki, bir də....

Kamalın səsi məni özümə qaytardı. Narahat olma,– dedi,– Onunla ciddi söhbətim də oldu.

– Harda?

– Onu deməzlər ki.– Güldü.

– Tez-tez gəlib gedirdin? – Utana-utana soruşdum

– Hə, gəlirdim, Həlim...Səni görmək üçün.

– Bəs niyə gizlin?

– Söz-söhbətdən qorxurdum. İstəmirdim adına söz çıxartsınlar. Həm də Bulud əmidən utanırdım. Bilirsən, indi niyə gəlmişəm? Gəldim deyim ki, atam ezamiyyətdən şəhərə qayıdan kimi bu günlərdə sizə gəlməlidirlər, –dedi,– Elçiliyə. – Kamal qəsəbədə olanda sözarası demişdi ki, atası geoloqdu. Onun vaxtının çoxu dağ rayonlarında, bəzən də xarici ölkələrdə keçir. Mən susurdum. Birdən sözünü kəsdi, deyəsən tutuldu da. Oturub qabağımdakı kitabı vərəqləyirdim. Həyəcandan heç bilmirdim vərəqlədiyim

kitabın adı nədi, bunu hardan tapıb qoymuşam qabağıma. Qarşımdakı stulda oturdu. Əyilib üzümə baxdı.

− Nə fikirləşirsən, Həlimə? Yoxsa yenə də...

− Nə? − Başımı qaldırıb üzünə baxdım

Sözünü zarafatla demək istədi. Gülümsədi, − İndi nə bəhanə gətirəkcəksən? Düzünü de!

Dinmirdim. Təlaşlandı.  İsrarla:− De, həqiqəti bilmək istəyirəm. Mənə olan hisslərini bilmək istəyirəm, Həlimə, düzünü de! Sənsiz mənimçün çətin idi. Bütün günü işdə də, evdə səni fikirləşirdim.− Başımı qaldırdım. Birdən məni ağlamaq tutdu. Kamal təşvişlə əlini saçlarıma toxundurdu, üzümdən yana siyirdi: − Sən ağlayırsan? Ürəyimi üzmə...De görüm, nolub?

Göz yaşlarım yanaqlarıma axa-axa Kamala bircə onu deyə bildim:− Bu sualı niyə mənə verirsən, Kamal?− dedim. −Atam üçün, sənin üçün necə darıxdığımı bilsəydin.

Üzünün çöhrəsi dəyişdi.  Elə bil işıqlandı. Rahat nəfəs alaraq hər iki əlimdən tutub dodaqlarına apardı.

* * *

Xoşbəxtəm. Ürəyimin sıxıntısı, hətta ağırlığı da keçib. Atam yanımızdadı və ən ümdəsi isə Kamalın elçilərini atamla əmim qarşılayacaq. Özümü heç vaxt bağışlamazdım atamı gözləmədən, onun xeyir-duası olmadan toyuma razılıq verəm. Bir də ona görə sevinirdim ki, biz də şəhərə köçəcəyik. İçərişəhərdəki evimizdə heç kəs yaşamır. Əmim özünə beşmərtəbəli binaların birindən təzə ev alıb. Ancaq sevincimiz əbəs imiş. Sən demə sürgündən qayıdanlara şəhərdə yaşamağa qadağa qoyulubmuş. Nə etmək olar. Atam ki, yanımızdadı. Buna da şükür.

Kamalın qəsəbəyə gəlişindən bir həftə keçməmişdi ki, bazar günü valideynləri mənimçün elçiliyə gəldi. İki nəfər yaxın qohumu ilə. Hərim veriləndən sonra süfrəyə şirin çay verildi və məni otağa çağırdılar. Orta yaşlı, gülərüz qaynanam məni qucaqlayıb üzümdən öpdü: − Kamalın zövqünə inanırdım,−deyə gülümsədi: − Gəlnim gözəl imiş. Allah hər ikinizi xoşbəxt eləsin, qızım, qoşa qarıyasınız.− Bulud əmimin yanında oturan qaynatam da əmimlə, atamın xeyir-duasından sonra qalxıb mənə yaxınlaşdı, alnımdan öpdü. Qaynanamgilnən gələn qonaqlar da mənlə Kamala xoşbəxtlik arzuladılar.

Elçilər bizdən razılıqla getdilər. Evimizdə təkcə əmim qaldı. Əmimdən başqa burda kimimiz vardı ki. Nənəm, bibim, əmilərim, böyük nənəm, Güneydəki bütün qohumlarımız yadıma düşdü. Kaş onlar da burda yanımızda olaydılar. Bibim həmişə mənim toyumdan danışardı: − Bircə sənin toyunu görsəydim, − deyərdi. − Görən, neynirlər? Mənim bu xeyir işim bibimin yuxusuna giribmi? Kamalın anası gələcək qaynanam məni yanında yer eləyib oturdanda, bibimə bayramlıq gətirəndə qaynanasının da onu çağırıb yanında otuzdurmağı, − Mənim göyçək qızımın əhvalı necədi?” − deməyi yadıma düşdü. O vaxtdan gör neçə illər keçib.

Əmimin və valideynlərimin Kamalın ailəsindən xoşları gəldi. Əmim isə Kamalla bir yerdə işlədiyi üçün onu yaxşı tanıyırdı və oğlu kimi sevirdi.

* * *

Toyumuzun vaxtı təyin edildi. Əmimlə atam belə qərara gəldilər ki, elə toy mağarını güllü-çiçəkli həyətimizdə qursunlar. Sonra əmim nə fikirləşdisə dedi ki, elə mağarı qurmasaq da olar. Həyətdəki tut, ərik ağacların yaxınlığında – kölgəlikdə stollar, stullar düzülər, çalğıçılar üçün

aşağı tərəfdə yer ayırarıq. Kamalla Həlimə qızımızı da stolun başında oturdarıq. Anam mənim də üzü açıq toya gələnlərlə bir yerdə oturacağıma etiraz elədi.

– Yox, ay ağa qardaş, gəlinin üzü açıq toya gələnlərin yanında nə işi var. Evdəcə süfrə açaram, Kamalın anası, şəhərdən gələn qadınlar da başına yığışarlar. Damadı da harda istəsəniz orda da oturdarsınız. Anam öz etiraz səsini yumşaltmaq xatirinə gülümsədi. Beləliklə, mən öz toyuma evin içində, pərdənin arxasından baxmalı oldum. Əmimin dediyi kimi həyətimizdə stol, stullar düzüldü. Stolların üstünə ağappaq süfrələr salındı.

Qonaqları əmimlə atam qarşılayırdı. Kamalın utandığındanmı, ya da həyəcandanmı üzü pörtmüşdü. Əmimlə görüşəndə çaş-baş qaldı, bilmədi əlindən öpsün, yoxsa əlini sıxsın. Mən evin içindən açıq pəncərədən onları görürdüm. Əmim gülə-gülə qucaqlayıb Kamalın üzündən öpdü: – Sən, – dedi, – mənim müavinim idin, indi bundan sonra oğlum sayılırsan. Utanma, oğul. Allah hər ikinizi – səni də, Həliməni də xoşbəxt eləsin. Kamal utana-utana atamla da görüşdü.

Qəsəbədən toya gələnlər Kamalı tanıdığı üçün onu qucaqlayıb, təbrik edirdilər. Şəhərdən gələnlər rahatlanıb süfrə arxasına keçdilər. Toyumda qəsəbədəkilərdən başqa rayon mərkəzindən də əmimin dostları iştirak edirdilər. Əmimin adını eşidib dəvətsiz gələnlər də vardı. Anamın mənim xeyir işimə ürəkdən sevinsə də bir üzü gülür, o biri üzü ağlayırdı. Qohum-əqrabasız da toy olar.

Kamalın anası Ədilə xala – qaynanam çəhrayı rəngli gülməxmər parçadan tikilmiş uzun paltarı xonçaların birindən çıxartdı. Paltarı şəhərdən gələn Kamalın qohumlarından biri əynimə geydirdi. Paltar elə bil bədənimə biçilmişdi. Sonra həmin çəhrayı paltarın rəngində saçlarıma gül də

düzdülər. Qaynanam, onunla gələn qadınlar başdan-ayağa məni süzüb üzümdən öpdülər, xeyir-dualarını verdilər.

Ədilə xala doluxsundu: – Qızımız gül parçasıdır, – dedi. – Allah ikinizi də xoşbəxt eləsin. Qoşa qarıyasınız. – Sonra gözünün yaşını silib gülümsədi: – Nişan üzüyünü Kamal özü taxacaq.

Aşıqlar şirin-şirin oxuduqca, zurna-balabanın səsi qəsəbəni başına götürdükcə ürəyim çırpınırdı. Bibimin gəlin köçdüyü gün yadıma düşdü. Axı bibim çox arzulayırdı mənim toyumu görsün. Məgər sərhəd boyu çəkilən tikanlı məftilləri qırıb keçmək mümkün idimi?

Şəhərdən gələn qadınlara, mənim ətrafıma yığışan qonşularımıza Vəsxanım əmdostum nəzarət edirdi. Tez-tez otağa girib çıxır, nə lazımdırsa süfrəyə düzdürürdü. Məni gəlinlik paltarında görəndə duruxdu, sonra qucaqlayıb sinəsinə sıxdı: – Bıy, Həlim nə gözəl görünürsən. Çəhrayı rəng elə sənin rəngin imiş. Nədənsə Vəsxanım əmdostumun bu gün kefi kök idi.

Anama kömək eləyən Minəpüstə xala da mənə yaxınlaşıb üzümdən öpdü:

– Yarıyanlardan olasan, bala, – dedi.

Qəsəbə toylarına getməyən Frosiya xala – babuşka birdən qapının ağzında göründü. Məni təbrik etməyə gəlmişdi. Qadınların arasında məni görüb yaxınlaşdı: – Halima, eto tı. Ya xaçu tebya pozdravit. Man sana yaxşı jizn arzulayır.

– Çox sağ ol, Frosiya xala – dedim. Qucaqlaşdıq. Sonra yavaşca: – Anamı sizə, Minəpüstə nənəyə tapşırıram. Onu tək qoymayın. Anamın burda sizdən başqa heç kəsi yoxdu – dedim.

– Albatta, Halima, arxayın ol - Frosiya xalanı anam evinə getməyə qoymadı, qadınların arasında yer eləyib otuzdurdu, toy xörəklərini qabağına düzdü.

Kamalın anansına ilk gördüyüm gündən quşum qonmuşdu. Ədilə xala mənə baxıb tez-tez kövrəlir və deyirdi: – Axır ki, arzuma çatdım. Qabağıma istədiyim gəlin çıxdı. Qızım yoxdu, Həlimə. Sən mənə gəlin yox, qızım olacaqsan. Kamal təkdi, onun nə bacısı var, nə də qardaşı.

Zurna-balabanın səsi qəsəbəni bürümüşdü. Aşıqlar cani-dildən oxuyur, bir-biriylə deyişirdilər. Mən şəhərdən gələn qadınlarla pəncərədən toyuma tamaşa edirdim.

Çalğıçılar "Tərəkəmə" havasına keçdilər. Əmimlə atamı ortaya çəkib oynamaqlarını xahiş etdilər. İlk dəfəydi əmimlə atamın bir yerdə oynadıqlarını görürdüm. Onlara qoşulan olacaqdımı? Bir anın içində əmimlə atamı dost-tanışları əhatə etdilər və onlarla birgə oynamağa başladılar. Qəsəbə sakinlərinin, əmimin dostlarının bizə isti münasibətlərini burda bir daha gördüm.

Toy şən keçirdi. Bu vaxt kiminsə ucadan səsini eşitdik: – Gəlini gətirin. Qoyun nişanlısı üzüyünü taxsın.

Qadınların əhatəsində uzun paltarda ayaqlarım dolaşa-dolaşa evdən çıxmaq istəyəndə anam qabağıma çıxdı.

– Sən neynirsən, a qızım. Bə sənin üz duvağın hanı? Gəlin də başı açıq kişilərin qabağına çıxar? – Qadınlardan biri gülə-gülə anama: – Siz Allah gəlinin xətrinə dəyməyin, – dedi. – Qoyun gedib nişanlısını görsün. Bayaqdan fikir verirəm Kamalın gözü elə qızı axtarır.

– Yox, ay bacı, elə şey olar. – Anam yataq otağımıza keçib naxışlı sandığımızı açdı. Ordan qıraqları ağ yelənli qırmızı kələğayısını çıxartdı, gətirib başıma atdı. Üzümü kəlağayı örtdü.

Qadınların əhatəsində “Vağzalı” havasının müşayəti ilə həyətə düşdüm. Mən kəlağayının altından ancaq ayaqlarımı görürdüm. Birdən Kamalı yanımda hiss etdim. Kimsə, anamın gözündən iraq, kəlağayını başımdan götürdü. Kamalla üz-üzə dayandıq. Baxışlarımı ondan yayındırmaq istədim. Kamal heyrətlə əynimdəki çəhrayı paltara, gül çələnginə bürünmüş saçlarıma baxdı. Gülümsədi və yavaşca əlimdən tutdu, əlində saxladığı nişan üzüyünü çıxardıb barmağıma taxdı. Hamı səs-səsə verib bizə xeyir-dua, xoşbəxtlik, oğul-uşaq arzuladılar. Sonra qaynanam, Vəsxanım əmidostum, qadınlar bizi əhatə edib ağır ritmik musiqi havası ilə oynatdılar. Ürəyim çırpınırdı, həyəcandan tər məni basmışdı. Elə bil yuxu görürdüm. Elə bu an, bu zaman neçə illərin iztirablarından sonra xoşbəxtliyin dadını hiss edirdim. Bəli, mən xoşbəxt idim. Allahın mənə verdiyi ömür payını Kamalla birgə başa vuracaqdım.

Qəsəbədəki toyumdan bir-iki həftə keçmədi ki, oğlan toyu – ikinci toyumuz şəhərdə restoranların birində oldu və mən Kamalın evinə gəlin köçdüm. Ailəmizsə atam bəraət kağızını alana qədər qəsəbədə qalmalı oldu. Qardaşım İsmayıl ali məktəbi qurtarana yaxın  həmişəlik qəsəbə ilə vidalaşıb ömürlərinin son illərini gözləri Cənub yoluna dikilə-dikilə, nisgil içərisində vətənə, qohum-əqrabaya həsrət qalaraq İçərişəhərdəki evimizdə keçirtdilər.

Əmim də işini dəyişib həmişəlik şəhərdə məskunlaşdı. Ölümündən sonra qəsəbədə camaatın təşəbbüsü ilə bizim yaşadığımız  küçəyə əmimin adını verdilər. “Bulud Süleymanzadə” küçəsi. Bu qəsəbəyə gələnlər əmimi

tanımadıqları üçün soruşanda ki, bu adam kim olub? Sadəcə deyərdilər − Xeyirxah, camaatına çörək verən,  yaxşı insan. Vəssalam.

* * *

Gəlin köçdüyümün ilk günündən Kamalın,  ayrı yaşasaq da qaynatamla, qaynanamın, sonra da uşaqlarımın qayğısını öz  üzərimə götürdüm. Ali təhsilimi başa vurdum, ancaq işləmədim. Bu da məni yerə-göyə qısqanan Kamalın ürəyincə oldu. Buna baxmayaraq evdə əsil müəllim kimi  övladlarımın təhsili ilə məşğul oldum. Onlara riyaziyyatı, fizika fənnlərini sevdirdim. Elə ona görə də uşaqlarımın üçü də dəqiq elmləri seçdilər.

Atam sürgündən qayıdanda anamın otuz doqquz yaşı vardı. Cavan idi. Otuz doqquz nə yaş idi ki. Onların bir  qız övladları dünyaya gəldi. Adını Mələk qoydular. Bibimin adını. Bacım mələk kimi bir qız idi. Atam başını bu qızcığazla qatardı. Nə vaxt gedərdim evimizə  bacımı həyətdə torpaqla əlləşən, növbənöv ağac, gül-çiçək əkən atamın yanında görərdim. Atam sürgündən qayıdandan həyətimiz cənnətə dönmüşdü. Küçə  qapımızdan içəri girəndə sarmaşıq kimi divarlara dırmaşan güllərin, səki boyu bir-birinin ardınca düzülən qızılgülün yasamənin ətri bizi məst edərdi.

Balaca Mələk valideynlərimə  sanki Tanrıdan göndərilən bir hədiyyə idi. Allah-təala bu qızı ata- anamın çəkdikləri o həsrətin, o əzabların əvəzinə təsəlli olsun deyə göydən yerə endirmişdi.  Balaca bacım özündən böyük suallar verər, bəzən də şirin-şirin danışıb hamımızı güldürərdi. Mən onu evimə apara bilməzdim. Atamın qılçalarından  yapışıb ondan qopmazdı, atamsız bir an da dayana bilməzdi. Harda olursa olsun atamı axtarıb tapar, qucağında özünə yer edərdi. Atam bir yerə gedəndə, evdə olmayanda: − Dədəm hanı, mən dədəmi istəyirəm,− deyib ağlayardı.

Az danışan, günlərini sükut içərisində keçirən atam bir dəfə Mələyə baxa-baxa köksünü ötürdü.− Fələk bizi anamızdan, bacımızdan, qardaşlarımızdan ayırdı. Anamın, bacımın, sizin o qədər xiffətini eləmişəm ki, istər sürgündə, istərsə də burda. İndi bacım Mələyin iyini bu balacadan alıram. Nə yaxşı ki, bu qız var, həm də, qızım, sən gəlin köçənnən sonra Mələk balam səni əvəz elədi. Vallah, bu şeytan qız bizim başımızı elə qatır ki...

Balaca Mələk mən atama "Dədə" deyə müraciət edəndə tərs-tərs üzümə baxıb:− O mənim dədəmdi, sənin yox, sən hardan gəlib çıxmısan, sən onun qızı deyilsən, "Düz deyirsən, mənim bacım. Mənim uşaqlığım atasız keçdi. Ata nəvazişi qoydular ki, görəm. Təki, bacım, sən atasız böyümə."

Kamal isə Mələyi danışdırmaqdan həzz alardı: − Sən bilmirsən, bacın əvvəllər burda qalardı. Mən onu oğurlayıb aparmışam.− Mələk Kamalı başdan-ayağa süzüb −Sən oğrusan? − soruşardı və qaçıb atamın qucağına sığınardı.

Mənimlə iyəşsə də, məni ata-anama qısqansa da ata evinə gəlişimə ən çox sevinən balaca Mələk olardı. Sevinə-sevinə qabağıma qaçıb qucağıma atılardı.

Mələyi yanımda görənlər elə bilərdilər ki, mən onun bacısı yox, anasıyam: − Nə şirin qızınız var. Allah saxlasın. − Mən susub heç nə deməzdim. Qoy elə də bilsinlər.

* * *

Vəsixanım xala atamgil şəhərə köçdüyü ili möhkəm xəstələndi. O vaxta kimi bizimlə əlaqəsini kəsmişdi. Nadir hallarda görünərdi. Xeyir işlərimizə gəlsə də özünü yad adamlar kimi aparardı.

Əmim Vəsixanım xalanın xəstəliyinə görə başını itirmişdi. Vəsixanım xala sətəlcəm olmuşdu. Halı yox idi ki, durub evin içində gəzsin. Bulud əmim bizə gəlib onun xəstəliyindən anama məyus-məyus danışdı: − Lap başımı itirmişəm, − dedi, − Vəsixanım günü-gündən geriləyir. Əliyusif də burda yox. − Əmim oğlu təhsilini Moskvada alırdı.

Anam təşvişə düşdü: − Ağaqardaş, − soruşdu, −Həkimə aparmısan?

− Aparmışam. Həkim bir aləmiynə - dərman yazıb. İsti, sulu xörəklər, çoxlu maye qəbul eləməlidir. Mən də bütün günü işdə oluram, bir yandan da ezamiyyətə getməliyəm.

Anam tərəddüd etmədən: − Vəsixanımı gətir bizə,− dedi.

Anamın bu təklifinə əmim sevindi və axşam onu bizə gətirdi. Anam əmidostum üçün yataq otağımızı ayırıb döşək ağını, yorğan üzünü dəyişdi. Vəsixanım xalanı yatağa uzatdıq. O gündən anam Vəsixanəm xalanın qulluğunda durdu, gecə-gündüz başının üstünü kəsdirdi, iynələrini vurdurdu, dərmanlarını qəbul elətdirdi, isti şorbalar içirtdi. Vəsixanım xala yavaş-yavaş özünə gəlirdi. Soyuqdəymədən taxtaya dönmüş bədəni get-gedə açılırdı. Bədəni yumşaldıqca xasiyyətidə dəyişirdı. Anam Vəsixanım xalanın qayğısına qaldıqca elə bil o anama elədiyi pisliklərə görə xəcalət çəkirdi. Arada mən də onun istədiyi meyvələrdən alıb gətirirdim. Vəsixanım xala anamın, içdiyi dərmanların köməyi ilə ayağa qalxdı. Evinə gedərkən anamı qucaqlayıb: − Qumru, − dedi, − Sən mənə əsil bacılıq elədin. Məni çox şeyə görə halal elə.

Anam: − Ay Vəsixanım, − dedi, − Elə niyə deyirsən. Sən neyləmisən ki?

− Yox, yox, mən bilirəm nə deyirəm. − Həmin gündən sonra Vəsixanım xala bizə tez-tez gəlməyə başladı.

Bir gün anam mənə zəng edərək sevinə-sevinə dedi: − Ay qızım, söyündüyümdən bilmirəm neyniyim.

− Nolub ki, mömə? Kaş həmişə belə sevinəsən.

− Nolacaq, bala, Vəsixanım əmidostun namaz qılmaq istəyir, deyir, Qumru, namaz da qılacam, oruc da tutacam. Namazın sözlərini mənə öyrət, deyir, Allah günahımdan keçsin, dedim, bacı, Allah böyükdür, Allah bağışlayandır. Səni də bağışlar. Görürsən, Həlim, dualarımı Allah qəbul elədi. Əmidostun Allah yoluna qayıtsa, elə bilərəm ki, dünyanı mənə verirlər.

Vəsixanım xala anamdan dinimizin qayda-qanunlarını öyrənməyə başladı. Həmin gündən əmidostum anama daha yaxından bağlandı.

Yadımdadı, anam dünyasını dəyişəndə ən çox göz yaşı tökən Vəsixanım xala idi. Anamın yas məclisində ürəkdən ağlayardı.

* * *

Əsrin sonuna yaxınlaşdığımız zaman mənfur, qəddar ermənilərin Qarabağ savaşı başlandı... Əli silahsız dinc azərbaycanlıların başlarına açdıqları faciələrlə yenidən üzləşdik. Torpaqlarımızın bir parçasını itirdik. Belə bir vaxtda vətənimin yarısı öz müstəqilliyini əldə etdi. Ancaq biz müstəqilliyimizə Qarabağsız ürəkdən sevinə bilmədik.

Budur, iki vətən arasındakı sərhədin buzu qırılsa da Qarabağ ağrılarını içimdə çəkə-çəkə səfərə hazırlaşıram. Vətənimdən vətənimə. Axşam Kamal nigarancasına üzümə baxdı: − Bilirəm tərssən. Gözləsəydin bir-iki günlüyə mənimlə gedərdin. Özün bilirsən ki, indi heç cür mümkün deyil. İşdən çıxa bilmərəm: − Yox, − dedim, − Yad ölkə deyil ki, tək gedəcəyəm. Vətənimə gedirəm də. Bir də ki, səninlə getsəm iki gün mənə azlıq edər. İstəyirəm

doğmalarımı, doğulduğum kəndimi doyunca görüm. “Doğmalarım” deyəndə ürəyimin başı gizildədi. “Əgər dünyalarını dəyişməyiblərsə”.

Səhərin alatoranlığında Kamal xidməti maşınıyla məni turistləri aparan “İkarus” avtobusun dayandığı yerə gətirdi. Artıq ziyarətçilər, gəzməyə, gedənlər avtobusda yerləşmişdilər. İlk dəfəydi Kamalsız yola çıxırdım. Ayrılanda gözlərim doldu. Kamal məni sakitləşdirib: −Ağlama, − dedi,−ağlasan işə-zada baxmaram, qoşulub səninlə gedərəm.

− Yaxşı, − dedim. − Ağlamaram. Özündən müğayat ol. Uşaqlara tez-tez baş çək.

* * *

Yol gedirəm. Bu yol mənim üçün o qədər doğma və müqəddəsdi ki, Bu yolu ayaqyalın, sürünə-sürünə getsəydim də yorulmazdım. Bu yolun həsrətini valideynlərimlə o qədər çəkmişəm ki. Həsrət yoludurmu bu yol, yoxsa tale yolu. Kiminsə şeiriydi “Gedirəm, gedirəm, yolun sonu yox”. Yox, bu yolun sonu olacaq. Allahın köməyilə. “Mən yola baxıram, uzanan yollarsa bitmək istəmir”. Yol bitəcək. Aman allah, deyəsən, axı mən yuxu görmürəm. Lap az qalıb. “Zaman da dayanıb getmək istəmir”. Yox, yox, mənimçün zaman dayanmayıb. Sərhədə yaxınlaşırıq. Sənədlərimiz yoxlanılıb qurtarır. Avtobus körpünü keçib dayanır. Artıq Cənubdayıq. Avtobusdan düşüb ayağımı torpağa qoyanda qəhər məni boğdu. Burdan çıxıb getməyimiz gözümün qabağında canlandı. Atam bizi kənddən çıxaranda mən doluxsunub qalmışdım. Ürəyim çırpınırdı, ağlayırdım. Uşaq olsam da bilirdim ki, bizi getdiyimiz yolda təhlükə gözləyir. İndi isə gözümdəki yaş sevinc yaşı idi. Gözlərim torlaşmışdı. Yan-yörəmdə şütüyən maşınlara, avtobuslara, gəldiyim yerdə başları, qolları açıq qadınlardan fərqli olaraq indi bu tayda ata yurdumda başı bağlı, çadralı qadınlara

döyükə-döyükə baxırdım. Axır ki, özümü ələ alıb avtobus gözləyən qadınlardan birinə yaxınlaşdım. Kəndimin adını çəkib ora gedəcək taksi və ya avtobusun nömrəsini soruşdum. Qadın yanındakı yeniyetmə oğluna, sonra mənə baxdı: − Əmrah, bala, gör bu xanım nə soruşer. Qadının oğlu mənim bağladığım baş örtüyümə, əynimə geydiyim mantoya baxıb.

− Xala, siz hardan gəlmisiniz?− Maraqla soruşdu.

− Azərbaycandan, oğlum. Azərbaycandan gəlmişəm.

– Bıy, xala, elə biz də Azərbaycanda yaşayırıq da. Düzdü, bizimkinin adı Güney Azərbaycandı. − "Azərbaycan" sözünü eşidəndə qadının siması dəyişdi, gülümsəyib mənə yaxınlaşdı.

− Xoş gəleb, səfa gətirmisən, xanım,− deyib qolumdan yapışdı.

− Çox sağ ol, bacı,− dedim,− Xoş gününüz olsun.

− Demax, Şurəvidən gəlmisən.

− Hə, artıq Şurəvi yoxdu,− dedim. − İndi Müstəqil Azərbaycan ölkəsi var.

− Nə xoş, nə xoş. Bilirux. − Qadın sevincək dilləndi.

− Bacım, − Soruşdum. − Buralada taksi olur.?

−Maşın? Niyə olmer. Bu saat, oğlum maşın gətirər. −Qadın oğlunu taksi dalınca göndərdi. − Ancaq sən allah gedəyin qonağım olen. Yaxında

olerix. − Çarşablı qadının məni evinə dəvət etməsi ürəyimi dağa döndərdi.

− Sağ ol, bacı, axşama qalmayım. Təşəkkür edirəm.

Bir an keçmədi ki, oğlanın gətirdiyi taksi qabağımda dayandı.

− Buyur, xala, əyləşin. Bu maşın hara istəsəniz aparar sizi, − deyib taksidən düşdü və mənim əşyalarımı maşına yerləşdirdi.

Ana-oğulla xudahafizləşib taksiyə oturdum. Taksiylə saat yarım yol getdim. Ağsu döngələrini xatırladan bu dolama yolların hər iki tərəfi sıx meşəlik idi. Ağacların yaşıllığı, talalar adamın gözlərini oxşuyurdu. Taksi sürücüsünə iyirmi beş, otuz yaş vermək olardı. Qaradinməz idi. Döngələri keçəndən sonra üzünü döndərmədən mənə müraciətlə:

− Xala, şəhərə çatırıq. Siz şəhərdəmi düşəcəksiz, yoxsa bir baş Pətəxora getməlisiniz? − Kəndimə,− dedim.− Əgər mümkünsə, gedişinizin haqqını artıraram. Pətəxora sürün.

− Baş üstə. Narahat olmayın. Siz, xanım, hara desəniz ora da sürərəm.

Şəhərə girmədən onun yaxınlığından keçirik. Uzaqdan Ərdəbilin iki, üç mərtəbəli mülkləri görünür. Doğma kəndimə yaxınlaşdıqca həyəcanım təzədən artır. Yay fəslində gün gec batdığından hava hələ qaralmamışdı. Elə ona görə də maşın irəliyə doğru şütüdükcə yaşıllıqlarla əhatə olunmuş kənd evlərini, yolları, cığırları acgözlüklə izləyirdim. Keçdiyimiz yollar mənə tanış gəlirdi. Hə, axı bu yolla atam bizi arabada sərhəd yaxınlığındakı kəndlərin birinə aparmışdı. Sonra hava lap qaralanda biz qayıqla sərhəddin o tayına keçməliydik. Canımda qalan o vaxtkı xofu, qorxu hissini elə bil indi də hiss etdim. Ancaq tez keçib getdi. Mən indi kimin evinə, kimin yanına gedirdim? Birdən dünyalarını dəyişsələr... İndi canımda heç bir təşviş hissi yox idi. Bilirdim ki, bibimi, yaxınlarımı tapmasam da hansı qapını açsam məni qəbul edəcəklər. Axı bura da mənim yurdum idi. İkiyə bölünən vətənimin bir parçası. Ağacların arasından döngəni burulan kimi uzaqdan Savalan dağı göründü.. Biz ona sarı irəliləyirik. Kəndimiz onun ətəyində yerləşir. Yuxularımdan çıxmayan doğma kəndimizə yaxınlaşdıqca ürəyim yenə də çırpınmağa başladı. Maşını saxlatdırıb düşdüm. Əl çantamdan qəbir üstündən götürdüyüm bir ovuc torpağı çıxarıb Savalan

dağına tərəf səpələdim. Kövrələ-kövrələ ürəyimdə atama, anama, əmimə pıçıldıyıram. “İndi qəbrinizdə rahat uyuyun, mənim əzizlərim.” Təzədən maşına oturub sürücüyə:

−İndi, oğlum, sür,− dedim.− Sürücü təəccüblə hərəkətimi izləyirdi.

Sürücünün üzünə birdən-birə kədər çökdü. Yenə də gözümü Savalan dağına dikirəm.

– Xala, bildim, o əlinizdəki nə idi.

– Eh, ay oğul, bizi bir-birimizdən ayrı saldılar. Bu günümü düz yarım əsrdir ki, gözləyirdim. Sən də Ərdəbildənsən?

– Yox, xala, Təbrizdənəm.

– Təbrizdən? Təbriz Ərdəbildən çoxmu uzaqdı?

– Xeylək var.

– Şəhriyarın qəbri Təbrizdədir axı.

Pıçıldayıram: – Oraya gedib çıxa bilsəydim.

Sürücü barmağını maşının audio sisteminə yerləşdirdiyi maqnitafonun düyməsinə basdı. Sonra düyməni firlada-fırlada – Şəhriyar bizim qibləgahımızdır. – dedi, – Qulaq asmaq istəməzsiniz, Heydərbabaya salam.

– Əlbəttə istərəm. Bu mahnını Rübabə xanım oxuyardı.

– Elə mən də onu axtarıram.

Sürücü oğlan axır ki, mahnını tapır. Rübabə xanımın nisgilli səsi maşının içinə yayılır.

Heydər baba, ildırımlar çaxanda,
Sellər, sular şaqqıldayıb axanda.

Gözlərim doldu. Burda, doğulduğum yerdə keçirtdiyim uşaqlıq illərim, həyətimiz, yazda kəndimizin çayının şırıltısını, Novruz bayramına hazırlaşmağımız, nənəmin məcməyilərə bayram şirnilərini düzməyi, bibimin hər birimizin adına şam yandırmağı, bibimlə qulaq falına

çıxmağım, əmim oğlanlarının qonşu uşaqlarla papaq atdıya getmələri yadıma düşdü.

Sürücü oğlan da kövrəlmişdi.

– Qismət olsa bir də gəlsəm Təbrizə gedəcəyəm, – dedim, – Allah qoysa.

Müğənni yanğılı səslə şeirin ikinci misrasına keçmişdi.

Heydər baba, yolum səndən gəc oldu,
Ömrüm keçdi, gələmmədim, gec oldu.

Kəndə giririk. Bu da kəndimiz. Kəndin ortasından keçən çay ilan kimi qıvrıla-qıvrıla haralarasa, hansı dənizəsə axıb gedirdi.

− Xanım, − Taksi sürücüsü soruşdu: − Hansı evə gedəcəksiniz? Deyin bir baş ora sürüm.

Evlərə baxa-baxa çaşbaş qaldım. Sonra çayın ətrafına nəzər sadım: − Çayın qırağıyla sürün, görüm yadıma sala biləcəyəmmi.

− Yox, siz mənə hansı evə gedəcəyinizi deyin ora sürüm. − Taksi sürücüsü bəxtəvərlikdən danışır. Hansı evi deyim, ay oğul. Öz doğma evimiz, məgər, yadımda qalıb. Yenidən evlərə nəzər salıb çaya lap yaxın yerdə maşından düşdüm. Ətraf sakitlik idi. Bu sakitliyi yalnız çayın şırıltısı pozurdu. İns-cins görünmürdü. Gözüm örüşdən qayıdan mal-heyvana sataşdı. Bəs, görən, bizim ev hansıdır. Çayın yanından evlərə iki cığır gedir. Cığırlar mənə tanış gəlirdi. Bibim bu cığırla məni çayın qırağına gətirərdi, Yox, axı, deyəsən, o biri cığırdı. Bir tərəfdən də çayla eyni istiqamətdə araba yolu uzanır. Bax, deyəsən, tapmışam. Bir xeyli dayanıb evləri nəzərdən keçirtdim və birdən yaddaşımın ən dərinliyində həyətimizi gözümün qabağına gətirdim. Evimizin aşağı tərəfində mal-heyvanımızı yerləşdirdiyimiz tövləmizi tanıdım. Nə yaxşı ki, yerində sağ-salamat qalıb. Bəs evimiz? Evimiz yox idi. Onun yerində üstü qəhvəyi kirəmitli, yeni

üsulla hər tərəfi örtülü, sütunları göyə çalan ev tikilmişdi. Yaxınlaşıb həyətə sarı boylandım. Sonra darvazanı döydüm. Bir neçə dəfə döydümsə açan olmadı. Əsəblərim tarıma çəkilmişdi. Özümü ələ alıb taksi sürücüsünün haqqını verib yola saldım və çayın lap yaxınlığında mantomun ətəyini yığıb qurumuş vələs ağacının kötüyünün üstündə oturdum. Birdən-birə məni tər apardı. Bilmədim bu həyəcandan idi, ya istidən. İstədim başımın yaylığını açım. Yadıma düşdü ki, burda qadınların başı açıq gəzməyi qadağandır. Uzaqdan qoyun-quzu mələşməsini eşidirdim. Başına adi çit parçadan güllü yaylıq bağlamış cavan bir gəlin qırçınlı tumanının ətəyini əlinə yığıb, o biri əlindəki ağacla beş-altı qoyunu qabağına salıb mənə tərəf gəlirdi. Məni görüb ayaq saxladı. Gah əynimdəki paltara, gah da ayağımın yanına söykədiyim çamadana baxıb:− Burda niyə otureysan, ay bacı,− soruşdu. − Sonra əlavə etdi:

− Diyəsən, bura adamına oxşameysan, bacı.

− Üzr istəyirəm. Mən bilmirəm tanıyırsan, ya yox, Əhmədin qızıyam.

− Hansı Əhmədin?

− Zinyətdi nənəmin adı. Babamın adı Hüseyn olub. Məşədi Hüseyn. Evimizi tanıya bilmədim. − Təzədən kövrələrək həyətimizə sarı boylandım. − Siz, bacı, bilmirsiniz bizimkilər? − "Bizimkilər" deyib udquna-udquna qadına baxdım. − Bizimkilər haradadır? Evimizdə kim qalır?

Qadın mənə tərəf yaxınlaşıb üzrxahlıqla: − Vallah, mən də bura Sərabdan gəlin gəlmişəm. Çoxlarını tanımeram. Ancaq nənəni görmüşdüm. Bildiyimə görə bu həyəti alan Meşkunlidirlər. Sizinkilərsə, yenə deyirəm, yalan olar birdən, eşitdiyimə görə, diyəsən köçeblər. − Mən həyəcanlanıram. "Demək, Pətəxorda heç bir qohum-əqrəbam qalmayıb. Bəs hardadılar"?

− Əvvəllər Zinyət nənəyə gəlib dəyərdi qızı Mələk xala. Bir oğlu vardı nənənin. O da arvadı tək qoyub Tehrana köçüb. “Səməd əmimi deyir” fikirləşdim. Gəlin üzünü kəndin gündoğan tərəfinə tutdu.

− Cığırla düşsən, çayın qırağıyla düz gedib Mələk xalanın oğlunun evinə çıxarsan. Axırıncı öy onundu. Göy darvazalı öydü. Əmma, xanım, çoxdandı görünmer Mələk xala. Yaydan yaya gəley kəndə, böyük oğlunun öyünə. Deyirəm, bəlkə. − Ürəyim düşdü. “Yox-yox heç vaxt. Elə danışmayın”. Xudahafizləşmədən gəlinin sözünü kəsib cığırla düşürəm. Arxadan məni səsləyir.

− Ay xanım, göreyəm uzaqdan gəlmisən. Sən həzrət Abbas getməyin. Gəlin qonağım olen, rahatlanın, sora gedərsiz.

− Sağ ol, bacı. Allah razı olsun. − Ürəyimdə danışa-danışa cığır boyu aşağı düşdüm. Yolun hər iki tərəfində tikilən evlərə baxa-baxa axırıncı evə çatdım. Görən, budumu? Darvazası göyə çalan evin yanında dayanıb tərəddüdlə qapını döymək istədim. “Kaş sağ olaydı”. Qapının açar yerindən baxdım. Həyətdən suyun şırıltısı eşidilirdi. Yeniyetmə bir qız həyətdə kranın başında əllərini yuyurdu. Qapının zəngini basdım. Ayaq səsləri darvazanın düz yanında eşidildi. Qapı açıldı. Ürəyim əsə-əsə qapıda görünən başı, bağlı on üç, ön dörd yaşlı qıza baxdım. Ağappaq, dəyirmi çöhrəsi vardı, sıx kirpiklərinin arasından görünən qara gözləri təəccüblə mənə baxırdı. Fars dilində məndən nəsə soruşdu. Deyəsən, kimi istədiyimlə maraqlanırdı.

− Nə deyirsən, qızım? Mən...

Ağ çöhrəli, qara gözlü qızcığaz mənim Azərbaycan dilində danışdığımı görüb o da mənim dilimə keçdi: − Kimi istəyirsiniz, xanım? − Soruşdu.

− Bura kimin evidi, qızım?

− Ağamın.

− Ağan kimdi ki?

− Məhəmməd.

− Evdə kim var? Mənə Mələk xanam lazımdır, Mələk bibi bu evdə yaşayır?

− Mələk? Mələk mənim nənəmin adıdır. Mənim nənəmdi. Çağırım?

− Mələk bibimi? O burdadı?− Dodaqlarım əsə-əsə qıza baxdım: − Ona bir şey olmayıb ki?

−Nə olmalıdır ki, nənəmə? Buyurun, xala, içəri keçin indi çağıraram, gəlen mənimlə.

−Yox, qızım. − Tərəddüdlə ayaqlarımı sürüyürəm. "Bəlkə başqa evə gəlmişəm"?

Qız çöl başmaqlarını şappıldada-şappıldada evə tərəf qaçdı. Mən həyətə keçib gözümü evin yarıaçıq qapısına dikirəm. Həyəcandan gözümə heç nə görünmür. Nə evin qabağındakı səliqə-səhmanı, nə tut, ərik, alça ağaclarını, nə də həyətin ortasında dupduru suyu olan çarhovuzu. Bunları sonradan görəcəyəm. Birdən qapının arasından beli azacıq əyilmiş, başına ağ güllü çitdən çadra atmış bir qadın çıxdı. Pilləkənləri düşmədən mənə sarı boylandı. Bu bibim idimi? Mən gözlərimi bu qadının üzündən çəkmədən ona yaxınlaşıram. Dəyişib, üzünü qırış basmış, ala gözlərinin gilələri artıq bozumtul rəngə çalırdı. Xınalı, seyrəlmiş saçları qara ləçəyinin altından görünürdü. Gənc vaxtında gördüyüm al dodaqları soluxmuş çiyələyə oxşayırdı. Mən diqqətlə bibimə baxırdım. Mələk bibim mənim naməhrəm olmadığımı görərək çadrasını başından götürüb əlinə yığdı və təəccüb içərisində yaxınlaşıb yanımda dayandı. Hə, bu bibim idi. Mənim gecələr

yuxuma girən, yarım əsrdən çox idi ki, görmək arzusunda olduğum bibim. O gözəl, şux, ala göz, üzü zənədxanalı ( o zənədxanadan mənim də üzümdə var) bibimi itirsəm də, yerində artıq ömrünün son illərini, kim bilir, bəlkə də, aylarını yaşayan, gözlərinin parıltısı sönmüş, canının suyu çəkilmiş, ayaqları taqətdən düşmüş bir qarı dayanmışdı. Mən bibimi tanıdım. Allah-təalanın qocalanda da ona bəxş etdiyi gözəlliyinin izləri çöhrəsində qalmışdı. Bibimin nuru itmiş gözləri mənə baxırdı. Demək istəyirdi ki, sən kimsən, ay xanım, ay qızım, ay bacım? Ondan on, on beş yaş kiçik olsam da, axı mən də ahıllaşmışam. Mən bibimin qabağında dayandım və birdən ağlamaq məni tutdu. Gözlərimdən süzülən yaş içimə tökülürdü.

− Ay bala, sən kimsən? Niyə ağlesan?.

Mən istər-istəməz yaxınlaşıb bibimin əllərindən yapışdım.

− Bibi, məni tanımadın?

Bibim yenə də diqqətlə üzümə baxdı:

−Yox. Sən kimsən ki?

− Həliməyəm, bibi, Həlimə!

− Həlimə? Hansı Həlimə?

− Həlim! Sənin qardaşının qızı! Əhmədin qızı!

Bibimin gözləri böyüdü. Geri çəkilib başdan-ayağa mənə baxdı. − Həlim? − Müvazinətini saxlaya bilməyib çarhovuzun qırağından yapışdı. Sonra əllərini əlimdən çəkdi və hönkürə-hönkürə məni qucaqlayıb sinəsinə sıxdı. Qucaqlaşdıq. Bibimin yanaqlarından süzülən göz yaşlarını silə-silə mən də ağlayırdım. Bibim bir an elə bil özünə gəlib əllərini saçlarımda, üz-gözümdə gəzdirə-gəzdirə dodaqlarının altından adımı çəkirdi. − Həlim balamı axır ki, gördüm. Tanrı mənə ömür verdi ki, istəkli qardaşım qızını görem, sora ölem, qardaşlarımın həsrətini çəkdirsə də, balasına qovuşdurdu.

Ay tanrı, ölmədim, bu günü də gördüm! − Bibim məni qucaqlayıb üz-gözümdən öpür və deyirdi:

− Qardaş yadigarı, bala, qardaşlarımın iyini səndən aleyam, bala! Nənəm “Oğlanlarım” deyə-deyə dünyasını dəyişdi. Dörd oğlu ola-ola oğul çiynində getmədi. − Sonra əlini qiblə tərəfə uzadıb: − Ay nənə, hardasan? Gəl nəvəni qarşıla, Həlimə nəvən gəleb, istəkli Əhmədin, lələmin, istəkli gəlninin − Qumrunun qızı gəleb. Mənim ürək-param gəleb. −Bibim elə bil yas yerində oturub ağı deyirdi. Nə vaxtdan, nə vaxta sakitləşdi. Mən də özümə gəlib başımı qaldırdım. Bibimin gəlini, qızı (sonradan bildim), nəvələri bizi dövrəyə almışdılar. Hamısının üzündə heyrət qarışıq bir təəccüb ifadəsi vardı. Bibimin halı get-gedə pisləşirdi. Yanımızda dayanmış qadın qızlardan birini dərman dalınca göndərdi.

− Tez, bala, qaç nənənin ilacını gətir, su da gətir? Təzyiqi qalxeb deyəsən. − Sonra bibimin əllərini, boynunu ovuşdurmağa başladılar. Qızın gətirdiyi dərmanı bibimə içirtdilər. Bibim gözlərini qapamışdı. Sonra ayılıb məni axtardı. Mən çaşıb qalmışdım. Bibimin halının xarablaşmasında özümü günahkar sayırdım. Evdəkilərin hamısı başımıza yığışmışdı.− Həlim! Həlim, hardasan, qızım! Mənim əzizgirami qardaşımın qızı. −Bibim əyilib baxışlarını üzümdə, gözümdə gəzdirir və göz yaşları üzünə süzülə-süzülə deyirdi: − Şükür, şükür, Həlim qızımızı, göyçək qızımızı gördüm. − Mən də ağlayırdım. Bu günün həsrətilə yaşamırdımmı? İndi budur doğma torpağımdaydım, doğulduğum torpaqda və burda bircə təbərrik kimi bibim qalıb.

Başımıza yığıldılar. Sonra bibim mənə təqdim edəcəkdi övladlarını, gəlnini, nəvələrini. Qız nəvələri uşaq olsalar da başları bağlı idi. Qoluna bir neçə silsilə bilərzik taxmış qadın − bibimin gəlini, ondan bir az cavanı,

məni tanıyandan sonra tez-tez qucaqlayıb üzümdən öpən qonur gözlü qadın qızı idi. Kranın başında gördüyüm su pərisi kimi gözəl qız oğul nəvəsi idi. Evdəkilər mənə, mənim mantomun altından görünən paltarıma, onların bağlamadığı tərzdə özünəməxsus tərzdə örtdüyüm (saçlarım görünürdü) nazik, ipək şalıma baxırdılar. Buranın qadınlarının böyüklü-kiçikli bağladıqları şalın, ya da çadranın altından saçları görünməməlidir. Bibim əllərimdən bərk-bərk tutub. − Ölmədim, qardaşım qızını, Həlimi gördüm. − Üzünü bilərzikli qadına tutub: − Həlimdi. Lətifə, Şurəvidən gəleb sənə həmişə danışardım ha...

− Başa düşdüm, nənə. Çox şad olduq.

"Lətifə" dediyi xanım bibimin böyük gəlini ilə qızı Züleyxa məni qucaqlayıb üzümdən öpdülər. − Xoş gəleb, səfa gətirmisən.

Sonra artıq özünə gələn və sakitləşən bibimlə məni evə apardılar. Təbriz xalçasıyla döşənmiş böyük zalda sərinləşdirici işləyirdi. Evlər sərin idi. Söykənmək üçün xalçanın üstünə qoltuq altı, mütəkkələr düzülmüşdü. Məni bibimlə yuxarı başa keçirtdilər. Yanaşı oturduq. Sonra bibim sözlü adamlar kimi mənə baxdı. Bilirdim məndən nə soruşmaq istəyir. Elə ilk sualı bu oldu: − Qardaşlarım, gəlinbacım dururlarmı?

Başımı aşağı saldım. Təzəcə sakitləşmişdik. Gözlərim dola-dola başımı buladım.

Bibim də səssiz-səssiz, hıçqırığını içinə çəkə-çəkə: − İndiyə kim qalıb ki, Səməd əmin də, Abdulla əmin də haqq dünyasına qovuşeblar. Bircə mənim üzüm bərkdi. Ölüb qurtarmeyam.

− Allah eləməsin, bibi. − Demək, əmilərim də. − Lətifə aramıza girib: − Bax, dayı qızı, şükür elə ki heç olmasa bibini gördün. Ağlama. Sən dilindən düşmeyrdin. Elə deyirdi, görəsən, Həliməni görmək mənə qismət olacaqmı.

Vallah, axır vaxtlar yuxusuna da girirdin. Yuxusu çin çıxdı nənəmizin. Özünün də nəziri var. Nəzir eləmişdi ki, doğmalarımdan bir xəbər eşitsəm, heç olmasa birini görsəm qurban kəsdirəcəm, qonum-qonşuya payladacam. Səhər kəsərik qurbanlığı.

− Çox sağ olun. Vallah, məni utandırırsınız. Allah qəbul eləsin.

Mən gözəyarı aldığım hədiyyələri qızlara verdim. − Özünüz paylaşdırın.− dedim.− Orda bibimin də hədiyyəsi var. Yerbəyerdən təşəkkür etdilər.

Hamamı qızdırdılar. Yaxalanıb paltarımı dəyişdim. Bibimin boğçasından çıxardıb verdiyi yüngül yaylığı başıma bağladım. Bibim nəzərlərini məndən çəkmirdi. Mənim də gözüm ondadı. Ağarmış saçları xınalıydı. Üzünü örtən narın qırışları, nurunu itirmiş ala gözlərini görmək mənə ağır gəlirdi. O da məndən gözlərini çəkmirdi. Balaca qızcığaz ahıl yaşında bibisini görməyə gəlib. Hiss edirdim ki, Mələk bibim mənim üzümdə, gözümdə balaca Həlimin izlərini, əlamətlərini axtarır. Deyəsən, tapdı da. Zahirən bibimə çox oxşadığım üçün öz gəncliyini məndə görürdü və uşaq kimi yanında otuzdurub tez-tez başıma sığal çəkirdi. Lətifə mənə baxıb gülümsəyərək dedi: − Dayı qızı, vallah həmişə sözü-söhbəti səndən olardı. − Gözümü bibimdən çəkmirəm. Gəlin vaxtı gördüyüm cavan bibimin gözəlliyini qocalıq əlindən alıb, ancaq o, yenə də mənim üçün gözəl idi.

Qızlar əl-ayağa düşüb xörək hazırlığına başladılar. Sərin şərbət, meyvəylə yanaşı xiyar ortaya gəldi. Bibimin həyəcanı keçib, qan təzyiqi normallaşıb, deyəsən. Üzünün qızartısı da çəkilib. Şirin-şirin mənə baxır. Sonra sözlü adamlar kimi üzümə baxır, sanki gözləriylə demək istəyir. “Mənə qardaşlarımdan danış”.

Ürəyimdə öz-özümə deyirəm: “Nə danışım bibi, atamdan, əmimdən. anamdan. Atamın həyatı ürək açan olmayıb. Onun gəncliyinin soyuq, şaxtalı Sibir torpağında keçdiyini desəm bibim təzədən kövrələcək.”

Bu vaxt evin sahibi, bibimin oğlu da gəldi.

Bibim hündür boylu, qarayanız, xoş sifətli oğlunu mənə təqdim elədi.

− Böyük oğlumdu, Həlim, − dedi?− Məhəmməd. Sonra üzünü mənə tutub. Məhəmməd, Həlimədi − qardaşım qızı. Şuravidən gəleb. − Məhəmməd təəccüb, bir az da heyrətlə mənə baxıb: − Çox xoş olduq, dayı qızı. Xoş gəleb, səfa gəterebsən. − Görüşürük.

Qohumlarımı gördükcə ürəyim açılırdı. Neçə illərin ayrılığından sonra doğmaların bir-birinə sarılıb görüşmə anını kim görsəydi təsirlənərdi. Bibimin övladlarına, nəvə-nəticələrinə baxdıqca, onların gah fars, gah da Azərbaycan dilində bir-biriləri ilə danışıqlarına qulaq asdıqca, vətənimin o biri tayında, gəldiyim yerdə şəhər uşaqlarının farsın yerinə rus dilini Azərbaycan dilinə qarışdırıb danışıqları yadıma düşürdü. Elələri vardı ki, Azərbaycan dilində danışanlara yuxarıdan aşağı baxardılar. Onlara “geri qalmış” deyərdilər. Nə yaxşı ki, o illərə son qoyuldu.

− Anama çox oxşayırsınız, dayı qızı. Heç bacım Həliməylə Züleyxa anama bu qədər oxşamer ki, siz oxşeyersiniz. Bibim qızı Züleyxa mənə baxıb gülür.

− Qardaşım düz deyer, Həlimə dayı qızı, − Sonra: − Sizə sərin şərbət gəteremmi? − Soruşur.

− Təşəkkür edirəm, Züleyxa, gözəl adın var.

− Məndən böyük bacımın adı sənin adındandır. Həlimə.

Sarsılıram. Demək bibim öz qızına mənim adımı qoymaqla özünə təskinlik tapıb.

Şam yeməyindən sonra süfrəyə çay gəldi. Təbriz şirniyyatı ilə çay içə-içə məni sorğu-suala tutdular. Mən burdan gizli yolla qayıqla sərhədi keçdikdən sonra başımıza gələnləri – əmimin bizi, öz işlədiyi yerdə – susuz, ağacsız, isti aran qəsəbələrin birində yerləşdirməyini, orda yaşamağımızı, otuz yeddinci ilin repressiyasında atamın sərhədi keçdiyi üçün casus adıyla Sibirə sürgün olunmağını, on ildən sonra üzgün, xəstə halda qayıtmağını, anamın gecə-gündüz atamçün, qohum-əqrabaları üçün göz yaşı tökməyini, əmimin Vəsixanım adlı acıdil, dikbaş, qısqanc bir dul qadınla evlənməyini və bu izdivacın oğlu olsa da, heç də uğurlu alınmadığını, əmimin Leylaya, balaca Səkinəyə görə xiffət etməyini, atamla əmimin, onlardan beş il sonra anamın da hansı ildə, hansı ayda vəfat etmələrini danışdıqca bibim göz yaşlarını saxlaya bilməyib ağlayırdı.

Bibim oğlu döşəkcənin üstündə bardaş qurub, fikirli-fikirli qulaq asırdı. Sonra köksünü ötürüb:

− Dayı qızı,− dedi, − çox çətin günlər yaşamısınız.

− Hə, ölkə başçısı Stalinin göstərişiylə otuz yeddinci ilin repressiyasında elə ailə yox idi ki, o illərin acısını çəkməsin. Azərbaycanın ziyalılarını, ən yaxşı insanlarını məhkəməsiz güllələdilər, çoxlarını Rusiyanın soyuq, ayaq dəyməz yerlərinə sürgün elədilər. Bu bəladan təzəcə qurtarmışdıq ki, İkinci dünya müharibəsi başladı. İki yüz mindən çox azərbaycanlılar müharibədə həlak oldu. İndi də ermənilər Rusiyanın köməyilə Qarabağı işğal etdilər.

Bibim oğlu: − Qəzetlərdən oxuyuruq. − dedi, − Ordakı vəziyyətdən xəbər tuturuq. Atəşgah elan olunduğuna görə də çox söyünürük.

− Bəli,− dedim. − Bu yaxında müharibə dayanıb. İndi, şükür, sakitlikdi. Ancaq torpaqlarımız işğal altındadı. Bu neçə ildə böyük faciələr yaşadıq.

Minlərlə insanlarımız işgəncə ilə öldürüldü. Xocalı şəhəri sakinlərilə bərabər yerlə yeksan edildi, Bakıda üç il bundan öncə iyirmi yanvarda dinc əhalinin üstünə tanklar yeridildi. Bibi oğlu, yüzlərlə günahsız insanların öldürülməsinə necə sakit yanaşaq. Tək ermənilər olsaydı nə dərdimiz, onların arxasında Azərbaycanın neftiylə İkinci dünya müharibəsində almanlara qalib gələn Rusiya dayanmışdı.

– Deyirux axı, bu tək erməninin gücü döyül.

– Ermənilərin təkidi ilə Sovet Rusiyası iyirmi yanvarda bizim üstümüzə sovet ordusunu yeritdi. İnandığımız, güvəndiyimiz sovet ordusunu. Nə qocaya, nə uşağa, nə də cavanlara qıydılar. Dinc əhalini gülləbaran etdilər.

Danışdıqca o hadisələr, əsgərlərin vəhşilikləri gözümün qabağına gəldiyindən əllərim titrəyirdi. Bibim titrəyən əllərimi əlinə alıb ovuşdurmağa başladı.

– Sakitləş, bala, sakitləş.

– Bibi, bizim o anasız, atasız qalan uşaqları, ermənilər namuslarına toxunmasın deyə özlərini qayadan atan, zəhər içən fidan qızlarımızı, şəhid olan sütül cavanlarımızı necə unudum. Yüzlərlə qadınlarımız, körpələrimiz hələ də əsirlikdədi.

– Radioda hər gün qulaq asereğ. Həlimə dayı qızı, o vaxtlar hakimiyyət davası gedirdi. Biri hakimiyyətə keçməmiş, o birisi gəlerdi.

– Düzdü, o vaxt xalq başlı-başına qalmışdı. Məcbur olurdular özləri özlərini müdafiə eləsinlər. Ona da imkan vermədilər. Yuxarıdan göstəriş gəldi ki, əhalidən bütün ov silahlarını yığışdırsınlar. Silahlar da əllərdən alındı. Elə ermənilərə də bu lazım idi. Əliyalın əhaliyə hücum edib evlərinə od vurmağa, insanları işgəncə ilə öldürməyə, əsir aparmağa nə vardı ki.

Bibim göz yaşlarını saxlaya bilməyib təzədən ağladı: −Allah ermənilərə qənim olsun. Onların adətidir fitnə-fəsad törətsinlər. Bakidə olan vaxt nənəm danışardı ki, biz uşaq idik, onda Novruz bayramından sora martın axırıydı, otuzuydu, ya otuz biriydi, deyirdi, ermənilər doluşmadılar şəhərə, camaatı gülləbaran etdilər. Dayımı elə o vaxt öldürmüşdülər də, girmişlər həyətə... Dayım da işdən təzəcə gəlibmiş. Əllərini yuyub ki, keçsin evə, çörəyini yesin. Qılıncı qarnına necə soxublarsa bağırsaqları yerə tökeleb. Bircə onu deyə bileb ki, ay məssəbsizlər neynirsüz? O türk oğlu, Nuru paşa özünü yetirməsəymiş Bakidə qan su yerinə axarmış.

− O vaxt Türkiyənin köməyi, Nuru paşanın gəlişi bizi o mənfur ermənilərdən xilas elədi, − dedim.

Bibimin gəlini, qardaşı evinə qonaq gələn qızı, nəvələri başımıza yığışıb söhbətimizə maraqla qulaq asırdılar. Gəlini məyus-məyus söhbətimizə qoşuldu.

− Allah bütün şəhidlərə rəhmət eləsin. Mənim də sütül qardaşım İraqın İranla müharibəsində həlak oldu. O vaxt Azərbaycandan çox şəhid verdik. On yeddi yaşı vardı əsgər gedəndə. Dayı qızı, qəbir üstünə gedəndə görəcəksən. Şəhidlərimizi gətirib kənddə basdırdılar. Mənim qardaşım Fərəməz kimilər çoxdu. Yazıqlar nakam getdilər.

−Allah rəhmət eləsin, − dedim, − Hamısına. Müharibə dayansa da,−dedim,−Biz öz torpağımızı geri alacağıq. Bunun geci-tezi var. Çünki haqq bizim tərəfimizdədir. Artıq bütün ölkələr Ermənistanı işğalçı ölkə kimi tanıyır.

− İndi vəziyyət necədi, Həlim? − Bibim soruşdu.

− Şükür, − dedim, − hərcmərclik aradan qalxıb. Əmin-amanlıqdı. Buna baxmayaraq ermənilər dinc durmurlar. O tərəfdən atırlar. Heç vaxt

inanmazdıq ki, çörəyimizi yarı bölüb yedizdirdiyimiz, süfrəmizin başında otuzdurduğumuz ermənilər bizdən xəbərsiz, bizə qarşı silahlanarmışlar.

Bibim: −Mən onda uşaq idim, − dedi, − Nənəm deyərdi ki, elə o vaxtlar ermənilər bu tərəfə keçib, silahlanıb nə qədər camaatımızı qırdılar. Elə Ərdəbildə, Təbrizdə, Urmiyədə. −Mən köksümü ötürüb: − Ay bibi, − dedim, − Vallah, biz unutqan millətik. O vaxtkı hadisələrdən sora indiyə kimi bu millətə qardaş da deyirdik.

Bibimin gəlini xalçanın üstündə süfrəni aça-aça: − Bu işlərin hamısı allahın əlindədir. Onların elədiklərinin hamısı gildir-gildir burunlarından töküləcək. − dedi.

− Amin.

Birdən Güleyşə xala ilə Quzeydən gələn və anası üçün ağlayan o balaca oğlan yadıma düşdü. Bibimdən soruşdum ki, onun taleyi necə oldu. Ata-anasına qovuşdura bildinizmi? Bibim başını yellədi: − Eh, ay Həlim, hardan. Yaşı əllini keçeb. İndi də valideynlərinin adı çəkiləndə ağler. Güleyşə onu böyütdü, evləndirdi. Övladları da var. Bu yaxınlarda eşitdim ki, ata-anasını görməyə gedəcək. Əgər sağ qalıblarsa. Təki yaşlı vaxtlarında balalarını göreb sora öleydilər.

− Amin! Təki görəydi. “Bu da bir ailənin faciəsi” fikirləşdim.

Çay içiləndən sonra bibimin yatdığı otağa keçdik. Bu otağa da iri, naxışlı xalça salınmışdı. Xalçanı o saat tanıdım. Bibimin toyundan qabaq toxuduğu Sarılı xalça idi.

Demək, bu xalçanı bibim oğlu Məmmədə bağışlamışdı. Evin yuxarı başına taxt qoyulmuş, üstünə yorğan-döşək yığılmışdı. Xatirələr yenə məni qoynuna aldı. Bibim məni fikirdən ayırdı. Əlini taxta sarı uzadıb: − Həlim, bilerəm orda yerdə yatanlar az oler. Qoy sənə taxtda yer açderem, orda yat.

Etiraz etdim: − Yox, bibi, mən elə sənən yerdə yatacağam. Yadındadı, o vaxtlar yanaşı yatmağımız? − Bibim əlinə aldığı balışla oturdu: − Heç yadımdan çıxarmı. Kaş o günlərə qayedeydeq. Qardaşlarım da, o anan, dilsiz, ağızsız, fağır anan da yanımızda oleydılar. − Gecə lampasını yandırıb xalçanın üstə saldığımız döşəklərdə yanaşı uzandıq. Yuxum gəlmirdi. Anam gecələr yata bilməyəndə deyərdi: − Ay bala, yuxum ərşə çəkilib. Bu gün mənim də yuxum ərşə çəkilmişdi.

Bibimin gözləri yumulurdu. Həm yaşının çoxluğuna görə, həm də bu günki həyəcanlı anları, göz yaşları onu yormuşdu. Suallarıma yarı yuxulu halda cavab verib əlimdən yapışaraq yuxuya getdi. Bibimin danışığından bildim ki, Səməd əmim bizdən sonra nənəmi tək qoyub, Badamın israrıyla Tehrana köçüb və orda dünyasını dəyişib. Leyla əmidostumsa Bulud əmimin yolunu gözləyə-gözləyə Səkinəni böyüdüb ərə verib, Səkinə də iki uşaq dünyaya gətirib, üçüncü uşaqda dünyasını dəyişib. Səkinənin yadigarlarını Leyla xala böyüdüb və valideynlərindən qalan əkin yerini isə iki oğul nəvələrinin arasında bölüb. Bəs Abdulla əmim? Bibim Abdulla əmimdən vaysna-vaysına danışdı. − O bədbəxt Təbrizdə zindana düşdü. Nə Ərbədilə gələ bildi, nə də evləndi. İki dəfə zindana salındı. Tudəçilərə qoşulmuşdu. Şaha qarşı gizli işlər görürdülər, bala. Ərdəbilə yanından bir nəfər gəlmişdi, dedi ki, həbsxanada canını tapşırdı. Qış ayına düşmüşdü bədbəxtin ölümü. Yol-irz bağlı idi. Ölkədən qacmayanlar da zindanlara salındı. Mənim qaynatamı da o üsyan edənlərə −Pişəvərin dəstələrinə yardım elədiyi üçün gəleb gecəynən apardılar. Yaxşı ki, Rəsul Rəştdə idi. Ona toxunmadılar. Onu aparseydılar mən dözə bilməzdim. Həlim, ağam − Rəsul qızıl kimi adam idi. Məni dünyalar qədər isterdi.Yeddi ildi dünyasın dəyişeb. Qaynanamsa elə o vaxt azara düşdü. Qaynatamdan sonra heç beşcə

il yaşamadı. Siz gedəndən altı-yeddi il sonra Azərbaycan İrandan ayrıldı. Bircə il azad yaşadıq. Bizim, bala, öz dilimizdə məktəblər açıldı, qəzetlər çıxdı, bizim dildə teatr göstərirdilər. Sora noldu. Şah qoşununu yeritdi Təbrizə, azəri şəhərlərinə, Ərdəbilə... Camaatı qırdı, tökdü.

* * *

Səhər naharından sonra bibim ağ, üstü xırda güllü çadrasını örtüb, mənə də sandığından çadra çıxarıb başıma atdı. Mantomu çıxarıb çadraya büründüm. Evdən çıxdıq. Bibimin qoluna girib bir ayaq, bir ayaq yaxınlıqda görünən qəbiristanlığa üz tutduq. Uzaqdan gözüm evimizə sataşdı. Ora getmək, həyətimizi, tut ağacımızı görmək üçün ürəyim atdandı. Bibim fikrimdən keçənləri elə bil üzümdən oxumuşdu: − Həlim, – dedi, − Qəbir üstündən çıxanda gedeb dəyərik evimizə. − Sevindim.

Qəbirstanlığa çatdıq. Babamın, nənəmin, qohumlarımın qəbrini ziyarət edib üstlərində fatihə verdik. Yaxınlıqda eyni boyda, eyni ölçüdə baş daşları qoyulmuş qəbirlər gözümə sataşdı: − Kimlərin qəbirləridir? − deyə bibimdən soruşuram. − Bibim: − İraqın İranla müharibəsi oldu ha, o müharibədə şəhid olan uşaqlarımızın qəbridir, − deyib onların üstündə də fatihə verdi. Şəhid olan bu gənclərin qəbirləri mənə Quzeydə Şəhidlər xiyabanında uyuyan, Qarabağ uğrunda döyüşən və ermənilərin gülləsinə tuş gələn gənclərimizi yadıma saldı. “Demək burda da...” Kövrəldim. Bibim iri bir daş parçasının üstündə oturub nəfəsini dərdi. Sonra: − Ya rəbbim, − pıçıldadı. − Sən nakam gedənləri behiştlik elə! − İki əlimizi də yuxarı qaldırdıq, −Amin! Amin! − dedik.

Bibim addımlarını çətinliklə atırdı. Bir əli çadrasında, o biri əli əlimdə məni qabağa salıb qəbiristanlıqdan çıxdıqdan sonra evimizə sarı üz tutduq. Yolda bibim mənə:

− Sən, − dedi, − Sıxılma, Həlim, bax, bizim evi alanlar Meşkindəndirlər. Özləri də insan adamdılar. Qonaq istəyəndilər. Səməd əmin Badamın sözüylə Tehrana köçdü.

Ev yiyələri evdəydilər. Küçə qapısını döyməyimizlə açılmağı bir oldu. Bibimi qapının ağzında görən qarabuğdayı, cavan qadın sevinc qarışıq çaşqınlıqla gah mənə, gah da bibimə baxıb özünü ələ aldı, sevincək bibimin üzündən öpdü: − Xoş gəlmisiniz, ay Mələk xala, həmişə siz gələsiniz. Vallah gözlərimə inana bilmeyəm. Sən də bizim tərəflərə keçərmişsən, − deyib bizi çəri dəvət elədi. – Sonra soruşdu:

− Bəs bu xanım kimdi, ay Mələk xala?

Bibim mənə baxıb fərəhlə: − Qardaşımın qızıdır, mənim Həliməmdi. Quzeydən − o taydan bibisini görməyə gəleb.

Gəlinin üzünə xoş bir təbəssüm yayıldı. − Eyləmi? Xoş gəleb, səfa gətereb, − dedi, − Çox məmnun olduq. − Məni də qucaqladı. − Sən İmam Rza, evə keçəyin. Həyətdə oturmeyin.

Mən həyətimizə, indi bizim olmayan həyətimizə baxıb: − Yox, bacım, −dedim. − Elə ağacın altında otururıq. − Yaxınlaşıb yavaşca əlimi tut ağacının gövdəsinə sürtdüm. Bibim döşəkcə qoyulmuş kətilin üstündə oturub gözlərini məndən çəkmirdi. Uşaqlıq illərim gözümün qabağında kino lenti kimi gəlib keçirdi. Nənəm, atam, anam, bibim, əmim, əmim uşaqları gözlərimin önündə dayandı. Həyətin bir küncündə nənəmin aş bişirdiyi ocaq, o aşağı evdə bibimin xalça toxuduğu hana, qoyun-quzu saxladığımız tövləmiz, nəyimiz varsa bir-bir yadıma düşürdü. Sanki həyətimizin hər tərəfini bürüyən yovşanın, yaz çiçəklərinin- nərgizin, bənövşənin, lalənin, ətrini hiss etdim.

Evimizin sahibəsi həyətə xalça sərib  çay süfrəsi açdı. İran xurması, Təbriz şirniyyatı ilə bərabər mer-meyvə, yanında da xiyar gətirdi. − Mələk xala, − dedi, − Sən balalarının canı  meyvələrdən yeyin, soyuducudan indicə çıxartmışam. Yol gəlmisiniz. Sərinləşin... − Əlimizi süfrəyə uzatdıq.

Burda oturduqca bir daha sanki uşaqlıq illərimə qayıtdım.

* * *

Güneydə qaldığım bu müddət ərzində bibimdən ayrılmırdım. Gecələr də onun yanında yatırdım ki, doyunca üzünə baxım.

Bibim məni uşaq kimi əzizləyir, yemək yediyimiz vaxt xörəydə ətin, toyuğun ən yaxşı tikələrindən mənim qabağıma qoyur, səhər naharında öz əllərilə lavaşdan dürmək tutub mənə verir, az qalırdı ki, məni uşaq kimi yedizdirsin. Yaxın qohumlar, bibimin rəfiqələri, tanışları məni növbəylə qonaq aparırdılar. Gecələrsə bibimlə baş-başa verib dərdləşirdik. Söhbətimiz gecənin yarısına qədər çəkərdi. Təəssüf ki, bibimin deməyinə görəana tərəfdən yaxın qohumlarım qalmamışdı.

Öz doğma kəndimdə yaşadığım bu xoşbəxt anlarımı elə bil yuxuda görürdüm. Sonra hardan gəldiyimi evimin quzeydə, yoxsa güneydə olduğunu, burda müvəqqəti qalmağımı belə unutmuşdum. Bibimin yanında vaxt da sürətlə gedirdi. Hələ ki, nə doğulduğum kənddən, nə də doğmalarımdan ayrıla bilirdim. Bircə istəyim də vardı. Arzum həm Şəhriyarın (Təəssüf ki Şəhriyarın qəbri Təbrizdə idi), həm də Şah İsmayıl Xətainin məzarını – “Şeyx Səfi məqbərəsi”ni görmək idi. Söz arası evdəkilərə eşitdirmişdim. Bibimin ala göz, göyçək nəvəsi  Xədicə  səhər naharından sonra mənə arzumu xatırladıb şəhərə − məqbərəni ziyarətə aparmaq istədiyini bildirdi. Sevindim. Qalxıb mantomu əynimə keçirdim. Bibimi yormayım deyə şəhərə Xədicəylə çıxdım. − Sən, bibi, qal, dincəl,  −

dedim, − Onsuz da səni çox yormuşam. − Bibimi çətinliklə razı saldım. Bibim: − Səndən niyaran qalacam, −dedi. − Nigaran qalma, − dedim, − Xədicə yanımdadı: Tez qayıdacağıq.

Alagöz Xədicəylə on nəfərlik ”Raf” avtobusuna mindik. Şəhər kəndin lap yaxınlığındadır. İyirmi, iyirmi beş dəqiqiəlik yoldu. Pətəxorun ensiz, dar küçələrilə avtobus açıqlığa çıxdı. Uzaqdan əkin yerləri gözümə sataşanda diksindim. Əmimlə atamın aldıqları o bəlalı torpaq da oralarda idi. Atamın bu torpaqla bağlı keçirtdiyi sarsıntıları yadıma düşdü. Alagöz Xədicəyə: − Atam burdan o vaxtlar, mən uşaq idim, qonşumuz Tumgöz Fərruxdan torpaq almışdı. Əmimlə birgə kişiyə xeyli pul verdilər, hələ üstəlik rəhmətlik anamın da qızıllarını. Ancaq insan çiy süd əmib. Fərrux bizə o torpağı satıb pul almağını dandı.

Xədicə maraqla qulaq asırdı: − Bə sora noldu, xala? − soruşdu.

− Nolacaq, qazıya rüşvət verib torpağı aldı əlimizdən. Özünə də şahid tapmışdı ki, atam yabayla onun başını yarıb. İstəyirdi atamı qazamata saldırsın. Atam dava-dalaşdan uzaq adam idi. Həmişə belə adamlarla yaxınlıq etməyi sevməzdi. Torpağı təzədən kişiyə qaytardı.

Bizim arxamızda saçları, saqqalı, hətta qaşları da ağarmış nurani, ixtiyar bir kişi oturmuşdu. Sən demə mənim əsəbi-əsəbi dediyim sözlərə qulaq asırmış. Nurani qoca yanında oturan qadına ucadan:

−Bikə, soruş gör bu xanım Şurəvidənmi gəleb?

Mən çevrildim: − Əmi, mənimləsiniz?

− Hə, hə, qızım, sən Əhmədin qızısan?

− Bəli, Əhmədin qızıyam. Şurəvi artıq yoxdu, əmi.

− Çox xoş, çox pakizə. İndiyə qalmazlar. Nə Bulut kişi, nə də dədən.

Başımı tərpətdim. Qoca: − Mən onlardan xeyli cavan idim. Allah rəhmət eləsin hamısına. Əsil kişi idilər.

− Sağ olun. Allah sizinkilərə də rəhmət eləsin.

− Hə, qızım, onu demək isteyerdim. O torpaq əhvalatı ki, var... Allah Fərruxa nəhlət eləsin. Qızım, aldığınız o əkin yerini deyirəm. Heç Fərruxa da qismət olmadı. Sizdən sora bir il çəkmədi ki, xırmanda Fərruxu ilan çaldı. Elə canı ordaca çıxdı. Bir fərsiz oğlu vardı. Qohumu da yalandan qazinin yanında şahidlik eləmişdi ha, bax o vələdüznanın kürəkəni torpağı da, evini də qumarda uduzdu. Fərruxun ailəsi dilənçi kökünə düşdü.

Bu xəbər mənimçün gözlənilməz oldu. Həm də heyrətlənirdim ki, əlli il bundan qabaqkı hadisə necə də yaddaşlara həkk olunub. Demək, Tumgöz Fərruxun cəzasını allah özü verib: − Siz də Pətəxordansınız? − soruşdum.

− Hə, bala, sən uşaq olardın o vaxtlar. Sənin dədən mənim qardaşımnan yaşıd idilər. Bizim ev Pətəxorun ayağındeydi, dədəngilinki gündoğan tərəfdə. Eh, qızım yaxşı insanlar yaddan çıxmeyer. Həmişə, yada düşəndə rəhmət oxuersan.

Qocanın yanında oturmuş qara çarşablı qadın mənim arxadan çiynimə sığal çəkib, − Xanım,− dedi,− xoş gəleb, səfa gətirmisən. Bizə də təşrif gətirin. Gəlsəniz söyünərik.

− Sağ ol, inşallah, bacı, − dedim. − Qismət olsa gələrik.

Bir daha Pətəxorlu qonşumıza təşəkkür elədim.

Şəhərə çatırıq. Qocayla, qara çarşablı qadınla xudahafizləşib avtobusdan düşürük. Küçələr tərtəmizdi, qızılgül kolları, bütün səki boyu əkilib. Ağ, qırmızı, çəhrayı güllər göz oxşayır. Küçələr qələbəlikdi. Çarşablı qadınlar mağazalara, marketlərə girib çıxırdılar. Qadınların demək olar ki, hamısı qaraya bürünüb. Xədicə qolumdan tutub məni o biri yola

keçirəndə ondan Şeyx Səfi məqbərəsinin hansı səmtdə yerləşdiyini soruşdum.

− Budey, Həlimə xala, o tini keçən kimi görünəcək.

− Gedək, qızım, mən o məqbərəni ziyarət etməliyəm. İsmayıl şahın öz xalqına biz azərilərə o qədər xidməti olub ki, həm də şair idi. Bizimçün gözəl şeirlər, əsərlər qoyub gedib. İlk dəfə bu insan Azərbaycan dilini dövlət dili elan edib.

Xədicə mənə maraqla qulaq asırdı.

Tini burulan kimi məqbərəni görürük. Məqbərə öz əzəmətiylə qarşımızda dayanıb. Ancaq çat-çat olmuş divarları, həyəti baxımsızdı. Baxımsız qalan məqbərəyə görə ürəyim sıxılır. “Vaxt gələcək” öz-özümə fikirləşirəm, “buranı istəsələr də, istəməsələr də abadlaşdıracaqlar”. İçəri keçmək istəyirdim. Xədicə üzümə baxıb: −Xala , −dedi, −istəyirsən bir az otur, dincəl. Sora içəri keçərik: − Məqbərənin küçəyə baxan həyətində yer tapıb otururuq. Ayaqlarım sızıldayır. Qarşımızda maşınlar şütüyür. Havada həzin meh əsir. Kölgəlik sərin olsa da gün adamı yandırır. Yaşıl, uzunqol mantomun üstündən örtdüyüm qara şalım sürüşüb çiynimə düşmüşdü. Xədicə yanımızdakı köşkdən sərin su alıb gətirir:

− Dayı qızı, Həlimə xala, için sərinlənin. Özümüzə gələk, sonra məqbərəni ziyarət edərik, − dedi.

Alagöz Xədicənin sözü ağzından çıxmamış qarşımızda polis maşını dayandı və maşından düşən polisdən biri bizə yaxınlaşdı. Əvvəlcə fars, sonra Azərbaycan dilində: − Qalxen, xanım, bizimlə getməlisiniz!

Mən çaşqın-çaşqın Xədicəyə, sonra da polisə baxıb: − Niyə, − deyə, − soruşdum, − axı niyə?

− Bizim başçımız sizi başa salar. İdarədə kimliyinizə də baxılacaq. − Alagöz Xədicə əlimdən yapışdı. Əllərinin əsdiyini görüb təəccüblə gah Xədicəyə, gah da polisə baxırdım. Polis yenidən israr etdi:

− Qalxen! − Qara uzunsov maşını bizə göstərib: − Keçin maşına, − dedi, − Gözlərimə elə bil qaranlıq çökdü. Atamı da o gəldiyim qüzeydə qara maşında aparmışdılar... Bayıl türməsinə...

− Orda aydınlaşdırarıq. − Xədicəyə baxdım:

− Sən get evə, − dedim, − Ancaq bibimə heç nə demə, yaxşımı? − Alagöz Xədicəni ağlamaq tutdu və getmək istəməyib ağlaya-ağlaya mənim ardımca maşına mindi. Sonra göz yaşını silib fars diində polisdən nəsə soruşdu. Polis əliylə başımı göstərib Xədicəyə nəsə dedi. Xədicə mənə baxıb həyəcanla tələsik: − Xala, hanı şalın? − deyib cavab gözləmədən çiynimə düşən şalıma əl atdı. −Tez, tez ört başını, xala. − Alagöz Xədicənin köməyilə şalı çiynimdən çəkib başımı alnıma qədər örtdüm. Saçım görünməməliydi. İndi mənə məlum oldu ki, bizi polis idarəsinə niyə aparırlar. Deyəsən, məni cərimə gözləyirdi. Yanılmamışdım.

Mənə polis idarəsində başı açıq gəzməyimə irad tutub çərimələmək istədilər. Cərimədə iyirmidən artıq şallaq nəzərdə tutulmuşdu. Əgər mən onların qara dəftərinə düşmüşəmsə.. Sənədimi alıb baxdılar. Mənim sərhədi keçib bura gəlməyim birinci dəfəydi. Ona görə də bizi azad etmək qərarına gəldilər. Bəs nolub? Niyə bizi ləngidirdilər. Birinci dəfə olduğu üçün mənə şallaq vurulmayacaqdı. Xarici sənədimə baxa-baxa öz aralarında nəyi isə müzakirə edirdilər. İşçilərdən biri üzünü mənə tutub asta-asta: − Bu dəfə sizi əfv edirik. Cərimələmirik. Bilgisayarda adınız çıxmadı, ancaq sizin bizim məmləkətdə qalamağınızın vaxtı bitib. Kimliyinizi götürün və ölkəni tərk edin.

Çaşıb qaldım. İndi yadıma düşdü ki, mənim səfərimin ön günü doğurdan da bu günə kimi bitməliydi. Deməк, mən vətənimi tərk etməliydim. Öz doğma vətənimdə istədiyim qədər qala bilməzdim. − Elə bu gün, bu saat? − soruşdum.

− Bəli, xanım.

− Mən burda doğulmuşam. Bura mənim vətənimdi.

− Bunun bizə dəxli yoxdu.

Birdən kənddən şəhərə nə üçün gəldiyimi yadıma salıb:

− Onda mənə vaxt verin, Xətainin qəbrini ziyarət edim, − dedim, − O, böyük şairimizin... Azərbaycan dövlətini yaradan şah İsmayıl Xətainin.

Otağın baş tərəfində yayxınıb oturan rəisin üzü bozardı: −Yox, −dedi, −Verə bilmərik. Özünüz də siyasi mövzuya keçməyin. Biz sizə güzəşt etdik, cəzalandırmadıq. Elə etməyin ki, −Nədənsə sözünü kəsib fars dilində danışmağa başladı. Xədicə də onun danışdığı dilə keçdi. Xədicənin əllərinin işarəsindən başa düşdüm ki, yalvara-yalvara onlardan mənimçün vaxt istəyirdi ki, kəndə gedib palımı-paltarımı götürüm. Axır ki, qızcığaz onlardan bircə saatlıq vaxt aldı. Bir saata ancaq kəndə gedib yır-yığış edərək qayıtmaq olardı. Demək mənə Şeyx Səfi məqbərəsini ziyarət etmək qismətim deyilmiş. Taksi tutub özümüzü kəndə çatdırdıq.

Gecəyə düşmək qorxusu məni təşvişə salmışdı. Bibim mənim ölkəni tərk etmək xəbərəni eşidəndə halbahal oldu. Evdəkilər əl-ayağa düşdülər. Çamadanımı rahatladılar, pay-puşlarını, yol üçün yemək azuqəmi başqa yüngül setkaya qoydular. Günortanı keçmişdı. Gün artıq qərbə − üfüqə doğru gedirdi. İşdən çıxa bilməyən bibimoğlu Məmmədin sifariş etdiyi taksi qapının ağzında dayanmışdı. Məni sərhədə qədər aparacaqdı. Bibim

ayrılanda ağlaya-ağlaya məni qucaqlayıb uşaq kimi başını sinəmə sıxdı: − Heç olmasa bir tikə çörək yeyəydin, ac getməzdin:

− Yox, bibi, mümkün deyil, qaranlığa düşərəm.

− Sağ-salamat get. Qızlar yemək qoyublar sənə. Aç qalma... Sənnən nigaran qalacam, Həlim.

Bibim bu sözləri deyə-deyə ağlayırdı. Sonra bir an nə fikirləşdisə barmağında qaynanasının Novruz bayramında ona bağışladığı üzüyünü çıxardıb barmağıma taxdı: − Sənin, Həlim, bu üzükdən xoşun gələrdi. Qoy bibindən sənə yadigar qalsın. −Etiraz etdim. Üzüyü barmağımdan çıxarıb: −Yox, bibi, yox. Bu çox qiymətli üzükdü, həm də hədiyyədir. Mən bu üzüyü götürməyəcəyəm, − deyib üzüyü bibimin ovcuna qoydum. − Bibim təzədən kövrəlib israr etdi: − İnciyərəm, Həlim. Yollarımız bağlı qaldı, bala, toyunu görə bilmədim, heç olmasa bu üzüyü götür. Elə bil toyunda barmağına taxmışam. − Heç nə deyə bilmədim. Bibim üzüyü təzədən barmağıma taxdı.

Bibimi qucaqlayıb təşəkkür elədim: − Bu üzüyü heç vaxt barmağımdan çıxarmayacağam, bibi, − dedim.

Bibimlə, doğmalarımla bir daha görüşüb taksiyə oturmaq istəyəndə gözüm Savalan dağında ilişib qaldı, sonra əyilib yerə baxdım. Alagöz Xədicə mənim nə istədiyimi o saat başa düşdü. Cibindən güllü əl dəsmalını çıxartdı, tələsik yerdən bir ovuc torpaq götürərək dəsmala büküb düyünlədi və mənə verdi: −Həlimə xala, o saat bildim nə istəyirsən. − Ağlaya-ağlaya gülümsədim: − Sağ ol, qızım, − deyib torpağı çantama qoydum, təzədən bibimə, sonra Savalan dağına baxdım. "Bəlkə də bu bizim son görüşümüzdü. Görəsən, sizi bir də görə biləcəyəmmi?". Taksiyə oturdum. İcazəsiz burda qala bilməzdim. Doğulduğum yurd yerindən ancaq bir ovuc

torpaq götürə bildim. Bu torpağı qoruya-qoruya, əzizləyə-əzizləyə vətənimdən vətənimə aparacaqdım.